AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
Azərbaycan Coğrafiya Cəmiyyəti

Institute of Geography named after acad. H.A.Aliyev, ANAS
Azerbaijan Geographical Society

Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri

COĞRAFİYA VƏ TƏBİİ RESURSLAR

Proceedings of the Azerbaijan Geographical Society

GEOGRAPHY AND NATURAL RESOURCES

2015

№2

ISBN-978-9952-8032-5-9

Buraxılışına məsul: Mail Xəlilov

Redaktor: Zahid Məhəmməd oğlu Əhmədov

Kompüter tərtibatçısı: Emil Akif oğlu Cəbrayılov

Jurnal AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda yığılmış və səhifələnmişdir.

***

Responsible for the issue: Mail Khalilov

Editor: Zahid Mahammad oghlu Ahmadov

Computer designer: Emil Akif oghlu Jabrayilov

This journal has been composed at the Institute of Geography named after acad. H.Aliyev, ANAS.

***

Ünvan: AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, AZ 1143, Bakı ş., H.Cavid pr., 115

Address: Institute of Geography named after acad. H.Aliyev, ANAS,
AZ 1143 Baku c. H.Javid ave. 115

Çapa imzalanmışdır 16.11.2015
Formatı 70x100 Tiraj-100

«AVROPA» nəşriyyatı, 2015

AMEA AKAD. H.Ə.ƏLİYEV ADINA COĞRAFİYA İNSTİTUTUNUN 70 YAŞI TAMAM OLUR!

Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti
akad. R.M.Məmmədov

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115
ramiz.mamedov@geo.ab.az

Qısa tarix. XX əsrin birinci yarısında coğrafiya artıq özünün təsvir funksiyasını başa vurur, təbiətin və təbii proseslərin ayrılıqda və qarşılıqlı inkişaf qanunauyğunluqlarını öyrənən fundamental və həm də tətbiqi elmə çevrilir. Hazırda iqtisadiyyatın və sosial həyatın elə bir sahəsi yoxdur ki, coğrafi məlumatlara ehtiyac duyulmasın və coğrafiya elminin nailiyyətlərindən istifadə edilməsin. Əsasən təbii ehtiyatlar və onlardan səmərəli istifadə, istehsalın yerləşdirilməsi, genişləndirilməsi və əhalinin məskunlaşmasının coğrafi problemlərini öyrənən bu elm Azərbaycanda onun təbii və iqtisadi xüsusiyyətlərinə müvafiq istiqamətdə inkişaf etdirilir.

Azərbaycanda coğrafiya elmi üzrə ardıcıl və sistemli tədqiqatların başlanması məhz XX əsrin birinci yarısına təsadüf edir. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin respublikanın təbii ehtiyatlarının öyrənilməsi və rayonlaşdırılması haqqında 1925-ci ildə verdiyi qərar əsasında Coğrafiya Sektoru yaradılmışdır. 1937-ci ildə bu sektor SSRİ EA Azərbaycan filialının tərkibinə verilir və bununla da keçmiş SSRİ və dünya elmi miqyasında özünəməxsus yeri olan Azərbaycan coğrafiya məktəbinin əsası qoyulur. Məhz bu tarixdən də Azərbaycanda coğrafiya elmi üzrə sistemli tədqiqatlara başlanılır. İ.V. Fiqurovski, H.Ə.Əliyev, R.V. Kovalyov və H.B. Əliyev kimi görkəmli alimlərin rəhbərlik etdiyi bu sektorun səkkizillik fəaliyyətində ilkin tədqiqatlar fiziki və iqtisadi coğrafiya, torpaq coğrafiyası, xəritəçilik, seysmologiya və astronomiya üzrə aparılmışdır. 1945-ci il may ayının 1-də həmin sektor əsasında Azərbaycan EA Coğrafiya İnstitutu yaradılır.

İlkin olaraq yaranmış institutda fiziki və iqtisadi coğrafiya, xəritəçilik şöbələri fəaliyyət göstərməyə başlamış, əsas tədqiqat mövzularından biri dağlıq ölkələrinin coğrafiyası olmuşdur. İlk illərdə əməkdaşların heç birinin elmi dərəcəsi olmasa da, artıq 1947-ci ildə institutda çalışan 20 nəfərdən 11-i elmlər namizədi idi, 3 nəfər isə aspiranturaya qəbul edilmişdi.

Coğrafiyanın tədqiqat obyektinin və mövzularının genişliyini, kadr potensialını nəzərə alaraq 1950-ci illərdə institutda 6 şöbədən ibarət yeni struktur yaranır. Ə.M.Şıxlinski iqlim, B.A.Antonov geomorfologiya, V.Q.Zavriyev xəritəçilik, S.H.Rüstəmov hidrologiya, Q.K.Gül Xəzər dənizi şöbələrinə rəhbərlik edirlər.

Hazırda institutda 205 nəfər əməkdaş çalışır, o cümlədən bir nəfər AMEA-nın həqiqi, iki müxbir üzvü, on bir elmlər doktoru, əlli iki elmlər namizədi çalışır. İnstitut strukturuna 13 elmi və 3 təşkilati şöbə daxildir.

Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən **Elmi Şura** (şəkil 1) institutun daxili məsələlərini müzakirə edir və qərarlar qəbul edir. Elmi Şurada elmi-tədqiqat işlərinin prioritet istiqamətləri müəyyən edilir, mövzuları və işləri təsdiq edilir, başa çatmış elmi-tədqiqat işləri müzakirə və qəbul edilir, başa çatmış elmi işlər içərisindən ən mühüm elmi nəticələr müəyyənləşdirilir, Yer Elmləri Bölməsinə və AMEA Rəyasət Heyətinə təqdim edilir. Elmi Şurada çöl elmi-tədqiqat işlərinin planları da müzakirə və qəbul edilir.

Şəkil 1. Coğrafiya İnstitutunun Elmi Şurasının üzvləri

İnstitutda **Gənc alimlər və mütəxəssislər şurası** fəaliyyət göstərir. Şura gənclərin elmi potensialının artırılması, onların müxtəlif elm sahələrində ixtira və kəşflərinin, təşəbbüs və təkliflərinin stimullaşdırılması və s. məqsədlərə xidmət edir.

2014-cü ildən Coğrafiya İnstitutunun nəzdində Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsində tədris prosesinin elmi-tədqiqatla əlaqələndirilməsi, universitet və institut arasında elmi-tədqiqat və kadr hazırlığı sahəsində əməkdaşlığın yaradılması və inkişaf etdirilməsinə xidmət edən **Elm və tədris mərkəzi (ETM)** fəaliyyət göstərir.

Elmi-tədqiqat istiqamətləri. 1990-cı ildən bəri Coğrafiya İnstitutu öz elmi fəaliyyətini əsasən aşağıdakı iki iri problem üzərində qurmuşdur:

- Azərbaycan təbiətinin inkişaf qanunauyğunluqları; təbii ehtiyatların və onların ekocoğrafi xüsusiyyətlərinin tədqiqi; istehsalın, sosial infrastrukturun və əhalinin ərazi təşkilinin iqtisadi-coğrafi problemləri.
- Xəzər dənizinin səviyyə dəyişkənliyini törədən amillərin və ekoloji şəraitin tədqiqi.

Bu iki kompleks problemin həlli üçün institutun elmi fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır: coğrafi təbəqənin dayanıqlığı və dəyişkənliyi qanunauyğunluqlarının formalaşması və inkişafının regional miqyasda kompleks öyrənilməsi; keçmiş geoloji dövrlərin təbii şəraitlərinin bərpa edilməsi; ərazinin geomorfoloji quruluşunun resursəmələgətirici bir amil kimi qiymətləndirilməsi; landşaftın təkamülü; landşaft planlaşdırılması, iqlimin mənşəyi və proqnozlaşdırılması; səhralaşma proseslərinin səbəb və növləri, onlara qarşı mübarizə üsulları; təbii ehtiyatların, iqlim potensialının xüsusiyyətləri və onlardan səmərəli istifadə olunması; qlobal və antropogen amillərin təsiri altında təbii mühitin dəyişməsinin regional proqnozlaşdırılması; Azərbaycanda əhalinin məskunlaşması və istehsalın ərazi təşkili; Xəzər dənizinin hidrometeoroloji şəraiti, çirkləndiricilərin yayılmasının proqnozu, ekocoğrafi və səviyyə problemləri.

İnstitutda respublika ərazisində təbii, iqtisadi və sosial-coğrafi proseslərinin inkişafı, onların qarşılıqlı əlaqələri, təbii ehtiyatların yerləşməsi qanunauyğunluqlarının, onlardan səmərəli istifadə yollarının öyrənilməsi üzrə elmi-tədqiqat işləri aparılır. Respublika ərazisində biosferin, atmosferin və dənizin təbii sərvətlərinin tədqiqi, onlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi üzrə bir sıra elmi problemlər işlənilmişdir. İqlimin proqnozu, hidrometeoroloji proseslərin tədqiqi, landşaftşünaslıq, geomorfologiya, paleocoğrafiya, neotektonika, biocoğrafiya və Xəzər dənizi sahəsində fundamental tədqiqatlar aparılmışdır.

Coğrafiya İnstitutunda fundamental elmi tədqiqatlara daim üstünlük verilmiş, şöbələrdə müstəqillik dövründə AMEA-nın illik hesabatına daxil edilmiş 100-ə yaxın mühüm elmi nəticə əldə olunmuşdur. Aşağıda 70 il ərzində bölmə və şöbələrdə aparılmış tədqiqatların ən mühüm elmi nəticələri haqqında ümumiləşdirilmiş məlumat verilir.

Landşaşünaslıq və landşaft planlaşdırılması tədqiqatları. Müvafiq şöbə 1965-ci ildə akademik B.Budaqovun təşəbbüsü ilə yaradılmışdır. Aparılan tədqiqatlar nəticəsində dağlıq ərazilərdə müasir landşaftların formalaşması və inkişaf dinamikasında aparıcı rol oynayan yeni tektonik hərəkətlərin bu proseslərə təsirinin fundamental qanunauyğunluqları aşkar olunmuşdur (B.Ə.Budaqov, A.A.Mikayılov, 1977, 1985 və s.). Tədqiqatlar göstərmişdir ki, relyefdə təzahür edən neotektonik hərəkətlərin təbii komplekslərin inkişafının ayrı-ayrı mərhələlərində landşaft qurşaqlarının sərhədlərinin dinamikasına, onların struktur-ərazi diferensiasiyasına təsiri böyükdür. Tərtib olunmuş paleolandşaft və paleocoğrafi xəritələr cənub-şərqi Qafqazda landşaftların müxtəlif geoloji dövrlər ərzində inkişaf qanunauyğunluqlarını və gələcəkdə onların inkişaf meyillərini aşkar etməyə imkan vermişdir.

Müəyyən olunmuşdur ki, eyni bir landşaft qurşağı daxilində landşaftın üfüqi strukturu relyefin geomorfoloji xüsusiyyətləri ilə diferensiasiyaya uğrayır. Düzənlik ərazilərdə isə müasir landşaftın struktur diferensiasiyasını əsasən mikroiqlimin və eləcə də relyefin səth quruluşunun dəyişkənliyi ilə qrunt sularının səviyyə əlaqəsi nizamlayır. Aşkar edilmişdir ki, düzənlik ərazilərdə landşaftın formalaşmasında təkcə makrorelyef formaları deyil, eyni zamanda, mezo- və mikrorelyef formaları, gətirmə konusları, konusarası çökəkliklər, yataqboyu tirələr, tirələrarası çökəkliklər, basdırılmış qalxmalar, çay terrasları və s. mühüm rol oynayır (B.Ə.Budaqov, A.A.Mikayılov, 1972, 1985; A.T.Haqverdiyev, 1975; O.Ə.Kərimov, 1975; Y.Ə.Qəribov, 1983 və b.). Palçıq vulkanlarının landşaftın morfoloji diferensiasiyasında rolu tədqiq edilmiş və onların yayıldığı ərazilərin landşaftları üç genetik qrupa–zirvələrin, vulkan konusları yamaclarının və vulkan ətəklərinin landşaftlarına bölünmüşdür. Müəyyən edilmişdir ki, arid iqlim şəraitində palçıq vulkanlarının fəaliyyəti şoranlaşma tipli landşaft komplekslərinin inkişafını sürətləndirir (B.Ə.Budaqov, A.A.Mikayılov, X.Ömərova, 1972; A.H.Əhmədov, 1975; A.A.Mikayılov, S.M.Zeynalova, 1998; E.C.Kərimova, 2010.).

Landşaftların geofiziki və geokimyəvi xüsusiyyətlərinin tədqiqində də müəyyən nailiyyətlər qazanılmışdır. Cənub-şərqi Qafqazda istilik və rütubətin paylanma nisbətindən asılı olaraq ərazidə yaranan landşaft qurşaqlarının əsas qanunauyğunluqları kəmiyyət göstəriciləri ilə səciyyələndirilmişdir (B.Ə.Budaqov, X.Ömərova, 1970). Ərazinin geokimyəvi xüsusiyyətlərinin ən mühüm amilləri araşdırılmaqla Azərbaycanın orijinal landşaft-geokimyəvi xəritəsi tərtib olunmuşdur (A.H.Əhmədov, 1999; B.Ə.Budaqov, A.H.Əhmədov, A.İ.Qəhrəmanov, R.Ə.Məqribi, 2002). Ölkənin ayrı-ayrı ərazilərinin kosmik şəkillərinin deşifrlənmə materialları əsasında geokomplekslərin landşaft-ekoloji qiymətləndirilməsi aparılmış və proqnoz istiqamətli nəticələr əldə edilmişdir.

Bu baxımdan səhralaşma problemi ilə bağlı tədqiqatlar daha səmərəli olmuşdur. Nəticədə bu prosesin müasir inkişaf qanunauyğunluqları ilə bərabər, onun yaxın 15-20 il ərzində inkişafını əksetdirən risk xəritələri də işlənib hazırlanmışdır. Yerətrafı tədqiqat peyklərinin məlumatlarından istifadə edərək Azərbaycan ərazisinin böyük hissəsi üçün (35 min.kv.km) səhralaşmanın növü, dərəcəsi və səbəbi rəqəmsal xəritələri tərtib olunmuşdur (B.Ə.Budaqov, A.A.Mikayılov, S.Y.Quliyeva, 1996; B.Ə.Budaqov, R.M.Məmmədov, A.A.Mikayılov, X.R.İsmətova, 2002; E.K.Əlizadə, İ.Y.Kuçinskaya, 2002; M.Ş.İsmayılov, M.S.Yunusov, E.Ş.Məmmədbəyov, 2003; S.Y.Quliyeva 2011).

2007-ci ildə ilk dəfə olaraq Azərbaycan coğrafiya elmində landşaft planlaşdırılması metodu tətbiq edilmiş və onun köməyi ilə Şirvan Milli Parkı və onun ətraf zonasının təbii və sosial-iqtisadi şəraiti qiymətləndirilmiş, təbii komponentlərin sahə və inteqrasiya olunmuş inkişaf, torpaqdan müasir istifadə xəritələri tərtib olunmuşdur. Bu metodun köməyi ilə milli parkın idarəçiliyi zamanı meydana çıxa biləcək konflikt situasiyalarını həlli üçün tövsiyələr verilmişdir (R.M.Məmmədov, 2008).

Müstəqillik illərində daha da dərinləşdirilən landşaft tədqiqatları müasir rəqəmli kosmik şəkillərin və CİŞ-in tətbiqi ilə aparılmaqla ölkə ərazisini tam əhatə etmişdir. Qlobal iqlim dəyişkənliyi şəraitində, çox surətlə artan antropogen yüklənmənin təsiri nəzərə alınmaqla, təbii komplekslərin landşaft-ekoloji və rekreasiya potensialları tədqiq edilmişdir. Təhlükəli təbii dağıdıcı proseslərin (sel, sürüşmə, daşqın, uçqun və s.) dağ geosistemlərində yaratdığı ekodinamiki gərginlik qiymətləndirilməklə dağ və düzənlik ərazilərdə inkişaf etmiş müasir landşaft komplekslərinin transformasiya və deqradasiya meyilləri müəyyən edilmişdir. Landşaftdaxili maddələr və enerji mübadiləsi xüsusiyyətlərini aşkar etmək məqsədi ilə palçıq vulkanları yayılmış Abşeron-Qobustan təbii vilayətində və Böyük Qafqazın cənub-şərq hissəsində landşaft – geokimyəvi tədqiqatlar aparılmış və bir çox mikro və makroelementlərin anomal konsentrasiya dərəcələri müəyyən edilmiş və onların insan sağlamlığına təsiri tədqiq edilərək ilk dəfə olaraq "Azərbaycanın tibbi-ekogeokimyəvi landşaft xəritəsi" tərtib olunmuş və bu xəritə «Azərbaycanın Milli Atlası»na daxil edilmişdir (E.K.Əlizadə, İ.Y.Kuçinskaya, 2011, S.Y.Quliyeva, İ.Y.Kuçinskaya, E.C.Kərimova 2012; S.Y.Quliyeva, İ.Y.Kuçinskaya, E.C.Kərimova, 2013, B.Ə.Budaqov, A.H.Əhmədov, Rüstəmov, 2012, M.C.İsmayılov, 2008)

Azərbaycan landşaftşünaslığında elmi nəticələrdən biri institutut əməkdaşlarının son illərdə apardıqları tədqiqatları ümumiləşdirərək, tamamilə yeni elmi-nəzəri və metodiki əsaslarla ilk dəfə olaraq ArqGİS sistemində 1:250000 miqyasda rəqəmsal «Azərbaycanın landşaft xəritə»sinin tərtib olunmasıdır (E.K.Əlizadə, A.A.Mikayılov, S.Y.Quliyeva, İ.Y.Kuçinskaya, E.C.Kərimova 2013).

Geomorfologiya və təbii risklər tədqiqatları. İnstitutda belə şöbə 1950-ci ildə yaradəlmışdır. Hələ 1956-cı ildə bu şöbə Azərbaycanın geomorfoloji xəritəsini tərtib və çap etdirmişdir. Azərbaycanda coğrafiya elminin bu sahəsinin inkişafında B.A.Antonov, B.Ə.Budaqov, N.Ş.Şirinov və M.A.Müseyibovun xüsusi xidmətləri olmuşdur.

Uzun illər boyu (xüsusilə 1960-cı ildən başlayaraq) aparılan tədqiqatlar nəticəsində bütün Azərbaycan ərazisinin kiçik və ortamiqyaslı, ayrı-ayrı ərazilərin isə irimiqyaslı geomorfoloji xəritələri tərtib olunmuş, relyefin forma və tiplərinin genetik təsnifatı verilmişdir. Dəniz və çay terrasları, düzəlmə səthləri, qədim buzlaq relyef formaları, yeni tektonik hərəkətlər, müasir ekzogen relyefəmələgətirici proseslər öyrənilmişdir.

Tədqiqatların nəticələri «Azərbaycan SSR-ın geomorfologiyası» (1959), «Cənubi-şərqi Qafqazın relyefi və müasir tektonikası (1961, 1973), "Azərbaycanın Böyük Qafqaz hissəsinin müasir və qədim buzlaşması" (1965), "Kür-Araz depressiyasının geomorfoloji quruluşu" (1975), «Naxçıvan MSSR-in geomorfologiyası» (1970) monoqrafiyalarında öz əksini tapmış, həmçinin vaxtaşırı Azərbaycan SSR-in neotektonik xəritələri çap edilmişdir (1972, 1991).

Geomorfologiya şöbəsinin əməkdaşları Moskva və qonşu respublikaların alimləri ilə birlikdə «Qafqaz relyefinin ümumi xarakteristikası və inkişaf tarixi» (1977), «Qafqazın regional geomorfologiyası» (1979) adlı əsərləri və «Qafqazın geomorfoloji xəritəsi"ni (1979) çap etdirmişlər. Bu tədqiqatlara görə B.A.Antonov, B.Ə.Budaqov, M.A.Müseyibov və N.Ş.Şirinov SSRİ Coğrafiya Cəmiyyətinin Fəxri fərmanına layiq görülmüşlər.

İnstitutun geomorfoloqları 70-ci illərin əvvəllərində intensiv inkişaf edən relyefin morfostruktur təhlili, yeni tektonika və vulkanizmin relyefəmələgəlmədə rolunu öyrənmək məqsədilə Böyük və Kiçik Qafqazda, Talış dağlarında və Kür çökəkliyində elmi tədqiqatlar aparmışlar. Xüsusi morfostruktur tədqiqatlar nəticəsində yuxarıda göstərilən ərazilərin relyefinin geoloji quruluşla əlaqəsi öyrənilmiş, morfostrukturların inkişaf tarixi, mənşəyi, məkanca yerləşmə xüsusiyyətləri və təsnifatı verilmişdir (B.Ə.Budaqov, N.Ş.Şirinov, H.A.Xəlilov, V.D.Hacıyev, E.K.Əlizadə, Ə.S.Əliyev, V.A.Quluzadə). Müəyyən edilmişdir ki, ərazinin morfostrukturlarının əsasının Mezozoy erasında qoyulmasına baxmayaraq, müasir formaları əsasən Neogen-Dördüncü dövrdə təşəkkül tapmışdır. Bu dövrdə geomorfoloqların əldə etdiyi mühüm nailiyyətlərdən biri Xəzər dənizi dibinin və sahillərinin dinamikasının inkişaf qanunauyğunluqlarının tədqiqidir (O.K. Leontyev, A.İ.Xəlilov, N.M.Mehdiyev, X.Vəliyev və b.).

1950-ci illərdən başlayaraq tətbiqi əhəmiyyət kəsb edən geomorfoloji tədqiqatlara, o cümlədən Lənkəran düzənliyində və Zaqatala bölgəsində çay yetişdirilməsi üçün əlverişli ərazilərin ayrılması, Xəzər dənizi və Mingəçevir gölü sahilləri dinamikasının öyrənilməsi, Böyük Qafqazın cənub yamacı çay hövzələrində təhlükənin, sel ocaqları və axımlarının müəyyən edilməsi, sürüşmələrin tədqiqinə və s. xüsusi diqqət yetirilmişdir. Kür-Araz düzənliyində basdırılmış qalxmaları müəyyən etmək məqsədilə struktur-geomorfoloji tədqiqatlar aparılmış, mühəndis-geoloji, hidrogeoloji və irriqasiya-meliorasiya işlərində istifadə üçün respublikanın düzənlik ərazilərinin irimiqyaslı geomorfoloji xəritələri (1:50000) tərtib olunmuşdur. Kiçik Qafqazda köklü və səpinti tipli qızıl yataqlarının toplanması şəraitinin, Kür çökəkliyində və Şamaxı-Qobustan vilayəti və Abşeron yarımadasında qeyri-struktur neft-qaz yataqlarının müəyyən edilməsi məqsədilə paleogeomorfoloji tədqiqatlar aparılmışdır. (N.Ş.Şirinov, M.A.Müseyiblov, R.Quliyev, X.K.Tanrıverdiyev, A.Səfərov, H.A.Xəlilov)

1998-ci ildə Azərbaycanın morfostruktur əsasla yeni geomorfoloji xəritəsi hazırlanmış, üç dildə (azərbaycan, rus, ingilis) legendası tərtib edilmişdir. Şöbənin əməkdaşları tərəfindən Azərbaycanın paleogeomorfologiyası 2011-ci ildə, 2012-ci ildə isə üç dildə «İzahlı geomorfoloji terminlər lüğəti» nəşr olunmuşdur (N.Ş.Şirinov, X.K.Tanrıverdiyev və b.).

Paleocoğrafiya və təkamül coğrafiyası. Paleocoğrafiya şöbəsi 1961-ci ildən fəaliyyət göstərir və həmin ildən ardıcıl olaraq respublika ərazisinin ayrı-ayrı regionlarının Dördüncü dövrünün paleocoğrafi şəraitini öyrənir.

60-cı illərdə şöbəyə R.H.Sultanov rəhbərlik edirdi və bu illərdə paleocoğrafiya sahəsində tədqiqat işləri aparılmağa başlanmışdı. Lakin 1970-ci illərə qədərki tədqiqatlar əsasən Dördüncü dövr çöküntülərinin yayılması və onların litoloji tərkibinin təhlili əsasında aparılırdı. Məhz buna görə də Dördüncü dövrün ayrı-ayrı əsrlərində mövcud olmuş paleocoğrafi şəraitin bərpa olunması lazımi səviyyədə deyildir.

Azərbaycan ərazisinin Dördüncü dövr paleocoğrafi şəraitinin daha ardıcıl və hərtərəfli öyrənilməsi 1970-ci illərdən Ə.V.Məmmədovun rəhbərliyi altında paleocoğrafiyanın ən yeni sahələrindən olan palinoloji üsuldan istifadə edilməklə respublikamızın bir sıra bölgələrinin paleocoğrafi şəraitinin tədqiqi ilə başlandı. Azərbaycanda və ümumiyyətlə, Coğrafiya İnstitutunda paleocoğrafiya sahəsində elmi tədqiqatların inkişafı əsasən mərhum akademik Ə.V.Məmmədovun adı ilə bağlıdır.

XX əsrin 70-80-ci illərində əldə edilmiş ən böyük uğurlardan biri kompleks tədqiqatlar əsasında Xəzər dənizi hövzəsinin Dördüncü dövr çöküntülərinin stratiqrafik şkalasının (bölgüsü) işlənib hazırlanmasıdır. Bu illərdə toplanmış zəngin materiallar əsasında Azərbaycanın Dördüncü dövr çöküntülərinin xronostratiqrafik vahidləri Şərqi Avropa, Qara dəniz və Şərqi Avropa düzənliyinin stratiqrafik vahidləri ilə korrelyasiya edilərək, vahid sxemə gətirilmişdir. Bu illərdə toplanmış zəngin materiallar əsasında H.Ə.Əliyev, Ə.V.Məmmədov, N.Ş.Şirinov və başqaları tərəfindən ilk dəfə olaraq Azərbaycanın 1:500000 miqyaslı Dördüncü dövrün geoloji xəritəsi və «Azərbaycanın Pleystosen» monoqrafiyası çap edilmişdir (1978). Bu əsər 1978-ci ildə respublika Dövlət mükafatına layiq görülmüşdür.

70-80-ci illərin ən böyük nailiyyətlərindən biri də paleocoğrafiya şöbəsi tərəfindən məşhur Azıx mağarası və onun ətraf zonasının paleocoğrafi şəraitinin tədqiq olunmasıdır. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azıx mağarasında ilk Paleolit insan 1,2 milyon il əvvəl məskunlaşmışdır və bu, dünyanın ən qədim düşərgələrindəndir.

1980-1990-cı illərdə palinoloji tədqiqat işləri daha da genişləndirilmiş və bunun əsasında Pleystosenin ayrı-ayrı əsrlərinin (Erkən, Orta, Son Pleystosen) 1:500.000 miqyaslı paleocoğrafi, paleolandşaft, paleoiqlim xəritələri tərtib edilmişdir. Bu illərdə Azərbaycanın Son Kaynozoyunun ilk radiometrik şkalası işlənib hazırlanmışdır, Azərbaycanın Kaynozoy çöküntülərinin stratiqrafik şkalasına əlavələr edilmişdir. Həmin dövrün ən böyük uğurlarından biri də şöbə əməkdaşlarının iştirakı ilə tərtib olunmuş və Londonda nəşr edilmiş iki cilddən ibarət “Avrasiya şelflərinin litoloji-paleocoğrafi xəritələr atlası”dır. Şöbə işçilərinin 80-90-cı illərdə gördüyü digər mühüm işlərdən biri Şərqi Qafqazın, o cümlədən Azərbaycanın dağlıq ərazisində Dördüncü dövrün ayrı-ayrı əsrlərində baş vermiş buzlaşma mərhələlərinin müəyyən dövrlərinə dəqiqlik gətirmələridir.

1990-2000-ci illərdə şöbənin əsas elmi-tədqiqat işlərinin istiqaməti Son Pliosen, Pleystosen və Holosen əsrlərində Azərbaycanın iqliminin təkamülünün öyrənilməsilə bağlı olub. Litoloji, geokimyəvi və palinoloji məlumatların əsasında iqlim göstəriciləri təyin olunub. Hər bir geoloji epoxanın iqlim optimumu aşkar edilib. Vulkanizmə, geokimya və üzvi orqanizm aləminə əsasən paleocoğrafiyanın Dördüncü dövr sistemi öyrənilmişdir. Geologiya İnstitutu ilə birgə 1998-ci ildə 1:500 000 miqyasında «Azərbaycanın litoloji-paleocoğrafi xəritəsi» tərtib edilmişdir.

2001-2011-ci illərdə əsas diqqət Azərbaycanın təbiətinin inkişafına, Pleystosen və Holosendə insanın paleoekologiyasının öyrənilməsinə verilmişdir. Olduvay arxeoloji mədəniyyətinə aid (2 min il əvvəl) qədim insanların məskunlaşdığı bir çox mağara düşərgələrinin mədəni təbəqələri öyrənilmişdir. Bu işlər hazırda da Azərbaycanın arxeoloqları ilə birlikdə aparılır. Bunlarla yanaşı, şöbənin işçiləri Azərbaycanın Kaynozoy əsri üzrə iqlimi və bitki örtüyünün təkamülünün öyrənilməsi ilə məşğul olmuşlar. Kaynozoyun ayrı-ayrı xronoloji kəsimləri üzrə paliobitki örtüyü xəritələri tərtib olunmuşdur. Bunlardan 8-xəritə (Pliosen- Eosen, Oliqosen, Üst Miosen (Alt və Orta Sarmat), Üst Miosen xəritələri (Üst Sarmat), Üst Pliosen, Güns-Mindel buzlaqları epoxası, Riss buzlaq epoxası, (Holosen) (1:2500000 miqyasında) 2012-ildə "Azərbaycanın Milli Atlası"na daxil edilmişdir.

İqlim və aqroiqlim üzrə tədqiqatlar. Azərbaycanda iqlim və meteorologiya sahəsində ilk sistemli tədqiqat işləri XIX əsrin axırlarına və XX əsrin ilk illərinə təsadüf edir. Bu, Azərbaycanda xüsusi cihazlarla təchiz olunmuş meteoroloji müşahidə şəbəkəsinin yaradılması və formalaşması, çoxillik məlumatların elmi ümumiləşdirilməsi imkanları ilə əlaqədardır. 1922-ci ildə Torpaq Komissarlığı yanında prof. İ.V.Fiqurovskinin rəhbərliyi ilə yaradılmış Meteorologiya bölməsində bu tədqiqatlar davam etdirilmiş və 1926-cı ildə ikicildlik «Azərbaycanın iqlim rayonlaşdırılması» monoqrafiyası çapdan çıxmışdır. Az sonra İ.V.Fiqurovskinin daha iki əsəri – «Kür-Araz hövzəsinin iqlim oçerki» və «Aqrometeorologiya» kitabları nəşr olundu. Həmin illərdə Bakı Hidrometeorologiya bürosunda hava proqnozları verilməyə başlandı. Bu istiqamətdə işlərin ümumiləşdirilməsi 1936-cı ildə Azərbaycanın ilk sinoptik-iqlim rayonlaşdırılması xəritəsini tərtib etməyə imkan verdi. Sonralar Ə.M.Mədətzadə tərəfindən dəqiqləşdirilmiş həmin xəritədən uzun illərdir ki, hava proqnozu vermək üçün istifadə edilir. Beləliklə, İkinci Dünya müharibəsi ərəfəsində artıq Azərbaycanda iki iri istiqamət – iqlimşünaslıq və sinoptik-meteorologiya formalaşmış və digər sahələr üzrə tədqiqat işləri aparılması üçün əlverişli zəmin yaranmışdır. 1937-ci ildə Ə.M.Şıxlinski və S.K.Kapelioviç tərəfindən nəşr etdirilmiş «Azərbaycan SSR-in iqliminin təsviri» adlı kitab İ.V.Fiqurovskinin əsərlərindən sonra bu sahədə növbəti uğur idi. Ə.M.Şıxlinskinin 1949-cu ildə nəşr edilmiş «Azərbaycan SSR atmosfer yağıntıları» adlı fundamental monoqrafiyası bu gün də öz elmi-praktiki əhəmiyyətini itirməmişdir.

1954-cü ildə Coğrafiya İnstitutunda İqlimşünaslıq şöbəsinin yaranması ilə əlaqədar iqlimşünaslıq elminin inkişafı böyük vüsət aldı. Şöbə yarandığı andan bu sahədə respublikada aparılan tədqiqatların mərkəzinə çevrildi. Burada ənənəvi ümumi iqlimşünaslıq və sinoptik-meteorologiyadan başqa, tətbiqi iqlimşünaslıq və mikroiqlimşünaslıq sahəsində tədqiqatlar başlanmış və indi də uğurla davam etdirilir. Bu illər ərzində şöbədə respublika iqliminin genezisi öyrənilmiş, onun təsnifatı verilmiş və iqlim, aqroiqlim, iqlim-meliorasiya rayonlaşdırılması aparılmışdır. Azərbaycanın kurort-iqlim ehtiyatları öyrənilmiş, bioiqlim potensialı müəyyən edilmiş, iqlimin məhsuldarlığı keyfiyyət və kəmiyyətcə qiymətləndirilmişdir. Şöbədə ölkə ərazisinin radiasiya və istilik balansı, iqlimin dəyişməsi, proqnozu üzrə tədqiqatlar önəmli yer tutmuş və bu uğurun elmi ənənəsi indi də davam etdirilir. Belə ki, müasir və gözlənilən iqlim dəyişmələrinin Azərbaycanın təbiətinə, kənd təsərrüfatına və əhalinin səhhətinə mümkün təsirləri tədqiq edilmiş və müvafiq adaptasiya tədbirləri təklif edilmişdir. Sinoptik-meteorologiya sahəsində respublika ərazisində hava proseslərinin oroqrafik şəraitlə əlaqəsi, iqlimyaradan makroatmosfer proseslərinin növləşdirilməsi, təbii-sinoptik iqlim fəsillərinin, fəlakətli atmosfer hadisələrinin əmələgəlmə mexanizmi, təkrarlanması və Xəzər dənizi üzərində baş verən proseslər tədqiq edilmişdir. Əsası şöbədə qoyulmuş mikroiqlimşünaslıq sahəsində də mühüm işlər görülmüşdür. Bu illər ərzində ölkənin əsas təbii və antropogen landşaftlarının mikroiqlimi, radiasiya və istilik balansları tədqiq edilmiş, canlı aləmə təsiri öyrənilmiş, onların optimallaşdırılması imkanları araşdırılmış və müvafiq tədbirlər təklif edilmişdir.

İqlimşünaslıq şöbəsinin əməkdaşları tərəfindən yüzlərlə elmi məqalə və çoxsaylı monoqrafik əsər dərc edilmişdir. Onlardan bir neçəsi aşağıdakı yüksək mükafatlara layiq görülmüşdür: «Azərbaycanın iqlimi» (Ə.A.Mədətzadə, Ə.M. Şıxlinski, Ə.C.Əyyubov və b., 1968)- elm sahəsində Azərbaycan Respublikasının ilk Dövlət mükafatı; «Azərbaycan SSR-in aqroiqlim rayonlaşdırılması» (1:600 000 miqyaslı xəritə, Ə.C.Əyyubov, 1976) - SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalı; «Azərbaycan SSR iqliminin bonitirovkası» monoqrafiya SSRİ Coğrafiya Cəmiyyətinin P.F. Litke adına Qızıl medalı (Ə.C.Əyyubov, 1975); «Azərbaycan SSR-in istilik balansı atlası» (Ə.M.Şıxlinski, Q.Ə.Hacıyev və b., 1978) -SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş və bürünc medalları; «Azərbaycan Respublikasının aqroiqlim atlası» (Ə.C.Əyyubov, X.Ş.Rəhimov və b., 1993)- Respublika Təhsil Cəmiyyətinin Təbiət Elmləri üzrə birinci mükafatı.

Hidrologiya və su ehtiyatları. Şöbə 1954-cü ildə təşkil olunmuş və bununla da Azərbaycanda hidrologiya üzrə elmi tədqiqatlar başlanmışdır. Hidrologiyanın ölkəmizdə bir elm kimi inkişafı və bu sahədə yüksəkixtisaslı kadrların hazırlanması işi uzun müddət bu şöbəyə rəhbərlik etmiş professor S.H.Rüstəmovun adı ilə bağlıdır.

İlk işlərdə respublikanın əsas çaylarının hidroqrafik tədqiqatı aparılmış, onların su rejiminin xüsusiyyətləri müəyyənləşdirilmişdir . 1955-1958-ci illərdə 4 cildlik, 110 çap vərəqi həcmində «Azərbaycan SSR-in çayları» adlı əsər nəşr edilmişdir. Bu tədqiqatlar nəticəsində respublika ərazisinin hidroloji rayonlaşdırılması aparılmış, su və gətirmələr axımının əsas ünsürlərinin ərazidə paylanmasını əksetdirən 16 hidroloji xəritə tərtib olunmuşdur.

Su balansı ünsürlərinin qarşılıqlı əlaqə qanunauyğunluqlarının fərqli üsulla öyrənilməsi nəticəsində çay hövzələrinin, təbii sahələrin və respublikanın bütöv ərazisinin su balansı tərtib olunmuşdur. Çayların illik axımının səthi və yeraltı hissələri, qruntun ümumi rütubətliliyi müəyyən edilmişdir. İnsanın təsərrüfat fəaliyyəti nəzərə alınmaqla respublikada əmələgələn, eləcə də qonşu ərazilərdən daxil olan su ehtiyatları hesablanmışdır. Orta illik səth və yeraltı axım, eləcə də sutoplayıcı hövzələrin səthindən gedən buxarlanma xəritələri tərtib olunmuşdur. Su balansı ünsürlərinin hesablanma metodları tövsiyə edilmişdir. Böyük çaylarda illik axımın dəyişkənliyi və dövri tərəddüdü qanunauyğunluqları öyrənilmişdir.

Böyük Qafqazın cənub yamacı çay hövzələrində sel hadisələri tədqiq olunmuş və onlara qarşı əsas mübarizə istiqamətləri müəyyənləşdirilmişdir. Aparılmış tədqiqatlar sellərin keçmə təkrarına, vahid ərazidən aparılan sel materiallarının həcminə və onların üstünlüyünə görə sel təhlükəli hövzələrin təsnifatını aparmağa imkan vermişdir. Sel axınlarının dağıdıcı təsiri nəzərə alınmaqla, selləri səciyyələndirən 10 ballı şkala təklif edilmişdir. Azərbaycan SSR-in sel təhlükəliliyi xəritəsi və sel axınlarının kadastrı tərtib edilmişdir.

Göllərin və su anbarlarının hidroloji xüsusiyyətləri, sahillərin dinamikası və iri su anbarlarının lillənməsi öyrənilmişdir (Ş.B.Xəlilov). Sovet İttifaqı üçün vahid forma və həcmdə respublika su anbarlarının kadastrı tərtib edilmişdir.

Çay axımının əmələgəlməsi və ona təsir edən amillərin tədqiqi (N.A Vəliyev., B.S Cəfərov) respublika su balansının və su ehtiyatlarının qiymətləndirilməsi, onların qarşılıqlı əlaqəsi əsasında müxtəlif ərazilərin, çay hövzələrinin, landşaft qurşaqlarının su ehtiyatlarının təyin edilməsi (R.M.Qaşqay.) hidrologiya elmində yeni bir mərhələ olmuşdur.

Hidrotexniki qurğuların layihələşdirilməsində çayların sülb axımının böyük rolu olduğundan 1945-ci ildən bu günədək onun həcmi, suyun orta lilliliyi, asılı gətirmələrin qranulometrik tərkibi, yuyulma intensivliyi öyrənilmişdir (Ş.H.Rüstəmov. S.A.Axundov. və b.).

Hidroloqlar institutun Landşaft, Təbiəti mühafizə və Geomorfologiya şöbələrinin əməkdaşları ilə birlikdə Araz üzərində Xudafərin və Qız qalası, Kür çayı üzərində Tovuz və Yenikənd su qovşaqlarının layihələşdirilməsi və digər tətbiqi xarakterli tədqiqat işləri aparmışlar. Sonralar genişlənməsi əsasında su balansı elementlərinin qarşılıqlı əlaqəsi və ərazi üzrə paylanma xüsusiyyətləri (R.M.Qaşqay) öyrənilmiş və Kür su anbarları kaskadının ekoloji nəticələri araşdırılmışdır. 1970-ci illərdən insanın təsərrüfat fəaliyyətinin genişlənməsi ilə əlaqədar olaraq tədqiqatlar respublikanın ayrı-ayrı təbii-iqtisadi bölgələrində çay su ehtiyatlarına, onların rejiminə və ekoloji şəraitin dəyişməsinin öyrənilməsinə yönəldilmişdir.

Ərazilərin ekoloji vəziyyətini qiymətləndirərək «Çay sularının antropogen yüklənmə» xəritəsi tərtib olunmuş və ilk dəfə Azərbaycan çaylarının ion axımının hesablanması üçün yeni metodika işlənilmişdir. (M.A.Abduyev)

Torpaq coğrafiyası. 1957-ci ildə akademik H.Ə.Əliyev tərəfindən təşkil olunmuş və 1968-ci ildə Coğrafiya İnstitutunun tərkibinə verilmiş bu şöbə meşə torpaqlarının coğrafiyası sahəsində dörd istiqamətdə tədqiqat aparmışdır: 1) meşə və meşə altından çıxmış torpaqların yayılması, qanunauyğunluqları və onların genetik xüsusiyyətləri; 2) torpaq prosesləri, bitki örtüyü və mikroiqlim arasında qarşılıqlı əlaqələri müəyyənləşdirmək məqsədi ilə stasionar tədqiqatlar; 3) çoxillik bitkilər və örüşlər altından çıxmış quru çöl və meşə torpaqlarının səmərəli istifadəsi; 4) dağlıq ərazilərdə meşə örtüyünün yuxarı və aşağı sərhədlərinin və inkişafının müəyyənləşdirilməsi.

Keçən əsrin 50 illərinin ortalarından Azərbaycan SSR-in dağlıq, dağətəyi və düzən rayonlarının meşə təsərrüfatlarında humid, humid-arid və arid iqlimin dağ meşələrində meşə və meşə-çöl torpaqlarının əmələgəlmə xüsusiyyətləri və təkamülü, coğrafi yayılması, sistematika və təsnifatı öyrənilir. Ayrı-ayrı meşə təsərrüfatlarının və massivlərinin meşə və meşə altından çıxmış torpaqlarının orta və irimiqyaslı xəritələri tərtib edilmişdir. Başlıca olaraq, torpaq proseslərinin gedişi və maddələrin bioloji dövranı, Pirqulu stasionarında dağ-meşə torpaqlarının iqlim xüsusiyyətləri, mineralların bioloji dövranı, meşə ilə dağ torpaqlarının qarşılıqlı əlaqə və təsiri tədqiq olunmuşdur (Ş.İ.Mirzəyev, S.H.Xəlilov).

Şəkil 2. Böyük Qafqazın cənub-şərq yamacında, 1500 metr hündürlükdə institutun Biocoğrafi stasionarı

Böyük Qafqazın alçaq dağlıq və dağətəyi hissələrində meşə altından çıxmış arid zona torpaqlarının arealı və onlardan səmərəli istifadə yolları öyrənilir. Aparılan tədqiqatlar MAB proqramının həyata keçirilməsi ilə sıx bağlıdır.

Meşə torpaqlarının coğrafiyası şöbəsi əməkdaşlarının apardığı tədqiqatların nəticəsi keçmiş Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi, Üzümçülük və Şərabçılıq Komitəsi, Meşə Təsərrüfatı Nazirliyi, Təbiəti Mühafizə Komitəsi və respublikanın digər təşkilatları tərəfindən tətbiq edilmişdir.

Biocoğrafiya sahəsində meşə fitosenozunun yayılması qanunauyğunluqları, əsas meşə edifikatorlarının ekologiyası, həmçinin nadir və nəsli kəsilməkdə olan relikt ağac və kol cinsləri öyrənilmiş, təsərrüfat fəaliyyətinin meşə sisteminə ekoloji təsiri tədqiq edilmişdir (M.Y.Xəlilov).

Ekocoğrafiya. Azərbaycanın təbiəti və təbii ehtiyatlarının öyrənilməsi, mühafizəsi və onlardan səmərəli istifadə məsələləri Coğrafiya İnstitutunun elmi-tədqiqat planında həmişə müəyyən yer tutsa da, ətraf mühitin mühafizəsi sahəsindəki tədqiqatların Azərbaycanda genişləndirilməsi və müstəqil bir elm sahəsi kimi inkişaf etdirilməsi 1969-cü ildə akademik H.Ə.Əliyevin təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutu nəzdində keçmiş SSRİ miqyasında ilk təbiəti mühafizə şöbəsinin yaradılması ilə bağlıdır. Həmin vaxtdan başlayaraq bu istiqamətdə geniş elmi-tədqiqat işlərinin əsası qoyulmuşdur.

Ətraf mühitin mühafizəsi sahəsində görülmüş ilk işlərdən biri 1:600 000 miqyaslı «Azərbaycanın torpaq eroziyası və torpaqların mühafizəsi» xəritəsidir (K.Ə.Ələkbərov). Bundan əlavə, faydalı qazıntıların açıq üsulla çıxarıldığı ərazilərdə torpaqların rekultivasiyası aparılmış, pozulmuş meşələrin sahələri və onların bərpa yolları müəyyən edilmiş, meşə ziyanvericiləri ilə mübarizə üçün bioloji üsullar hazırlanmış, ətraf mühitin təbii radioaktiv maddələrlə və sənaye tullantıları ilə çirklənmə dərəcəsi, antropogen amillər nəticəsində səth sularında baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri, iri su təsərrüfatı, xüsusilə böyük su anbarlarının tikintisi nəticəsində təbiətdə baş verən arzuolunmaz proseslər müəyyən edilmiş, yeni hidroqurğuların tikintisi və yerləşdirilməsinin əsas prinsipləri işlənmiş, Azərbaycanın böyük su anbarlarından və tənzim olunmuş axımdan səmərəli istifadə üçün elmi-praktik təkliflər hazırlanmış, yeni su anbarlarının layihələşdirilməsi, tikintisi və yerləşdirilməsinin əsas prinsipləri işlənilmiş, su anbarlarının təbiətdə yaratdığı neqativ dəyişikliklərin proqnozu verilmiş, Böyük Qafqazın inzibati rayonlarının ekoloji şəraitinin, problemlərinin öyrənilməsi başa çatdırılmış və 2004-cü ildən Kiçik Qafqazın inzibati rayonlarının tədqiqinə başlanmışdır.

İqtisadi və sosial coğrafiya. Maddi istehsal sahələrinin səmərəli ərazi təşkili, iqtisadi-coğrafi rayonlaşdırma, ərazi-istehsal kompleksləri, sosial infrastruktur, siyasi və hərbi coğrafi problemlərin coğrafi qanunauyğunluqlarını tədqiq etmək 1945-ci ildən institutda yaranmış bu şöbənin əsas elmi vəzifəsidir.

XX əsrin 50-ci illərində aparılmış tədqiqatlar əsasən Azərbaycanın inzibati rayonlarının iqtisadi coğrafiyasına həsr olunmuşdur. Ayrı-ayrı rayonların sənaye, kənd təsərrüfatı və nəqliyyat sahələrinə həsr olunmuş iqtisadi-coğrafi tədqiqatlar içərisində M.K.Hacınskinin «Azərbaycan SSR subtropik təsərrüfatının coğrafiyası» əsəri diqqəti cəlb edir.

1960-cı illər Azərbaycanda sosial və iqtisadi coğrafiyanın intibah dövrü sayıla bilər. Bu dövrdə «Azərbaycanda sənayenin yerləşməsi və inkişafı» (A.A. Nadirov), «Respublikada nəqliyyat-iqtisadi əlaqələrin sənayeləşdirilməsinin problemləri» (B.E.Əbdürrəhmanov), «Azərbaycan sənaye kompleksi: iqtisadi-coğrafi problemlər» (Ə.M.Hacızadə), «Azərbaycanın kənd təsərrüfatı coğrafiyası» (B.T.Nəzirova) kimi sanballı tədqiqatlar Azərbaycan iqtisadi coğrafiya elmini xeyli inkişaf etdirdi.

İqtisadi coğrafiya şöbəsinin əməkdaşları 1981-ci ildə «Azərbaycan SSR-in iqtisadi coğrafiyasının əsas vəzifələri», 1987-ci ildə isə «Böyük Qafqazın təbii-ehtiyat potensialı» adlı monoqrafiyalarını çap etdirmişlər. H.B. Əliyev, B.T. Nəzirova və b. tərəfindən, ümumiyyətlə, 177 iqtisadi-coğrafi xəritə tərtib olunmuşdur. Şöbənin alimləri 1966-cı ildə Moskvada nəşr olunmuş, «Zaqafqaziya respublikaları təsərrüfatının coğrafiyası» əsərinin yazılması və "Zaqafqaziyanın iqtisadi xəritə"sinin tərtibində fəal iştirak etmişlər.

Təbii fəlakətlərin təsərrüfata vurduğu zərərin iqtisadi-coğrafi baxımdan tədqiqi də bu sahədə nisbətən yeni elmi istiqamətlərdən biridir. N.A. Babaxanovun "Azərbaycan ərazisində təbii fəlakətlərin iqtisadi-coğrafi öyrənilməsinin metodologiyası və tədqiqat metodları" monoqrafiyasında təbii fəlakətlərin istehsalın ərazi təşkilinə və insanların həyat-təsərrüfat fəaliyyətinə həsr edilmişdir.

İqtisadi coğrafiyaçılar respublikada və onun müxtəlif iqtisadi rayonlarında sosial infrastrukturun fəaliyyətinin öyrənilməsi sahəsində xeyli iş görmüşlər. Bu baxımdan Azərbaycanda rekreasiya coğrafiyası və xidmət sahəsinin coğrafi problemlərinin inkişafında görülən işlər təqdirəlayiqdir (A.H.Salmanov, R.M.Qasımov, M.A.Abramov).

Şöbə əməkdaşlarının çap olunmuş monoqrafiyaları: "Təbii fəlakətlərin iqtisadi və sosial-coğrafi öyrənilməsi (Babaxanov N.A., Paşayev N.Ə., 2004); "Quba-Xaçmaz iqtisadi rayonu" (İmrani Z.T., 2007).

Əhali coğrafiysı. Bu şöbədə aparılan tədqiqatlar nəticəsində əhalinin formalaşma və inkişaf qanunauyğunluqları öyrənilmiş, geodemoqrafik inkişafın regional xüsusiyyətləri müəyyənləşdirilmişdir. Əhalinin formalaşma mənbələri olan təbii və mexaniki hərəkətin inkişafı sosial-iqtisadi inkişafla bağlı tədqiq edilmiş, onların qarşılıqlı əlaqəsi və asılılığı araşdırılmışdır (Ş.Dəmirqarayev, Q.Mehrəliyev, R.Umudov, C.Abbasov və s.). Əmək ehtiyatlarının istehsal sahələri üzrə bölgüsü, məşğulluğun səviyyəsi, həyat səviyyəsi və sosial şəraitin demoqrafik proseslərə təsiri öyrənilmişdir. Onun əsasında perspektiv demoqrafik inkişafın və onun regional tənzimlənməsinin iqtisadi-coğrafi yolları işlənib hazırlanmışdır.

Ən mühüm regional problemlərdən biri kimi Azərbaycanın iqtisadi-coğrafi rayonlarının kompleks tədqiqi işləri aparılmışdır. Hər bir iqtisadi-coğrafi rayonun mənimsənilmə, demoqrafik və məskunlaşma xüsusiyyətləri tədqiq edilmiş, təbii-coğrafi və sosial-iqtisadi şəraitin bu prosesə təsiri müəyyənləşdirilmişdir. Əhalinin yüksəklik qurşaqları üzrə yerləşməsi və məskunlaşması xüsusiyyəti öyrənilmiş və onun dinamikası aydınlaşdırılmışdır. Bu da əhalinin ölkə ərazisində səmərəli məskunlaşdırılması, xüsusən də dağlıqla - düzən, Abşeronla - kənd yerləri arasında yerləşməsinin tənzimlənməsi istiqamətlərinin müəyyənləşdirilməsinə imkan vermişdir. (E.Q.Mehrəliyev, N.H.Əyyubov, M.M.Sadıqov, R.Umudova və b.)

Əhali coğrafiyası üzrə əldə olunan ən mühüm nailiyyətlərdən biri dağlıq rayonların demoqrafik inkişaf xüsusiyyətinin, məskunlaşmasının kompleks tədqiqidir. Dağlıq region və iqtisadi rayonları əhatə edən bu elmin hesabat və dissertasiya işlərində yerli potensial, təbii-coğrafi, iqtisadi-sosial imkanlar qiymətləndirilmiş, əhalinin buradan kənara miqrasiyasının qarşısını almağın, onun yerlərdə saxlanmasının iqtisadi-coğrafi mexanizmi işlənib hazırlanmışdır. (E.Q.Mehrəliyev, N.H.Əyyubov,V.Vəliyev, Z.N.Eminov, R.Şaulov və b.)

Qlobal problem olan urbanizasiya prosesi, onun aparıcı amili olan şəhərlər, ümumiyyətlə, şəhər məskunlaşması tədqiq olunmuş, ölkənin mənafeyinə, istehsalın səmərəli ərazi təşkilinə müvafiq idarəolunmanın iqtisadi-coğrafi mexanizmi müəyyən edilmişdir. Şəhərlərin, ümumiyyətlə, urbanizasiyanın normal inkişafı üçün demoqrafik inkişafla sosial-iqtisadi inkişafın balanslı təminat alması aydınlaşdırılmışdır (N.Əyyubov). Şöbədə bazar iqtisadiyyatına keçid dövründə əhalinin geodemoqrafik inkişaf xüsusiyyətləri, məskunlaşması problemləri öyrənilmiş və səmərəli ərazi təşkilinin iqtisadi-coğrafi istiqamətləri müəyyənləşdirilmişdir (N.H.Əyyubov, Z.N.Eminov, R.Şaulov).

90-cı illəri əhali coğrafiyasının inkişafında xüsusi mərhələ kimi ayırmaq olar. Bu dövrdə yeni kadrlar hazırlanmış, əhalinin məskunlaşmasında, demoqrafik göstəricilərdə baş verən dəyişikliklər, onların səbəbləri, doğuracağı mənfi nəticələr, əhalinin həyat səviyyəsinin aşağı düşməsi səbəbləri, əmək ehtiyatlarından istifadə edilməsində olan problemlərin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmışdır.

Son illərdə (1990-2010) Azərbaycanda əhalinin demoqrafik inkişaf xüsusiyyətləri – dünyada azərbaycanlılar və onların məskunlaşdığı regionlar, əhalinin təbii artımı, miqrasiyası, strukturu, say dinamikası, əmək ehtiyatları və onlardan istifadə, urbanizasiya, şəhər və kənd məskunlaşması, əhalinin yüksəklik qurşaqları üzrə yerləşməsi məsələləri, ölkədə və dünyada gedən qloballaşma və sosial-iqtisadi proseslər fonunda geniş tədqiq edilmişdir.

Mövcud geosiyasi, sosial-iqtisadi, demoqrafik situasiyalara uyğun əhalinin məskunlaşmasının təkmilləşdirilməsi istiqamətləri, əhalinin məskunlaşmasının idarə olunmasının strateji və geosiyasi zəruriliyi, əhalinin məskunlaşmasının təkmilləşdirilməsinin iqtisadi-coğrafi istiqamətləri, əhalinin məskunlaşmasının milli-etnik xüsusiyyətləri və tənzimlənməsi istiqamətləri "Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası" (proseslər, problemlər, konstruktiv aspektlər) monoqrafiyasında hərtərəfli tədqiq edilmişdir. (N.Ə.Paşayev, N.H.Əyyubov, Z.N.Eminov, 2010).

Toponimika. 1972-ci ildə R.Yüzbaşovun rəhbərliyi ilə yaranmış şöbənin məqsəd və vəzifəsi Azərbaycanın coğrafi adları üzrə sistemli elmi-tədqiqat işləri aparmaq, toponimika fondu yaratmaq, həmçinin coğrafi adların transkripsiya və unifikasiyası ilə məşğul olmaq, toponimik lüğətlər tərtib etməkdən ibarətdir.

İnstitut əməkdaşlarının tərtib etdiyi «Coğrafi terminlər lüğəti» birinci dəfə 1957, ikinci dəfə 1972-ci ildə çap olundu. İnstitut və xüsusən onun əməkdaşı akademik B.Ə.Budaqovun təşəbbüsü və təşkilatçılığı ilə 1973 və 1981-ci illərdə Azərbaycan toponimikasının öyrənilməsinə dair elmi konfranslar keçirildi. B.Ə.Budaqovun toponimikaya dair sanballı və dəyərli tədqiqat əsərləri vardır. Azərbaycan, rus və ingilis dillərində çap olunmuş «Avrasiyanın türk toponimləri", "Gürcüstanda türkmənşəli toponimlərin izahlı lüğəti", "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" (hər ikisi Q.Ə.Qeybullayevlə birgə) kitabları ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı.

İnstitutda respublikanın 30 inzibati rayonunun toponimik xarakteristikası və lüğəti tərtib olunmuşdur. Rayonların toponimik xarakteristikalarında toponimik fon, toponimik spektrlər, toponimik stratiqrafiya, passiv fonda keçmiş toponimlər, arxaik coğrafi terminlər və toponimlərin təhrif olunması faktları müəyyən edilmişdir. Azərbaycan SSR-in toponimik lüğəti və xalq coğrafi terminləri lüğəti tərtib edilmiş, respublikanın toponimik fondu yaradılmışdır. Bununla yanaşı, şəhərdaxili obyekt adlarının nizama salınması və düzgün yazılması üzrə təlimat işlənib hazırlanmışdır.

Xəzər dənzi üzrə tədqiqatlar. Xəzər dənizinin resurslarından səmərəli istifadə üçün onun kompleks şəkildə tədqiqinin vacib olduğunu nəzərə alaraq 1957-ci ildə Coğrafiya İnstitutunda Xəzər dənizi şöbəsi açılır və professor Q.K.Gül onun rəhbəri təyin olunur. Sonralar haqlı olaraq bu alim Azərbaycanda Xəzər dənizinin ilkin elmi tədqiqatçısı və bu sahədə görüləcək işlərin təşkilatçısı kimi tanınır. 1958-ci ildə SSRİ Okeanologiya İnstitutundan Xəzər şöbəsinə kiçikhəcmli «Trujennik» ekspedisiya gəmisi və Pirallahı adasında yerləşən Xəzər Elmi-Tədqiqat Stansiyası (XETS) verilir. 1966-cı ilin sentyabr ayında Xəzər dənizi şöbəsi genişlənir və Coğrafiya İnstitutunun nəzdində Xəzər Dənizi Problemləri Sektoruna (XDPS) çevrilir.

Bu vaxt sektorun tərkibindəki şöbə və laboratoriyaların sayı 6-ya çatırdı. Sektorun nəzdində elmi-tədqiqat stansiyası, «Şirvani» dəniz bazası, sututma həcmləri müvafiq olaraq 300 və 120 ton olan «A.Bakuvi» və «M.Mirqasımov» elmi-tədqiqat gəmiləri var idi. Sektorda çalışan əməkdaşların ümumi sayı 126 nəfərə çatmışdı. Artıq 1970-ci ildə bu sektorda 48 nəfər elmi iş yazaraq elmlər namizədi alimlik dərəcəsi almışdı. Xəzər dənizində neft-qaz rayonlarının hidrometeorologiyası: axınlar, temperatur, buz, dalğa və külək rejimi, səthdən buxarlanma, radiasiya və su balansı üzrə peşəkar elmi tədqiqatlar aparılırdı. Tədqiqat işləri əsasən Xəzər dənizi səviyyəsinin enməsinin balıq təsərrüfatına, dəniz nəqliyyatına və neft sənayesinə təsirini öyrənməyə həsr olunmuşdu.



Şəkil 3. 1972-1996-cı illərdə Xəzər dənizinin açıq hissəsində fəaliyyət göstərmiş dəniz observatoriyası

Daha sonra Bakı buxtasının ekoloji vəziyyəti, Xəzər sahillərinin dinamikası və turbulent-konvektiv mübadilə üzrə işlər başlandı və icra olundu. Xüsusi maraq kəsb edən məqamlardan biri sektorun Beynəlxalq Geofizika Proqramına cəlb olunması, əsrlik kəsilişlərdə ölçmələr aparması və elmi məlumatlar bankının yaradılmasına başlaması idi (Q.K.Gül, Ə.A.Mədətzadə, P.V.Jilo, F.Q.Baxmalov, Q.M.Məmmədov, T.İ.Furman H.K.Ulanov, İ.Q.Məmmədov, Ə.H.Əfəndiyeva, N.D.Klevtsova, M.M.Həsənov, X.E.Vəliyev, M.S.Çobanzadə, T.X.Zülfuqarov, L.V.Lukyanova, N.V.Qəniyev, T.S.Şükürov, R.L.Reyfman, M.İ.Abakarov, A.Ə.Kərimov, A.İ.İsrailov, Z.İ.Tatlıyeva). Bu qurum əslində bütöv elmi-tədqiqat institutuna bənzəyirdi, yalnız rəsmi statusu yox idi.

1971-ci ildə BMT-nin UNEP çərçivəsində Qlobal Atmosfer Proseslərinin Tədqiqi Beynəlxalq layihəsi icra olunmağa başlanmışdı. Bu proqram çərçivəsində 1972-ci ildə Azərbaycan EA Coğrafiya, SSRİ EA Okeanologiya və Atmosferin Fizikası, Ukrayna EA Radiofizika institutlarının birgə səyi nəticəsində Xəzər dənizinin açıq hissəsində, tərpənməz özül üzərində dünyada ilk dəniz observatoriyası yaradıldı. Burada planlaşdırılan elmi-tədqiqat işlərinin icrası üçün Xəzər Sektoruna fizika-riyaziyyat və texniki təmayüllü gənc kadrlar işə qəbul olundu, Azərbaycanda Xəzər dənizi tədqiqinin yeni dövrü başlandı.

Dəniz observatoriyasındakı işlər atmosferlə dənizin qarşılıqlı təsirinin öyrənilməsinə, dalğa və külək rejiminin, turbulentlik və turbulent diffuziyanın statistik və spektral üsulla tədqiqinə, onların yarımempirik modellərinin işlənməsinə həsr olunmuşdu (R.M.Məmmədov, T.M.Tatarayev, A.İ.Hümbətov, Ə.S.Əliyev, Y.Q.Hacıyev, N.İ.Əhmədov). Alınan elmi nəticələr əsasən Ümumittifaq elmi jurnallarında dərc olunurdu, bir sözlə, peşəkar tədqiqatlar aparılırdı.

Artıq elmi-tədqiqat institutu səviyyəsinə çatmış və sərbəst fəaliyyət göstərməyə qadir olan bu qurum 1975-ci ildə mütəxəssislərin fikri soruşulmadan Xəzər Elmi Mərkəzi adlandırılan və Xəzər dənizinin tədqiqatı ilə heç bir əlaqəsi olmayan başqa bir qurumun yaradılması üçün istifadə edildi. Sonralar bu təşkilatın Xəzər dənizini tədqiq etməkdə marağı olmadığı aydınlaşdı. Xəzərşünas alimlər öz təşəbbüsləri ilə 1989-ci ildə yenidən Xəzər Dənizi Problemləri Mərkəzi formatında Coğrafiya İnstitutuna qayıtdılar. Ancaq bu zaman imkanlar nisbətən zəifləmişdi.

1990-cı ildən bəri Xəzər dənizi şöbəsində aparılan elmi-tədqiqat işləri Xəzər dənizinin ekocoğrafiyasına, səviyyəsinin dəyişməsi probleminə və çirkləndiricilərin yayılmasının kompleks fiziki-coğrafi modelinin yaradılmasına həsr olunub. Xəzər dənizinə tökülən çirklənmə mənbələri, onların gücü, kimyəvi tərkibi müəyyənləşdirilib, çirklənmənin dənizdə yayılmasının kəmiyyət və keyfiyyət analizi aparılıbdır. Xəzər dənizi səviyyəsinin dəyişməsinin səbəbi öyrənilib, səviyyə dəyişmələrinin model-sxemi tərtib olunub, birinci yaxınlaşmada onun proqnozu verilib. 20 il bundan əvvəl verilmiş bu proqnoz hələlik özünü doğruldur (R.M.Məmmədov, A.İ.Hümbətov). Bakı bərəsinin yenidən tikilməsi və milli park elan olunmuş Bakı Dənizkənarı Bulvarının rekonstruksiyasında bu əməkdaşların Xəzər dənizinin səviyyəsi haqqında verdiyi uzunmüddətli proqnozdan istifadə olunur.

Для характеристики и оценки селеносности исследуемого региона, нами на основе собранного материала составлена карта-схема селеопасности (рис.5). На представленной карте селевой опасности по пяти бальной системе, нами выделены наиболее напряженные территории. К V баллу отнесены очень напряженные территории с высокой степенью опасности (раз в 2-3 года возможен 1 сильный сель). К этой зоне относятся бассейны рек Гянджачай, Кюрякчай, Гошкарчай. К IV баллу отнесены напряженные территории со средней селевой опасностью (раз в 3-5 лет возможен 1 сильный сель). Это бассейны рек, Шамкирчай, Дзегамчай. К III баллу отнесены территории со слабой селевой опасностью (раз в 5-10 лет сильный сель), сюда относится бассейн реки Акстафачай. Ко II баллу отнесены территории с потенциальной селевой опасностью. Это бассейны рек Товузчай, Асрикчай. К I баллу отнесены территории, где практически не наблюдаются селевые явления. Установлено, что в результате увеличения антропогенного воздействия в исследуемом районе происходит резкое усиление процесса селеобразования, расширились площади селевых очагов, в результате чего повысилась экзодинамическая опасность региона, и усилился риск для жизнедеятельности людей [9].



Рис. 4. Картосхема морфометрической напряженности северо-восточного склона Малого Кавказа.



Рис.5. Карта селевой опасности северо-восточного склона Малого Кавказа

Наряду с вышеуказанными фактами, так же огромное значение имеют детальное исследование динамики развития и расширения селевых очагов, хода накопления селевых материалов к сносу, изучение тенденции берегов и защитных сооружений, потенциального направления прорыва селей и на этой основе проведение эколого-геоморфологических мероприятий по каждой долине рек с целью стабилизации экологической обстановки. Выявлено, что активизация и формирование селевых потоков в данном регионе, наравне с относительно благоприятными для них природными условиями, более всего тесно связаны с хозяйственной деятельностью человека. Установлена тенденция увеличения количества и площадей селевых очагов. Наиболее частые сели характерны для долин рр. Дзегамчай, Гошкарчай, Акстафачай, Гянджачай, Шамкирчай, Асрикчай, Товузчай, Ахынджачай. Основной причиной формирования селей является не только уменьшение частоты выпадения атмосферных осадков, но и повышение их интенсивности и усиление процессов выветривания и, как следствие, обильное питание селей твердыми материалами [9].

Меры борьбы с селевыми потоками подразделяются на активные, преследующие цели возможного полного прекращения селевой деятельности в бассейне, и пассивные, заключающиеся в борьбе уже со сформировавшимися селями, угрожающими тому или иному объекту, или в пропуске селевых потоков за пределы сооружения. Наиболее эффективно комплексное применение как активных, так и пассивных мероприятий. Отметим, что для борьбы с последствиями формирования селей на исследуемой территории в разрабатываемых проектах должны предлагаться следующие мероприятия: агротехнические, пастбищно-мелиоративные, лесомелиоративные, лесовосстановительные, гидротехнические и организационно-хозяйственные.

В период прохождения селя управленческие мероприятия заключаются в экстренном оповещении реципиентов о возникновении и прохождении селевого потока, наблюдении за характеристиками и распространением селевого потока существующими пунктами системы мониторинга, организации дополнительных пунктов наблюдения по пути следования селевого потока, экстренной эвакуации населения из зоны воздействия проходящего селевого потока, экстренных мерах по защите объектов от воздействия проходящего селевого потока.

В постселевой период осуществляются ликвидация последствий прохождения селей, качественная и монетарная оценка нанесенного ущерба, возмещение ущерба, анализа причин возникновения и характеристика распространения прошедшего селя, анализ работы защитных сооружений, корректировка схем селе-защиты. Сели приводят в непригодное состояние населенные пункты, дороги, различные области сельского хозяйства, фруктовые и виноградные сады, леса, водооросительные и водные системы, личное хозяйство людей, различные области инфраструктур и т.д. принося огромный ущерб хозяйству республики и для восстановления этих областей уходит много лет.

Качественная оценка воздействий селевых потоков — это определение последствий прохождения селей, выраженных в натуральных единицах. На этапе качественной оценки осуществляется классификация негативных последствий воздействия селей. Поскольку реципиентами являются объекты (компоненты) систем различной природы (социосферы, биосферы, техносферы), классифицирующие критерии воздействия основываются на едином для всех объектов и систем свойстве – устойчивости, а классы воздействий определяют степень ее нарушения и соответствующие им последствия.

На современном этапе для расширения сельскохозяйственного производства и рационального использования земельных и ландшафтных ресурсов горных склонов, защиты населенных пунктов и хозяйственных объектов от катастрофических селевых потоков, а также при разработке мер борьбы с их образованием, роль дешифрирования КС возрастает.

ЛИТЕРАТУРА

1. Алекперова С.О. Экономико-географическое исследование влияния селей на хозяйство Азербайджанской Республики. Баку, 2012, 128с.
2. Ализаде Э.К. Закономерности морфоструктурной дифференциации горных сооружений восточного сегмента центральной части Альпийско - Гималайской шовной зоны. Автореф. дис. докт. геогр. наук. Баку, 2004, 53с.
3. Ализаде Э.К., Мамиева С.А. Морфотектоническая раздробленность рельефа – как индикатор морфотектонической напряженности (на примере северо-восточного склона Малого Кавказа). // Иркутск, 2007, с.165-166.
4. Антонов Б.А. Геоморфология и вопросы новейшей тектоники юго-восточной части Малого Кавказа. Баку, Элм, 1971, 162.с.
5. Будагов Б.А. Гравитационная морфоскульптура. В сборнике «Рельеф Азербайджана». Баку, Элм, 1993. с. 22-28
6. Будагов Б.А. О связи новейших тектонических движений с селеобразованием на южном склоне Большого Кавказа (Азербайджан) // «ДАН Азерб. ССР».
7. Гудилин И.С., Комаров И.С. Применение аэрометодов при инженерно-геологического и гидрогеологических исследованиях. М., Недра, 1978, 318с.
8. Гамидова З.А. Оценка мофодинамической напряженности рельефа селеносных территорий (на примере южного склона Большого Кавказа). Баку, 2011,173с.
9. Мамиева С.А. Оценка экогеоморфосистем северо-восточного склона Малого Кавказа (на основе материалов дешифрирования КС)
10. Рельеф Азербайджана. – Баку: Элм.1993, 292с.
11. Рустамов С.Г. Кадастр селевых потоков и карта селевой опасности Азербайджанской. Баку, 1979. 268с.

KİÇİK QAFQAZIN SEL TƏHLÜKƏSLİLİYİ VƏ SELLƏRİN TƏSƏRRÜFAT SİSTEMİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ (KIÇIK QAFQAZIN ŞIMAL-ŞƏRQ YAMACI TIMSALINDA)

Məmiyeva S.A., Həmidova Z.Ə., Ələkbərova S.O.

Məqalədə Kiçik Qafqazın şimal-şərq yamacında sel hadisələrinin təhlili verilir. Sel ocaqlarının inkişaf dinamikası müəyyən edilir və sellərin müasir dövrdə təsərrüfat obyektlərinə təsiri tədqiq olunur. Müəyyən olunur ki, antropogen təsirin artması nəticəsində tədqiqat ərazisində sel əmələgəlmə prosesləri kəskin artmış, sel ocaqlarının sahələri genişlənmiş və bunların nəticəsində ekzodinamiki təhlükə artmışdır. Qeyd olunub ki, onlar yaşayış məntəqələrinə, avtomobil yollarına, təsərrüfat obyektlərinə, kənd məktəblərinə, həyətyanı sahələrə böyük iqtisadi ziyan vurur.

MUDFLOW DANGER IN THE MİNOR CAUCASUS AND ASSESSING OF IMPACT OF MUDFLOW ON ECONOMIC SYSTEMS (ON THE PATTERN OF NORTH-EASTERN SLOPE OF THE MINOR CAUCASUS)

Mamiyeva S.A., Hamidova Z.A., Alekberova S.O.

The article is dedicated to analyze of mudflows effects on the example of the north-eastern slope of the Lesser Caucasus. The modern dynamics of the mud flows hearts are determined and examines the impact of mud flows on the economic objects is researched. It was found that as a result of increasing anthropogenic impacts in the study area is a sharp intensification of mudflows, expand the area of mud flows. They are cause of some economic damage to settlements, roads, service buildings, schools etc.

EKOGEOMORFOLOJİ QİYMƏTLƏNDİRİLMƏ MƏQSƏDİ İLƏ RELYEFİN MORFOMETRİK GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ (XRAM-ZƏYƏM ÇAYLARI ARASI)

S.N.Abuşova

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115
samira.abushova88@gmail.com

Relyefin morfometrik məlumatlarının ekogeomorfoloji tədqiqatlarda mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq tədqiq olunan ərazinin hidroqrafik şəbəkəsinin sıxlığı, relyefin dərininə parçalanması, yamacların səmtliyi, səthin meyilliyi xəritələri tərtib olunmuş və alınan nəticələr ətraflı təhlil edilmişdir.

Morfometrik amillərin qısa səciyyəsi. Tədqiq olunan ərazi cənubda Kiçik Qafqazın əsas oroqrafik və morfostruktur vahidlərini təmsil edən Şahdağ silsiləsi, Murğuz və Bazum silsilələrinin şimal ətəkləri, şimlada isə Kür dağarası çökəkliyi təmasında özünəməxsus coğrafi mövqeyə, mürəkkəb geoloji və geomorfoloji quruluşa malik olması [4] və eləcə də morfodinamiki proseslərin gərgin səciyyə daşıması və dərə şəbəkəsi ilə itensiv parçalanması onun ekogeomorfoloji şəraitinin kifayət qədər gərgin və mürəkkəbliyinə səbəb olmuşdur [1]. Ərazinin Qazax maili düzənliyi və alçaq dağlıq qurşaqla yanaşı, xeyli sahəsi orta, az hissəsi isə yüksək dağlıq qurşaqların payına düşür. Onun səthinin hipsometriyasının belə yüksək intervalda dəyişməsi ilə əlaqədar olaraq relyefin enerjisi, dinamikliyi, morfogenez proseslərinin destruktiv fəaliyyəti və intensivliyi də xeyli yüksəlir. Odur ki, burada ekoloji şərait düzənliyə və alçaq dağlıq qurşağa nisbətən orta və yüksək dağlıqda kifayət qədər gərgin səciyyə daşıyır.

Ərazinin ekogeomorfoloji qiymətləndirilməsində relyefin morfoloji-morfoqrafik, süxur və çöküntülərin litoloji-fasial və struktur-tektonik xüsusiyyətləri və s. ilə yanaşı, onun morfometrik göstəriciləri mühüm əhəmiyyət kəsb edir.

Relyefin morfometrik göstəriciləri sistemində onun parçalanması, yamacların səmtliyi (ekspozisiyası), səthin meyilliyi, onların kəmiyyət göstəriciləri bilavasitə relyefin endo və ekzodinamik xüsusiyyətləri ilə formalaşan və ətraf mühitdə baş verən proseslərin dəyişilmə intensivliyini müəyyən edən əsas amillərdəndir.

Morfometrik təhlil sahəsində aparılmış tədqiqatlar [3 və s.] relyefin gərginliyinin qiymətləndirilməsi ilə yanaşı, bir sıra mühüm ekoloji-geomorfoloji problemlərin təhlilində də əsaslı rol oynayır.

Relyefin üfüqi parçalanması. Kiçik Qafqazın tədqiq olunan ərazisi relyefin üfüqi parçalanma göstəricilərinin ərazi üzrə paylanması xüsusiyyətlərinə görə, onu əhatə edən digər regionlardan əhəmiyyətli dərəcədə fərqlənir. Məlumdur ki, relyefin üfüqi parçalanmasını təmin edən erozion-dərə, yarğan və qobu şəbəkəsinin uzunluğu ilə onların sahəsi arasında düz mütənasiblik mövcuddur. Ümumi şəkildə düzənlikdən dağlıq ərazinin mərkəzinə doğru üfüqi parçalnma göstəricilərin kəmiyyətinin artması mövcud olsa da, bunu bütün əraziyə şamil etmək düzgün olmazdı. Bəzən hipsometrik səviyyə ilə müxtəlif parçalanma dərəcələrini ifadə edən areallların arasında asılılıq pozulur. Belə ki, fon arealları silsilələrin uzanma istiqamətinə uyğun gəlsə də, müxtəlif göstəricilərə malik olan areallar silsiləni köndələninə və ya müxtəlif istiqamətdə kəsir. Ən yüksək göstəriciləri olan areallar suayrıcına deyil, silsilənin yamaclarına uyğun gəlir.

Üfüqi parçalanma xəritəsi 1:100 000 miqyasında topoqrafik xəritə əsasında tərtib olunmuşdur (şəkil 1). Bunun üçün xəritənin üzərində vahid əraziyə düşən dərə şəbəkəsinin uzunluqlarını ölçüb, həmin ərazinin sahəsinə bölünür və üfüqi parçalanmanın kəmiyyəti aşağıdakı düsturla müəyyən edilir:

$$K=L/S \quad (km/km^2)$$

Burada L - çay-dərə-yarğan-qobu kompleksinin uzunluğu, S-kvadratın sahəsi, K- parçalanmanın kəmiyyətidir.

Parçalanmanın qiymətini tapdıqdan sonra eyni kəmiyyət göstəricilərini əhatə etməklə müəyyən intervaldan bir izoxətlər keçirilir və xəritələr tərtib olunur. Xəritədə parçalanma kəmiyyətinin artdığı hissələr ərazinin müsbət morfostrukturlarının orta dağlıq zolağına uyğun gələn yerləri ilə uzlaşır. Burada dərə-yarğan şəbəkəsinin sıxlığı artır, erozion proseslərin enerjisi yüksək həddə çatır.

Ərazidə üfüqi parçalanma dərəcəsi 0-11 km/km² arasında və daha çox müşahidə olunur (cədvəl 1). Əldə edilmiş nəticələrə görə, ərazidə üfüqi parçalanmanın intensivliyini 3 dərəcədə vermək olar: zəif parçalanmış ərazilər (0-6 km/km² arası) ümumi ərazinin 7%-ni, orta parçalanmış ərazilər (6.1-10 km/km² arası) 69%-ni və intensiv parçalanmış ərazilər (10.1 km/km² və yuxarı) 24%-ni əhatə edir.



Şəkil 1. Kiçik Qafqazın şimal-şərq yamacı relyefinin üfüqi parçalanması xəritəsi (Xram-Zəyəm çayları arası



Şəkil 2. Kiçik Qafqazın şimal-şərq yamacı relyefinin şaquli parçalanması (Xram-Zəyəm çayları arası)



Şəkil 3. Kiçik Qafqazın şimal-şərq yamacı relyefinin baxarlıq xəritəsi (Xram-Zəyəm çayları arası)



Şəkil 4. Kiçik Qafqazın şimal-şərq yamacı relyefinin meyillik xəritəsi (Xram-Zəyəm çayları arası)

Cədvəl 1

Üfüqi (horizontal) parçalanmanın göstəriciləri

Üfüqi parçalanma Km/km²	**Yayılma sahəsi**		**Parçalanma dərəcəsi**	**Sahəsi**	
	km²-lə	**%-lə**		**km²-lə**	**%-lə**
0-5	36	2	Zəif	149	7
5,1-6	113	5			
6,1-7	370	16	Orta	1641	69
7,1-8	481	20			
8,1-9	454	19			
9,1-10	336	14			
10,1-11	456	19	Yüksək	568	24
11 və yuxarı	112	5			
Ümumi	**2358**	**100**		**2358**	**100**

Cədvəl 2

Şaquli (vertikal) parçalanmanın göstəriciləri

Şaquli parçalanma m -lə	***Yayılma sahəsi***		***Parçalanma dərəcəsi***	***Sahəsi***	
	km²-lə	**%-lə**		***km²-lə***	***%-lə***
0-100	993	42	*Zəif*	1635	69
101-200	452	19			
201-300	190	8			
301-400	241	10	*Orta*	614	26
401-500	254	11			
501-600	119	5			
601-700	77	3	*Yüksək*	109	5
701və yüksək	32	2			
Ümumi	**2358**	**100**		**2358**	**100**

Relyefin şaquli parçalanması. Şaquli parçalanma ərazinin, əsasən, hipsometrik fərqlərinə müvafiq olaraq hesablanmışdır. Parçalanmanın kəmiyyəti vahid sahəyə düşən yarğan, qobu, dərə və s. kimi erozion relyef elementinin ən aşağı nöqtəsinin mütləq yüksəkliyi ilə həmin sahə daxilindəki ən yüksək mütləq qiymət arasındakı fərqi tapılır.

$$\Delta H = H1 - H2$$

Burada H1 - kvadrat daxilində ən yüksək qiymət, H2 - ən aşağı qiymət, S - vahid sahə, ΔH – şaquli parçalanmanın dərinliyini xarakterizə edən kəmiyyət göstəricisidir. Hesablamalar və tərtib olunmuş xəritənin təhlili göstərir ki, bu parametr geomorfoloji xəritə üzərində müsbət və mənfi morfostruktur elementlərə mütənasib paylanır. Çay dərələrinin tektonik aktiv morfostrukturları kəsib keçdiyi yerlərdə parçalanmanın kəmiyyət göstəriciləri artır, düzənlik ərazilərdə isə azalır. Belə ki, izoxətlər relyef elementlərini tam əks etdirməklə sıxlaşır və ya seyrəlir (şəkil 2).

Aparılan ölçmə işlərinin nəticəsi olaraq ərazidə şaquli parçalanmanın kəmiyyəti 3 kateqoriyaya ayrılır: zəif (0-dan 300-ə qədər), orta (301-dən 600-ə qədər) və yüksək (601-dən yuxarı). Tədqiq olunan ərazinin şaquli parçalanma dərəcəsi sahə üzrə bu cür paylanmışdır: zəif parçalanma - 1635 km² (69%), orta parçalanma - 614km² (26 %), yüksək parçalanma - 109 km² (5%) (cədvəl 2).

Yamacların səmtliliyi (baxarlığı). Yamacların əsas morfometrik göstəricilərindən biri də onun səmtliliyidir. Baxarlıq xalq təsərrüfatının bütün sahələrinə təsir göstərdiyi üçün onun böyük elmi-təcrübi əhəmiyyəti var. Yamacların səmtliliyinin hesablanması nəticəsi olaraq səmtlilik xəritəsi tərtib olunur. Respublikamızda yamacların baxarlıq xəritəsinin tərtibi və təhlili ilə M.M.Mehbalıyev və s. tədqiqatçılar məşğul olmuşdur [2].

Baxarlılıq xəritələrini həm klassik (ənənəvi), həm də GİS - texnologiyasının tətbiqi ilə tərtib etmək mümkündür. Klassik üsulla morfometrik göstəricilərin təyin olunması və morfometrik xəritələrin tərtibi çox zəhmət və vaxt tələb edir. Belə ki, onlar topoqrafik xəritələr və aerokosmik şəkillər əsasında köməkçi vasitələrlə yerinə yetirilir və dəqiqliyi az olur. Yamacların səmtliliyinin klassik üsulla ölçülməsi zamanı aşağıdakı işlər görülür: 1:100000 miqyaslı topoqrafik xəritə üzərində yamacların sərhədi (suayrıcı və dərə-yarğan şəbəkəsi) ayrılır; hər bir yamac daxilində suayrıcından çay dərəsinə perpendikulyar oxlar endirilir; oxların azimutu və ya rumbu transportirlə ölçülür və əldə olunmuş nəticələr əsasında xəritə tərtib olunur.

Məqalədə yamacların səmtliliyi Arc GİS arc map. 10.1 proqramında işlənmişdir və yüksək dəqiqlik əldə olunmuşdur (şəkil 3).

Ölçmə işlərinin təhlili onu göstərir ki, ərazidə şimal istiqamətli yamaclar üstünlük təşkil edir və 765 km² ərazini əhatə edir (cədvəl 3). Cənub istiqamətli yamaclar isə, əksinə, çox az sahəni, cəmi 5%, yəni ərazinin 111 km²-ni əhatə edir.

Cədvəl 3

Yamacların baxarlığı göstəriciləri

Baxarlıq	**Sahəsi**	
	km²-lə	**%-lə**
Düzən sahə	500	23
Şimal	765	32
Şimal-şərq	319	13
Şərq	224	9
Cənub-şərq	184	8
Cənub	111	5
Cənub-qərb	75	3
Qərb	58	2
Şimal-qərb	122	5
Ümumi	**2358**	**100**

Səthin meyilliyi. Meyillik yamacın dikliyinin göstəricisidir. Hər hansı sahənin onun yerləşdiyi üfüqi sahəyə nisbətən ərazinin yüksəlməsini göstərir. Meyillik bərk qatda baş verən daimi qabarma və yerli tektonik hərəkətlər nəticəsində yaranır. Ərazinin meyillik göstəricisi əsas morfometrik göstəricilərdən olub, relyefin hündürlüyündən və parçalanma dərəcəsindən asılıdır.

Yer səthinin meyillik ölçmələrinin bir çox nəzəri və təcrübi əhəmiyyəti var. Meyillik də, digər riyazi göstəricilər kimi, xalq təsərrüfatının bütün sahələri üçün əsas amillərdən hesab olunur. Xalq təsərrüfatının planlaşdırılmasında meyillik göstəricilərindən istifadə etmək üçün morfometrik xəritələr hazırlanır və onların əsasında təhlillər aparılır. Azərbaycanın ilk meyillik xəritəsini R.X. Piriyev tərtib etmişdir [3]. Meyillik xəritələrinin hazırlanmasında əsas məsələ dərəcələrin təyin edilməsidir. Məhz bunun əsasında relyef təhlil olunur. Piriyevin hazırladığı xəritədə ərazi üçün - 0-5´; 5´-30´; 30´-1.5°; 1.5°-5°; 5°-15°; 15°-30°; >30° - meyillik dərəcələri ayrılmışdır.

Meyillik dərəcəsi relyefin enerjisini, yamac proseslərinin intensivliyini və sürətini, Günəş enerjisinin kəmiyyətini, atmosfer çöküntülərinin infiltirasiyasını müəyyən edir.

Meyillik xəritələri müxtəlif üsullarla tərtib edilir - kvadratlar üsulu, sürüşkən dairələr üsulu, morfoqrafik səthlər üsulu. Xəritədə meyil bucaqları aşağıdakı düsturla hesablanır:

$$i = h/d: d\ ctg\alpha$$

Burada h-kəsmə yüksəkliyi, d-iki horizont arasındakı məsafəni bildirir. Tərtib olunacaq xəritənin miqyası nə qədər böyük olarsa, meyil bucağının qiyməti də bir o qədər dəqiq olacaq. Ənənəvi üsulla meyillik xəritələrinin tərtibi çox çətin, yorucu olur və uzun vaxt tələb edir. Tədqiqat işində meyillik xəritəsi Arc GİS arc map 10.1 proqramında hazırlanmışdır və daha dəqiq nəticə əldə olunmuşdur (şəkil 4).

Aparılan ölçmə işləri onu göstərir ki, ərazinin ən zəif meyillik göstəricisi 0°-2° arasında dəyişir ki, bu da ərazinin 5%-ni əhatə edir. Daha yüksək meyilliyə malik ərazilər 0.04% təşkil edir ki, burada göstərici 51-75° arasındadır (cədvəl 4).

Cədvəl 4

Ərazinin meyillik göstəriciləri

Meyillik dərəcəsi (°)	**Sahəsi**	
	km²-lə	**%-lə**
0-2	112	5
3-13	1455	61
14-24	710	30
25-35	41	2
36-46	23	1.2
47-57	12	0.5
58-68	4	0.26
69-75	1	0.04
Ümumi	**2358**	**100**

Relyefin morfometrik göstəricilərinin təhlili onun bir sıra mühüm xüsusiyyətlərini müəyyən etməklə yanaşı, müxtəlif praktik məsələlərin həllində, eləcə də ekoloji gərginliyin qiymətləndirilməsində mühüm rol oynayır. Bu da, öz növbəsində, xalq təsərrüfatı obyektlərinin inşasında, yolların salınmasında, kanalların çəkilməsində, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsində, kənd təsərrüfatı işlərinin planlaşdırılmasında və s. mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Budaqov B.Ə., 1990. Azərbaycanda ekoloji cəhətdən gərgin ərazilər və onların rayonlaşdırılması yolları. Azərb. C.C. VI qurultayı, Bakı, s. 129-131.
2. Мехбалиев М.М., 2010. Статические особенности распределения экспозиции склонов бассейне р. Гудиалчая. ARCREVIEW. Современные геоинформационные технологии, № 2(65), с.22.
3. Пириев Р.Х., 1986. Методы морфометрического анализа рельефа /На примере территории Азербайджана/, Баку, 119 стр.
4. Халилов Г.А., 1999. Морфоструктуры восточной части Малого Кавказа . Монография, Баку, 277 стр.

ИССЛЕДОВАНИЕ МОРФОМЕТРИЧЕСКИХ ФАКТОРОВ ЭКОГЕОМОРФОЛОГИЧЕСКОЙ ОЦЕНКИ РЕЛЬЕФА СЕВЕРО-ВОСТОЧНОГО СКЛОНА МАЛОГО КАВКАЗА (МЕЖДУРЕЧЬЕ ХРАМИ-ЗЕЙАМЧАЙ)

С.Н.Абушова

Исходя из важнейщего значения морфометрического фактора в экогеоморфологических исследованиях автором составлены карта густоты, карта глубины расчленения, карты экспозиции склонов и уклона поверхности. Анализ полученных данных позволяют изучение их влияния на экогеоморфологические условия исследуемой территории.

STUDY OF MORPHOMETRIC FACTORS OF ECOGEOMORPHOLOGİCAL ESTİMATİON OF THE RELIEF OF NORTH-EASTERN SLOPE OF THE MİNOR CAUCASUS (İNTERFLUVES OF KHRAM- ZAYAMCHAY)

S.N.Abushova

Proceeding from an especial importance of morphometric factor in ecogeomorphological researches a map of density, a map of deep dismemberment, maps of exposition of slopes and surface decline have been compiled by the author. The analysis of obtained data allows to study their influence on ecogeomorphological conditions of the examined territory.

LANDŞAFTŞÜNASLIQ

CEYRANÇÖL ALÇAQ DAĞLIĞI GEOSİSTEMLƏRİNİN TƏBİİ EHTİYAT POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

M.C.İsmayılov, E.Ş.Məmmədbəyov, M.İ.Yunusov, S.M.Zeynalova, K.E.Mahmudova

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115

Məqalə Azərbaycanın intensiv kənd təsərrüfatı, xüsusilə heyvandarlığın güclü inkişaf etdiyi regionlardan biri olan Ceyrançöl alçaq dağlığının təbii ehtiyat potensialının tədqiqinə həsr olunmuşdur. Tədqiqatlar nəticəsində Ceyrançöl alçaq dağlığı müasir landşaftlarının ekoloji potensialı, antropogen təsirlər nəticəsində transformasiyası, onlardan istifadənin optimallaşdırılması müəyyənləşdirilmiş və yekunda ərazi geosistemləri təbii ehtiyat potensialına görə qruplaşdırılaraq "Arc GİS" proqramında elektron xəritəsi tərtib olunmuşdur.

Ceyrançöl alçaq dağlığı Azərbaycanın əsas kənd təsərrüfatı regionlarından biri olub qış otlaqları içərisində özünün əlverişli iqlimi, zəngin bioloji məhsuldarlığı ilə fərqlənir.

Ceyrançöl alçaq dağlığında landşaft tədqiqatları XX əsrin 60-80 - cı illərində M.Ə. Süleymanov [7,8], M.A.Müseyibov, M.Ə.Süleymanov [6], A.A.Mikayılov [5] tərəfindən aparılmışdır. Bu tədqiqatlar əsasən ərazinin təbii landşaftlarının diferensiasiyasının öyrənilməsinə və onların xəritələşdirilməsinə həsr olunmuşdur. Lakin intensiv kənd təsərrüfatı təsirlərinə məruz qalan bu regionun təbii ehtiyat potensialı öyrənilməmişdir. Son 50-60 il ərzində Ceyrançölün təbii komplekslərindən səmərəsiz istifadə nəticəsində arid meşə və kolluqlar, tuqay meşə ekosistemləri, müxtəlifotlu quru çöllər geniş sahədə deqradasiyaya uğramış, səhralaşma, xətti və sahəvi eroziya güclənmiş və geosistemlərin təbii ehtiyat potensialı kəskin şəkildə pozulmuşdur. Ərazidə kənd təsərrüfatının davamlı inkişafına nail olmaq üçün coğrafi informasiya texnologiyaları əsasında landşaft tədqiqatları və kompleks ekoloji qiymətləndirilmənin aparılması vacibdir.

Tədqiqatın məqsədi. Ceyrançöl alçaq dağlığı ərazisində arid geosistemlərin formalaşması, struktur-genetik xüsusiyyətləri və inkişafının əsas meyillərinin müəyyən olunması, bu əsasda landşaftların ekoloji potensialının qiymətləndirilməsi, antropogen transformasiyanı, onlardan istifadənin optimallaşdırılması, ekoloji cəhətdən davamlı landşaftların formalaşması yollarının müəyyən olunması tədqiqatın əsas məqsədidir.

Təbii ehtiyat potensialının təyini və tədqiqat metodikası. İnsan cəmiyyətinin inkişafı və onların artan tələbatı məhdud təbii ehtiyata, ekoloji potensiala malik landşaftlarda antropogen gərginliyi artır və ekoloji tarazlığın pozulmasına səbəb olur. Landşaftların ekoloji tarazlığının pozulması bilavasitə antropogen təsirlərlə əlaqədar olub özünü ekosistemin sürətlə dağılmasında, biomüxtəlifliyin azalmasında, bioloji məhsuldarlığın aşağı düşməsində, biokütlənin mühit əmələgətirmə rolunun pisləşməsində göstərir. Məhz ona görə landşaftların ekoloji potensialının təyini və onun qiymətləndirilməsi landşaft tətqiqatlarında mühüm elmi istiqamətlərdən biridir.

Landşaftların təbii ehtiyat potensialının öyrənilməsində N.A.Solntsevin [15], V.V.Ryuminin [14], A.Q.İsaçenkonun [9,10], Azərbaycanda B.Ə.Budaqovun [1], M.C.İsmayılovun [2], M.C.İsmayılovun, E.Ş.Məmmədbəyovun, M.İ.Yunusovun [3], R.M.Məmmədovun, M.C.İsmayılovun [4] və s. rolu olmuşdur.

Məqsəddən asılı olaraq müxtəlif səviyyəli geosistemlərin təbii ehtiyatlarının qiymətləndirilməsi istiqamətində E.V.Loratina və O.R.Nazarevski, L.İ.Muxina, D.L.Armand, A.Q.İsaçenko və s. apardığı tədqiqatlar maraqlıdır. L.İ.Muxina [13] 5 ballıq sistem ilə geosistemləri müxtəlif istiqamətli məqsədlər üçün qiymətləndirmişdir. A.Q.İsaçenko [11] landşaftları kənd təsərrüfatı, rekreasiya və s. baxımdan əlverişlilik dərəcəsinə görə qruplaşdırılmasını aparmışdır. Geosistemlərin müəyyən elementinin məqsədəuyğun formada qiymətləndirilməsi sahəsində kifayət qədər metodiki yanaşma mövcud olsa da, bütövlükdə geosistemin təbii-ehtiyat potensialının inteqral qiymətinin əldə edilməsi xeyli çətinlik törədir.

Relyefin geosistemlərin təbii resurs potensialına təsiri. Ceyrançöl alçaq dağlığında landşaftların təbii resurs potensialı qiymətləndirilərkən relyefin marfometrik elementləri və həmçinin süxurların litoloji tərkibi də nəzərə alınmışdır. Qeyd olunan amillər coğrafi informasiya sistemlərinin tətbiqinə geniş imkanlar açan ArcGİS kompüter proqramında işlənib təhlil edilmişdir. Alınan nəticələr əsasında cədvəllər və irimiqyaslı xəritələr tərtib edilmişdir (cədvəl 1).

Cədvəl 1

Relyefin morfometrik elementləri ilə landşaftların təbii resurs potensialı arasında əlaqə

Relyefin meyillik dərəcələri	Relyefin meyilliyinin qiymətləndirilməsi	Meyillikdən asılı olaraq sahənin paylanması, km^2	Ümumi əraziyə görə %-lə	Meyillikdən asılı olaraq təbii resurs potensialının dəyişməsi
$0\text{-}5^0$	nisbi hamar sahə	763,6	16,6	yüksək
$5\text{-}15^0$	çox zəif	883,2	19,2	orta
$15\text{-}30^0$	zəif	956,8	20,8	orta
$30\text{-}45^0$	orta	662,4	14,4	zəif
$45\text{-}60^0$	nisbətən yüksək	524,4	11,4	zəif
$60\text{-}75^0$	yüksək	455,4	9,9	zəif
75^0-dən çox	çox yüksək	358,8	7,8	çox zəif

Birinci cədvəlin təhlilindən görünür ki, Ceyrançöl alçaq dağlığın ərazisinin əsas hissəsini, yəni 20,8%-i (956,8 km^2) meyilliyi $15\text{-}30^0$ olan yamaclar təşkil edir. Belə meyilliyə malik yamacların təbii ehtiyat potensialı orta səviyyədə qiymətləndirilmişdir. Təbii ki, bu qiymətləndirilmədə yamacın səmti və onun təşkil olunduğu süxurların litoloji tərkibi nəzərə alınmışdır. Tədqiq olunan ərazidə ən az sahəni meyilliyi 75^0-dən çox olan çox yüksək meyilliyə malik ərazilər tutur. Belə meyilliyə malik ərazilərin ümumi sahəsinin 358,8 km^2 olduğu hesablanmışdır. Meyilliyi 75^0-dən çox olan yamacların təbii resurs potensialı çox zəif olaraq qiymətləndirilmişdir.

İqlimin təbii resurs potensialı. Ceyrançöl alçaq dağlığında əsasən qışı mülayim quru, yayı isti keçən yarımsəhra və quru çöl iqlimi xarakterikdir. Bu iqlim tipinin formalaşmasında ərazinin morfotektonik quruluşu, xüsusilə enlik istiqamətində uzanan silsilə və tirələr,tirlərarası çökəkliklər xüsusi rol oynayır. Ərazidə relyefin mütləq hündürlüyünün 200-250 m-dən 900 m-qədər dəyişməsi Ceyrançöl alçaq dağlığının müvafiq iqlim tiplərinin formalaşmasına şərait yaratmışdır.

Ceyrançöl alçaq dağlığında iqlim ünsürlərinin təbii ehtiyat potensialına təsiri və onun qiymətləndirilməsi məqsədilə müxtəlif xəritə sxemlər və iqlim göstəricilərini əksetdirən cədvəllər tərtib olunmuşdur. Tədqiq olunan ərazi üçün təbii rütubətlənmə şəraitində bioiqlim potensialının nisbi kəmiyyətlərini əksetdirən xəritə sxemlər tərtib olunmuşdur (şəkil 1).

Bioiqlim potensialının nisbi kəmiyyətləri aşağıdakı düsturla hesablanmışdır [16].

$$\boldsymbol{B_i} = \mathbf{M_ə} \cdot \frac{\boldsymbol{\Sigma\, t\,°{>}10°}}{\mathbf{1000°}} \cdot \mathbf{1}$$

Burada $\boldsymbol{B_i}$-bioiqlim potensialının nisbi kəmiyyəti; $\mathbf{M_ə}$-bioiqlim məhsuldarlığı əmsalının hesablanmış kəmiyyəti; $\boldsymbol{\Sigma\, t\,° - 10°}$-dən yuxarı temperaturların cəmi; **i**- yamacların meyilliyinin bitki məhsuldarlığına təsirinin xüsusi cədvəldən götürülmüş qiymətləri.

Hesablamalar nəticəsində əldə olunmuş kəmiyyətlər əsasında tədqiq olunan ərazinin iqlim potensialı xəritəsi tərtib olunmuşdur (şəkil 1). Tədqiq olunan ərazi təbii iqlim rütubətlənməsi şəraitində bioiqlim potensialına görə üç zonaya bölünmüşdür: çox aşağı (0,80-dən az), aşağı (0,80-1,20) və zəif (1,20-dən çox). Ərazi bioiqlim potensialına görə zəif təmin olunmuşdur.

Fitokütlənin təbii resurs potensialı. Müasir dövrdə Ceyrançöl alçaq dağlığının bitki örtüyünü 4 qrupa bölmək olar: 1. Yarımsəhra bitkiləri. 2. Çöl bitkiləri. 3. Meşə bitkiləri (tuqay meşələri və seyrək arid meşələr), 4. Kol (friqanoidlər) bitkiləri.

Yarımsəhra bitkiləri ərazinin cənub və şərq hissəsində yayılmışdır. Belə bitkilər həm də nisbətən alçaq dağarası çökəkliklər və çay dərələrində inkişaf etmişdir. Rütubətin çatışmaması, ilin isti dövründə havanın temperaturunun çox yüksək olması və şoranlaşma bitkilərin növ tərkibinə təsir göstərir. Burada əsasən yovşan, qarağan, kəngiz və müxtəlif efemerlər yayılmışdır.

Çöl bitkiləri (ağot, şiyav, qıyaq, topal, qrtıc, yovşan və s.) dağ tirələrinin şimal yamaclarında, dağarası düzənliklərdə və yaylalarda geniş inkişaf etmişdir.

Meşə bitkiləri Kür çayı sahilində yayılmış tuqay meşələrindən, Çobandağ - Eldaroyuğu silsiləsinin şimal yamacındakı Eldar şamı, arçan ağaclarından və Eldar çölünün şimal qurtaracağındakı seyrək arid saqqız ağacı meşələrindən ibarətdir.

Şəkil 1. Ceyrançöl alçaq dağlığında təbii rütubətlənmə şəraitində bioiqlim potensialının nisbi kəmiyyətləri (Ə.C.Əyyubov 1991)



Şəkil 2. Ceyrançöl alçaq dağlığının bitki örtüyünün məhsuldarlığı



Şəkil 3. Torpaqların təbii resurs potensialı



Şəkil 4. Ceyrançöl alçaq dağlığı geosistemlərinin təbii resurs potensialı

Cədvəl 2

Ceyrançöl alçaq dağlığının müxtəlif landşaftlarında biokütlənin təbii resurs potensialının qiymətləndirilməsi (1-15 avqust 2014-cü il)

Landşaft tipi	Bitki qrupları	Bitkilərin adı	Fitokütlənin miqdarı, ton/ha		Fitokütlənin məhsuldarlığı, t/ha	Təbii resurs potensialı, balla
			Yerüstü hissə s/ha	Yeraltı hissə s/ha		
Dağ çölləri	Yovşan-efemer, Yovşan-ağot	Ağot, şırımlı topal,müxtəlif otlar	25	21	4,0-6,0	3 orta
Dağ yarımsəhraları	Yovşan-şoran, yovşan-efemer	Meyer yovşanı, kəngiz,qarağan, üzərlik, ətli şoran, qışotu	25	78	1,0-2,5	1-2 zəif
Tuqay meşələri kompleksi	Tuqay meşə formasiyası	Söyüd, qovaq, qarağac, qızılağac, palıd	_	_	8,0-10,0	4-5 yüksək
Seyrək arid - meşə kompleksi	Kserofit ağac və kol formasiyası	Eldar şamı arçan, saqqız ağacı, ardıc	_	_	2,5-4,0	3-4 orta

Cədvəl 3

Ceyrançöl alçaq dağlığı torpaqlarının təbii resurs potensialı

№	Torpağın adı	Humusun miqdarı %	Bonitet balı	Torpağın keyfiyyət qrupu, balla	Bitki ilə örtülülük	Sahəsi km^2	Ümumi sahəyə görə, faizlə	Təbii resurs potensialı, balla
1	Tünd dağ şabalıdı	3,4	65	61-80	58	413,8	15,9	5
2	Açıq şabalıdı	2,9	60	41-60	45	45	1,7	3
3	Şorakətvari şabalıdı	1,9	58	21-40	42	36,7	1,4	2
4	Dağ açıq şabalıdı	3,2	59	61-80	52	386,2	14,9	4
5	Boz-qonur	1,2	40	41-60	45	36,7	1,4	2
6	Tam inkişaf etməmiş dağ-şabalıdı	1,8	52	41-60	60	39,0	1,5	2
7	Açıq şabalıdı, qismən şoranlaşmış	2,5	53	61-80	54	516,2	19,9	3
8	Qədimdən suvarılan şabalıdı	2.3	77	81-100	63	22,9	0,9	3
9	Duzlu-gilli süxurların açılışı			< 20	48	50,9	1,9	1
10	Karbonatlı çəmən-bataqlıq	1,7	63	61-80	68	8,1	0,3	2
11	Dağ-boz qəhvəyi	2,4	55	61-80	61	17,2	0,7	3
12	Boz-qonur, qismən şoran və şorakət	1,1	40	40-21	44	273,3	10,5	2
13	Çəmən-meşə qələvili və karbonatlı	2,6	70	61-80	60	173,1	6,7	3
14	Şorakətvari şabalıdı	1,2	41	21-40	67	11,3	0,4	2
15	Subasar allüvial çəmən	1,9	63	61-80	78	537,9	20,7	3
16	Çılpaq qayalıqlar və gilli süxur		10	<20		30,2	1,2	1

Qeyd: Bu məlumatlar coğrafi informasiya sistemində ArcGIS proqramında təhlil edilmiş və irimiqyaslı "Torpaqların təbii resurs potensialı "xəritəsi tərtib edilmişdir.

Cədvəl 4

Ceyrançöl alçaq dağlığı geosistemlərinin təbii resurs potensialı

Landşaft tipinin adı	Sahəsi km^2	Ümumi əraziyə görə payı, %	Təbii resurs potensialı, balla	Təbii resurs potensialının qiymət göstəricisi
1. Dağ yarımsəhraları, şoranlıqlar, bedlendlər, kəskin parçalanmış quru çöllər	545,3	21	1	Çox zəif
2.Quru çöllər, kserofit-kollu quru çöllər, düzən yarımsəhra	670,2	25,8	2	Zəif
3.Kserofit kolluqlar, kollu quru çöllər,	770,1	29,6	3	Orta
4.Humid çöllər, kserofit kollu quru çöllər və meşə-kolluqlar	327,3	12,6	4	Yüksək
5. Tuqay meşə, arid meşə, çəmən bataqlıq	285,7	11	5	Çox yüksək
Cəmi	2596,6	100		

Ceyrançöl alçaq dağlığında seyrək arid meşələr tipinə aid olan Üçüncü dövrün relikt bitkisi olan Eldar şamı (Pinus eldarica medrı) xüsusi yer tutur. Ərazinin şimalında yerləşən Elləroyuğu dağı Eldar şamının təbii vətəni sayılır. Alimlərin fikrincə (A.A.Qrosheym, V.Z.Qlusaşvili, L.İ.Prilipko, İ.S.Səfərov), keçmiş şam və şam - arçan meşələri ön dağlıqda geniş yayılmış və hətta onun arealı Qobustan və Abşerona qədər çatırmış.

Kompüter proqramlarının köməyi ilə geosistemin struktur - genetik vahidlərinin təbii ehtiyat potensialı qiymətləndirilmiş və son nəticədə ərazidə yayılmış geosistemlər üçün növ səviyyəsində daha inteqral kəmiyyətlər əldə edilmişdir. Alınmış inteqral ədədlərə müvafiq geosistemlər qruplaşdırılmış və sonda beş ballıq sistem üzrə qiymətləndirilərək təbii resurs potensialı xəritəsi tərtib edilmişdir .

Geosistemlərin təbii resurs potensialının bal qiymətləri aşağıdakı kimi sıralanmışdır: 1 bal təbii resurs potensialı çox az olan landşaftlar, 2 bal az, 3 bal orta, 4 bal yüksək və 5 bal isə çox yüksək.

1. Çox zəif və ya az təbii resurs potensialına malik landşaftlar tədqiq olunan ərazinin 21%-ni (545,5 km^2) əhatə edir. Bu növ landşaftlar Ortaqaş - Quyruqençi, Eldaroyuğu, Ağtaxtatəpə tirələrinin cənub yamaclarında, Qərbi və Şərqi Palantökən tirələrinin intensiv parçalanmış yamaclarında, güclü şorlaşmış dağarası düzənliklərin çökəkliklərində, duz təbəqəsinin səthə çıxdığı tirələrarası təpəliklərdə və əsasən yarımsəhra landşaftlarında rast gəlinir. Quru çöl landşaftı daxilində monoklinal tirələrin bedlendli dik yamaclarında (35^0- dən çox) qəhvəyi və şabalıdı torpaqlar üzərində çox seyrək yovşan - ağot bitkiləri inkişaf etməsi intensiv səhralaşmanın göstəricisidir. Çox zəif təbii resurs potensialı ilə fərqlənən landşaftlardan qismən qış otlaqları kimi istifadə edilir. Bu tip landşaftlarda əmələ gəlmiş ekzotik qaya çıxıntılarından, torpaq piramidalarından ekoturizimdə istifadə etmək mümkündür. Landşaft - meliorativ tədbirlərlə bu landşaftların təbii resurs potensialını artırmaq olar.

2. Zəif təbii resurs potensialına malik landşaftlar tədqiq olunan ərazinin 25,8%-ni (670,2 km^2) əhatə edir. Bu növ landşaftlara əsasən dağ və dağarası yayla və düzənliklərin yarımsəhralarında, qismən alçaq dağlığın quru çöllərində və kserofit kollu müxtəlifotlu çöllərində rast gəlinir. Zəif parçalanmış düzənliklərin, azmeyilli (15^0-dən az) yamacların, düzəlmə səthlərinin boz-qonur şorakətli torpaqlarındakı yarımsəhralar, hamar, çox zəifmeyilli (5^0 - dən az) düzənliklərin açıq şabalıdı, şabalıdı-çəmən, şorakətli boz torpaqlarındakı kəngizli-efemerli, yovşan-erikalı, qışotlu yarımsəhraları, takırlaşmış çalaların yarımsəhraları təbii resurs potensialı zəif olan landşaftlar qrupuna aiddir. Bu tip landşaftlarda əsas təbii ehtiyat potensialı kifayət qədər günəş istiliyi (130-135 kkal /sm^2) və relyefin hamar, azmeyilli olmasıdır. Əsas ekoloji problemi su çatışmazlığı, quraqlıq, şoranlaşma, çox zəif bitkilik əmsalı, zəif bioloji məhsuldarlıq (yerüstü fitokütlənin miqdarı 1,2-1,8 s/ha), torpaqda humusun miqdarının az (4-6%) olmasıdır. Süni suvarma, meşə zolaqları salınması, torpaqlara aqrotexniki qulluqla bu landşaftların təbii resurs potensialını yüksəltmək olar.

3. Orta səviyyəli təbii resurs potensialına malik landşaftlar ərazinin 29,5%-ni (770.1 km^2) əhatə edir. Əsasən düzənliklərdə və dağ tirələrinin şimal səmtli yamaclarındakı quru-çöl və kserofit kollu çöllərin landşaft növləri bu tipə aid edilir. Torpaqları nisbətən qalın, zəif eroziyaya uğramış adi və tünd şabalıdı torpaqlardır. Humusun miqdarı 7-8% və daha çoxdur. Suvarma şəraitində yüksək məhsul götürmək mümkündür. Taxıl, yem bitkiləri, üzümçülük və s. əkinlər üçün torpaq iqlim şəraiti münasibdir. Təbii bitki örtüyünün bəzən 70-80%-ni taxılkimilərdən ibarət otlar təşkil edir.

4. Yüksək təbii resurs potensialına malik landşaftlar tədqiqat ərazisinin 12,6%-ni (327.3 km^2) tutur. Bu növ landşaftlara ərazidəki humid çöllər, kiçik areallarda quru çöllər, bəzi kserofit kollu quru çöllər və arid seyrək meşə kolluqlar aid edilmişdir. Yüksək təbii resurs potensialı ilə fərqlənən bu landşaftlarda yağıntının miqdarı 350-400 mm-dən çoxdur. Fitokütlənin və torpağın məhsuldarlığı daha yüksəkdir. Bir hektarda yerüstü fitokütlənin məhsuldarlığı ot bitkiləri hesabı ilə 4-5 s/ha təşkil etmişdir. Meşə kolluqlarda və humid çöllərdə yerüstü fitokütlənin miqdarı daha yüksəkdir. Əsasən qış otlaqları kimi istifadə edilir. Son zamanlar yay aylarında da otarmanın davam etdirilməsi landşaftların deqradasiyasını sürətləndirmişdir.

Tədqiqat ərazisindəki arid seyrək meşə kolluqlar əsasən fitokütlənin məhsuldarlığına, iqlim ehtiyatlarına və torpaqda humusun miqdarına görə bu tipə aid edilmişdir. Digər tərəfdən, vaxtilə Ceyrançölün əsas dominant landşaftı da arid seyrək meşə kolluqlardan ibarət çöllər olmuşdur. Bu landşaft növləri keçmiş dominant landşaftın nümunəsi kimi yalnız Eldar Şamı Dövlət Təbiət Qoruğunda qorunub saxlanılır.

5. Çox yüksək təbii resurs potensialına malik olan landşaftlar ümumi ərazinin çox kiçik hissəsini yəni 11%-ni (287,7 km^2) tutur. Bura əsasən yüksək təbii bioloji məhsuldarlığa malik Kür və Qabırrı çayları boyu tuqay meşələr və bataqlıq-çəmənlər aid edilmişdir. Bu landşaft tipləri Ceyrançöl alçaq dağlığın dominant yarımsəhra, kollu-quru çöl landşaftları üçün səciyyəvi elementlərlə bağlı deyildir. Tuqay meşə kolluqların, bataqlı çəmənlərin əmələ gəlməsi landşaftın strukturunu formalaşdıran tranzit elementlərlə daha çox bağlıdır. Yarımsəhra və quru çöl landşaftları fonunda özünəməxsus struktur genetik xüsusiyyətlərə malik tuqay meşə landşaftları Qarayazı Dövlət Təbiət Qoruğunda nadir təbii kompleks kimi qorunur.

Tuqay meşəsinin torpağı çox məhsuldar allüvial-çəmən və çəmən-meşə torpaqlarından ibarətdir. Meşənin qırıldığı sahələrdə məhsuldar əkin sahələri, seliteb landşaftlar əmələ gəlmişdir. Tədqiq olunan ərazidə demoqrafiq yüklənmə ən çox insanlar tərəfindən qırılmış tranzit tuqay meşə və meşə-kolluqların yayıldığı sahədə müşahidə edilmişdir. Bu da landşaftın çox yüksək təbii ehtiyat potensialı ilə bağlıdır. Bu landşaft tipində insanların təsərrüfat və həyat fəaliyyətini, istirahətini təmin edən kifayət qədər struktur elementlər mövcuddur.

Nəticələr

- İlk dəfə olaraq Ceyrançöl alçaq dağlığı geosistemlərinin struktur - genetik komponentləri ArcGİS/Arc Map kompüter proqramlarının köməyi ilə Coğrafi informasi sistemləri mühitində təhlil edilmiş və onların ayrılıqda insanın təsərrüfat fəaliyyətinə müvafiq olaraq təbii resurs potensialları və onlardan istifadənin ekoloji norma və hədləri müəyyən edilmişdir.
- İlk dəfə olaraq geosistemlərin təbii ehtiyat resurslarının qiymətləndirilməsində yeni yanaşmalar və tədqiqat modelləri tətbiq edilmişdir. Geosistemin təbii ehtiyat potensialını artıran və azaldan amillər müəyyən edilmiş və onlar beş ballıq sistemdə qiymətləndirilmiş, Gis texnologiyaları ilə analiz edilmiş və alınan nəticələr əsasında geosistemlərin təbii ehtiyat potensialının nisbi bal əmsalları hesablanmışdır.
- İlk dəfə ərazi geosistemlərinin nisbi bal əmsalları qruplaşdırılmış və təbii resurs potensialına görə beş səviyyə müəyyən edilmişdir: təbii resurs potensialı çox zəif, zəif, orta, yüksək və çox yüksək. Məlum olmuşdur ki, Ceyrançöl alçaq dağlığı ərazisinin 29,6%-i orta təbii resurs potensialına malik olmaqla daha geniş sahə tutur. Ərazidə ən çox cəmi 11% sahədə landşaftın təbii resurs potensialı ən yüksəkdir. Tədqiq olan ərazinin yarıya qədərinin təbii resurs potensialı çox zəif (21%) və zəif (25,8%) olmuşdur.

ƏDƏBİYYAT

1. Budaqov B.Ə. Azərbaycan Respublikası ərazisinin ekoloji gərginlik dərəcəsinə görə ekoloji-coğrafi rayonlaşdırılması. Təhlükəli təbiət hadisələrinə həsr edilmiş elmi-praktiki konfransın materialları. Bakı, “Elm”, 1984, səh. 135-150.
2. İsmayılov M.C. Kür-Araz dağarası çökəkliyinin landşaft-ekoloji rayonları. ACC-nin əsərləri. Bakı, 2006. X cild səh.107-113.
3. Məmmədbəyov E.Ş., Yunusov M.İ., İsmayılov M.C. Böyük Qafqazın şimal-şərq yamacı landşaftlarının dayanıqlıq dərəcəsinə və ekoloji müxtəlifliyinə görə qiymətləndirilməsi. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, X cild, Bakı 2006, səh. 138-141.
4. Məmmədov R.M., M.C.İsmayılov. Azərbaycanda landşaftların təbii ehtiyat potensialının qiymətləndirilməsi və ondan səmərəli istifadə edilməsi. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, XVIII cild, Bakı, 2013,səh.10-19.
5. Mikayılov A.A. Ceyrançöl- Acınohur öndağlığı landşaftının formalaşmasına relyefin təsirinin tədqiqi (aerokosmik şəkillərin tətbiqi ilə), AMEA Coğrafiya İnstitutunun fondu. Bakı, 1982.
6. Müseyibov M.A., Süleymanov M.Ə. Ceyrançöl alçaq dağlığının təbii landşaftı . Bakı, 1975, 136 səh.
7. Süleymanov M.Ə. Azərbaycanın təbii və antropogen landşaftlarının inkişaf qanunauyğunluqları. Bakı, 2005.
8. Süleymanov M.Ə. Ceyrançöl-Acınohur ön dağlığının təbii landşaftları. Coğrafiya elmləri namizədi dissertasiyası. Bakı, 1965.
9. Исаченко А.Г. Экологический потенциал ландшафта, расселения, хозяйственная освоенность территори. География в школе, 2001, № 3, с. 3-11.
10. Исаченко А .Г. Экологический потенциал ландшафта. Изв. ВГО , 1991, Т. 123., Вып. 4, стр 305-316
11. Исаченко А .Г. Оптимизация природой среды. М. "Мысль ", 1980, - 228 с
12. Мамедов Р.М., Ализаде Э.К., Гасанов М.С. Оценка ландшафино-рекреционного потенциала Ширванского нациольного Парка и окружаюшей территории. Тр. АГО, Баку,2009, Т.X, с.14-21.
13. Мухина Л.И. Принчипы и методы технологической оценки природных комплексов. М., 1973, 95с.
14. Рюмин В.В Природный потенциал геосистем и его районирование. В кн. Эколого- географическое картографирование и районирование Сибири. Новасибирск., 1990, С. 139-144.
15. Сольнцев Н.А. Природный географический ландшафт и некоторые его общие закомерности. Тр. II Всесоюз геогр. счезда. М., 1948, Т.1. стр. 258-269.
16. Эйюбов А.Д. Агроклиматическое районирование Азербайджанской ССР. Изд. АН Азербайджанской ССР. Баку 1968,187с.

ОЦЕНКА ПРИРОДНО-РЕСУРСНОГО ПОТЕНЦИАЛА ГЕОСИСТЕМ ДЖЕЙРАНЧЕЛЬСКОГО НИЗКОГОРЬЯ

М.Д. Исмайлов, Э.Ш. Мамедбеков, М.И. Юнусов, С.М. Зейналова, К.Э. Махмудова

Статья посвящена исследованию естественно-ресурсного потенциала Джейранчельского низкогорья, который является одним из регионов интенсивного развития сельского хозяйства, особенно, животноводства в Азербайджане.

В ходе исследования определены экологический потенциал, степень трансформации под антропогенным влиянием, оптимизация использования современных ландшафтов Джейранчельского низкогорья.

По результатам исследования произведена группировка территории по естественно-ресурсному потенциалу и составлена электронная карта в программе ArcGIS.

ASSESSMENT OF NATURAL-RESOURCE POTENTIAL OF GEOSYSTEMS OF THE JEYRANCHOL LOWLANDS

M.J. Ismayilov, E.Sh. Mammadbekov, M.I. Yunusov, S.M. Zeynalova, K.E. Makhmudova

The article dedicated to investigates of the natural-resource potential of Jeyranchel lowlands, which is one

of the regions of intensive development of agriculture, especially animal husbandry in Azerbaijan.

The study identified the ecological potential, transformation under anthropogenic influence, optimizing of use of the modern landscapes of Jeyranchel lowlands.

According to a study carried out the grouping of territory by natural-resource potential and the electronic map is made in the program ArcGIS.

HIDROLOGİYA

ВОДНЫЕ РЕСУРСЫ АЗЕРБАЙДЖАНА И ПРОБЛЕМЫ ВОДООБЕСПЕЧЕНИЯ НАСЕЛЕНИЯ В УСЛОВИЯХ ГЛОБАЛЬНЫХ ИЗМЕНЕНИЙ

Р.М.Кашкай

Институт Географии им. ак. Г.А.Алиева НАН Азербайджана,
AZ1143, Азербайджан. г. Баку, ул. Г. Джавида, 115

В статье рассматриваются вопросы изменения стока рек в связи с изменениями климата и под воздействием антропогенного фактора. Исследования проведенные поэтапно (до 1960 и после 1961 по 2010г.) показали, что в величине стока после 1960 года больших изменений не произошло, а уменьшение стока в нижних частях рек является итогом перераспределения его по территории. В статье предлагаются мероприятия по улучшения экологической обстановки нижних частей рек и водообеспечению населения питьевой водой.

Одной из основных задач комплексных географических исследований является изучение гидрологических процессов в совокупности с природными факторами в целях рационального природопользования, в том числе водопользования. Поверхностные воды являются важным элементом ландшафта. Вместе с тем в условиях развитого орошаемого земледелия и энергетического использования рек огромное влияние на их режим оказывает человек, преобразуя природу в нужном для него направлении.

Азербайджан является страной малых горных рек, где из 8350 рек 8295 имеют длину менее 25 км.

Территория Азербайджана, за исключением рек, непосредственно впадающих в Каспийское море, входит в бассейн р. Куры. Находясь в среднем и нижнем течении двух межгосударственных рек Кура и Араз, она имеет в основном приток из сопредельных территорий составляющий 20,6 км^3. А сток, формирующийся в пределах республики, мал и равен 10,3 км^3 [1].

Из них 48% составляют подземные воды, участвующие в формировании рек в горах [3, 4].

В отличие от других природных богатств, водные ресурсы обладают способностью постоянного возобновления, связанного с круговоротом воды в природе. Это создает уверенность в достаточной водообеспеченности всех потребностей человека в будущем. Между тем водные ресурсы ограничены. Неравномерное распределение стока внутри года и по территории республики также создает неблагоприятные условия для эффективного использования водных ресурсов.

Создаваемые на реках водохранилища многолетнего и сезонного регулирования в какой-то мере решают проблему орошения. Однако вопрос обеспечения водой населения городов, сел и поселков остается насущным и на сегодняшний день.

"Balaxanıneft" NQÇİ Balaxanı, Zabrat, Sabunçu və Ramana qəsəbələrinin ətrafındakı neftli-qazlı sahələri əhatə etməklə müxtəlif TTF riski altındadır. "Balaxanıneft" NQÇİ-yə məxsus olan ümumi sahənin 1208 ha-sı və ya 80%-i neft-mazut tullantıları və yeraltı sularla tamamilə çirklənmiş və yararsız hala düşmüşdür. Yararsız vəziyyətə düşmüş torpaqların isə 280 ha-dan çoxu və ya 23,2%-i əhali tərəfindən zəbt olunmuşdur. Sabunçu və Ramana neft-qaz mədənləri ətraf sahələrdən xeyli çökək ərazilərdə yerləşdiyindən, yeraltı sularla yanaşı, digər sənaye-məişət və yağış suları da mütəmadi olaraq əraziyə böyük ziyan vurur. Ona görə də Balaxanı, Zabrat və Sabunçu yaşayış məntəqələri ətrafında bir neçə xırda və iri neft-mazut gölməçələri yaranmışdır. Hazırda neft-qaz quyularının çoxunun ləğv edildiyi mədən sahəsində əhalinin məskunlaşmasının getdikcə artması burada neft-radiasiya fonunun da ətraf mühitə mənfi təsir göstərməsini istisna etmir. Ramana gölünün ətrafında Yod zavodundan atılmış tullantılar, istehsalat və məişət çirkab suları, leysan yağışları güclü küləkdən sonra ətraf əraziləri basır, burada məskunlaşan əhalinin sağlamlığına və həyat fəaliyyətinə ciddi ziyan yetirir.

Suraxanı Oil ƏŞ 1300 ha ərazini əhatə edir ki, bunun da 567 ha-sı və ya 43,6%-i neft-qaz tullantıları və yeraltı sular nəticəsində tamamilə yararsız vəziyyətə düşmüşdür. Bu şirkətin tabeliyində olan və Hövsan çökəkliyində neftli-mazutlu 3 gölməçə yaranmışdır ki, bunların da ümumi sahəsi 80 ha-dan çoxdur. Suraxanı və Hövsan neft-qaz çıxarılan ərazilərin ətrafında əhali məskunlaşması artmışdır. Neft-mazutla çirklənmiş torpaqların 125 ha-sı əhali tərəfindən zəbt edilmiş, 526 ha neft mədəni ərazisinin 400 ha-dan çoxu isə çirklənməyə məruz qalmışdır [3, s. 331-332].

Binəqədi Oil Kompani şirkətinin sahəsi 2,8 min ha olmaqla, əsasən Binəqədi, Sulutəpə, Çaxnaqlar, Qırmancı, Şabandağ, Siyansor, Məhəmmədli və Masazır sahələrindən neft-qaz çıxarır. Balaxanı-Binəqədi və Mehdiabad şose yollarının keçdiyi ərazi neft tullantıları ilə çirklənməyə məruz qalmışdır. Ərazidə mədən və yeraltı suların toplanması nəticəsində sahəsi 0,5 ha olan neftli-mazutlu göl formalaşmışdır. Sahənin şimal və cənub hissələrini neft gölməçələri və şoranlıqlar əhatə edir. Bu neft-qaz yatağının şimal hissəsində vaxtaşırı olaraq Böyükdağ və Kiçikdağ, şərqində Abix və Zigilpir, cənubunda Keyrəki, qərbində və şimal-qərb qurtaracağında Keçəldağ palçıq vulkanları və 200 ha-ya yaxın mazutlu gölməçələr təsərrüfata daim ziyan vurur.

Xəzər dənizindəki Pirallahı, Gürgəndəniz, Neft Daşları, Darvin bankası, Qum-dəniz, Abşeron bankası, Səngəçal-Duvannı-Xərə-Zirə adası, Bahar, Bulla-dəniz, Günəşli, Çıraq, Azəri, Kəpəz, Şahdəniz və s. neft və qaz kondensat yataqları perspektivli olmaqla, mütəmadi olaraq müxtəlif TF-dən ziyan çəkir.

"Abşeronneft" NQÇİ hələ1936-cı ildən Pirallahı adasında neft-qaz hasilatına başlamış, hal-hazırda Xəzər dənizinin eyniadlı ərazisində açıq dənizdə Gürgan-dəniz, Abşeron bankası, Darvin bankası, Qərbi Abşeron yataqlarında istismar işləri aparır. Adada 1926-cı ildən körpü qurmaqla quru ilə birbaşa əlaqə yaradıldıqdan sonra neft-qazçıxarma sürətlə inkişaf etmişdir. Əhalisi 14 min nəfər olan Pirallahı adası 2014-cü ildən Xəzər rayonundan ayrılaraq müstəqil rayon statusu almışdır. Adanın ümumi ərazisinin 12,3%-i "Abşeronneft" NQÇİ-nin tabeliyindədir. Ərazidə uzun illər neft-qazçıxarılmasında buraxılan səhvlər nəticəsində 5 ha torpaq sahəsi neft-qaz tullantıları, yeraltı və buruq suları vasitəsilə yararsız hala düşmüşdür. Pirallahı adasında ilin 120-130 günü güclü küləklər və qasırğalar hökm sürdüyündən, xüsusilə Abşeron NQÇİ-nin ətrafında məskunlaşan əhali neftli-mazutlu gölməçələrin ətrafında fəlakət və ekoloji risk altındadırlar.

"28 may" NQÇİ Pirallahıya aid olmaqla, "Günəşli", "Çilov" və "Cənub" dəniz yataqlarının istismarını həyata keçirir. Burada güclü küləklər və qasırğalar baş verən zaman dalğaların hündürlüyü 0,5-1 m olduğu halda, şimalda 3-5 m təşkil edir. Çilov adasının dənizsahili zolağı son 10 ildə iki dəfə: 2011 və 2013-cü illərdə donmaya məruz qalıb, bəzən də qalınlığı 40-50 sm-ə çatan buz qatı şimaldan Volqa çayı vasitəsilə Çilov adasına qədər gəlib çatır. "28 may" NQÇİ-nin inzibati binası Çilov adasında yerləşsə də, "Günəşli", "Çilov" və "Cənub" dəniz yataqlarının istismarı üçün bütün növ TTF riski altında neft-qaz çıxarılması, quyuların istismarı və təmiri, neft və qazın toplanması və Neft Daşlarına nəql edilməsi işi davam etdirilir. Bununla yanaşı, Səngəçal-dəniz, Duvannı-dəniz, Xərə-Zirə adası yataqları Bakı arxipelaqının şimal hissəsində, Bakı şəhərindən cənub-qərbə doğru 50 km məsafədə yerləşməklə, güclü külək və qasırğalar, Xəzər dənizinin səviyyə tərəddüdləri və palçıq vulkanlarından mütəmadi olaraq ziyan çəkir.

Azərbaycanın neft və qaz sənayesində Neft Daşlarının kəşfi və fəaliyyətə başlaması dəniz nefti erasının başlanğıcını qoyur. Lakin sonralar istismar olunan quyuların sayının və neftvermə əmsalının azalması ilə əlaqədar neft hasilatı kəskin aşağı düşmüşdür. Abşeron akvatoriyasında Pirallahı-Neft Daşları, Jiloy və Qum adaları, Kürdəxanı-Maştağa-Buzovna, Conqar-Zarat, Siyəzən-Nardaran neft-qazçıxarma sənayesinə şiddətli küləklər, sürüşmə, son illərdə isə Xəzər dənizi səviyyəsinin qalxması güclü ziyan vurur. Jiloy və Qum adalarının bir hissəsi suyun altında qalmış, iqtisadiyyata təqribən 2,5-3,0 mlrd. ABŞ dolları həcmində ziyan dəymişdir. Neft-qazın çıxarılması üçün yaradılan estakadaların bir hissəsi yenisi ilə əvəz olunmuş, digər tərəfdən fəaliyyət göstərən əsas neft mədənlərini dənizin "hücum"undan qorumaq üçün müəyyən tədbirlər görülmüşdür.

Abşeron ərazisində TTF riski altında fəaliyyət göstərən müəssisələrdən biri N.Nərimanov adına NQÇİ-dir. Bu idarə Qaradağ rayonu ərazisində yerləşir, əsas hasilatını dənizdə və qismən bir hissəsini quruda yerinə yetirməklə 5 yataqdan - “Sanqaçal-Divannı-Xərə-Zirə”, “Ələt-dəniz”, “8 mart”, “Bulla-dəniz”, “Ümid”dən ibarətdir. N.Nərimanov adına NQÇİ-nin “Daşgil” mədən sahəsi Qaradağ rayonunun Şıxlar yaşayış məntəqəsi ərazisində yerləşməklə, 35 ha sahəni əhatə edir. Burada TTF, eləcə də yeraltı lay sularının yer səthinə çıxması nəticəsində ərazinin 60%-dən çoxu tamamilə yararsız hala düşmüşdür.



Şəkil 2. Abşeron iqtisadi-coğrafi rayonunda torpaqların çirklənməsi

Neft ehtiyatlarının yerləşməsi və hasilatına görə Azərbaycanın regionları içərisində Abşerondan sonra Aran iqtisadi-coğrafi rayonu ikinci yeri tutur və buradakı neft yataqları əsasən Kür çayının sol və sağ sahillərində, onun aşağı axarlarında yerləşir. Mişovdağ Kür çayı yatağının qərbində və Şirvan şəhərindən 8-10 km şimal-şərqdə, dəniz səviyyəsindən 200-300 m hündürlükdə yerləşməklə, ümumi neft-qaz çıxarılan ərazisinin 4 ha-sı çirklənməyə məruz qalmışdır. Kəmaləddin yatağı isə 125 ha ərazidə Paşalı yaşayış məntəqəsindən 9-10 km və Qubalı kəndindən 5-6 km qərbdə Axtarma-Paşalı palçıq vulkanı sahəsində, dəniz səviyyəsindən 300-400 m yüksəklikdə yerləşir. Quyuların təmiri zamanı çıxarılan çirkli neftli-mazutlu sular açıq torpaq səthinə axıdılır. Ona görə də burada 0,5-0,7 ha torpaq sahəsi neft-mazut tullantıları ilə çirklənmiş, yeraltı və buruq suları qazılmış torpaq anbarlarına axıdılır [2].

Salyan Oil Əməliyyat Şitkətinin neft-qaz istismar olunan ümumi torpaq sahəsi 2,7 min ha təşkil edir. Salyan Oil ƏŞ Kürsəngi, Kirovdağ və Qarabağlı sahəsində neft-qazçıxarma işini həyata keçirir. Ərazidə 24 ha torpaq sahəsi tamamilə neftli-mazutlu çirkab suları və yeraltı sular vasitəsilə yararsız hala düşmüşdür. Ona görə də buruq suları və yeraltı suların yığılması, quyuların təmirinin və boru kəmərlərinin yuyulması və idarə olunması qapalı şəraitdə həyata keçirilməlidir. Bununla yanaşı, “Neftçala” NQÇİ-yə Neftçala və Xıllı neft-qaz, Dürovdağ qaz yataqları aid olmaqla, 25 min ha ümumi ərazini əhatə edir. Burada 3 neft-qazçıxarma müəssisəsi fəaliyyət göstərir və onlara məxsus olan ümumi ərazinin 14 ha-sı neft tullantılar ilə tamamilə yararsız hala düşmüşdür. Ümumi ərazinin 800 ha-ya yaxın sahəsi və ya 80%-i tamamilə çirklənməyə məruz qalmışdır. Bununla yanaşı, Aran iqtisadi-coğrafi rayonunda xüsusilə daşqın və subasmalar neft-qazçıxarma sənayesinə vaxtaşırı olaraq güclü ziyan yetirir.

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonundakı əsas neft yataqları “Siyəzənneft” NQÇİ-yə tabe olmaqla Keşçay, Siyəzən-Nardaran, Əmircan, Zağlı-Zeyvə, Təngi sahəsində yerləşir. Burada mədən suları və layarası sular xüsusilə yeraltı torpaq quyularına və ətraf ərazilərə axıdılır. Ərazidə formalaşan sular çox asanlıqla hopduğundan bəzi xırda tullantılardan başqa, neft-mazut gölməçələri yaranmamışdır. Burada 550 ha sahə və ya 1-ci mədənin ümumi ərazisinin 38,2%-i müxtəlif TTF nəticəsində yararsız hala düşmüşdür. Buruq suları və yeraltı suları yığmaq üçün xüsusi anbar və quyu fəaliyyət göstərsə də, Samur-Abşeron kanalının sağ sahilində ərazisi 960 m^2 olan çirkli göl yaranmışdır. Həmçinin Ataçayın sol sahilində sahəsi 60 m^2 olan ikinci neftli-mazutlu gölməçə yaranmışdır. Bu ərazilərdən qərbə - mədən sahəsinə doğru çox sayda neft-qaz quyuları mövcuddur ki, onların da əksəriyyətinin ətraf zonaları həddindən çox çirkləndirilmişdir. Həmçinin 2-ci NQÇS Sədan və Gilgil yaşayış məntəqələrinə məxsus 784,4 ha sahənin 211 ha-sı və ya 27%-i neft tullantıları ilə çirklənməyə məruz qalmışdır. Pirəbədil və Zağlı-Zeyvə 3-cü mədən sahəsinin 180 ha-sı və ya 39,5%-i müxtəlif TTF nəticəsində yararsız hala düşmüş və neft quyularından sızan və lay sularında formalaşan çirkli sular Şabran çayına və onun hövzəsindəki bulaqlara axır. Quba-Xaçmaz iqtisadi-coğrafi rayonundakı neft-qaz yataqları sürüşmə və daşqın riskli ərazilərdə yerləşməklə, vaxtaşırı olaraq TTF-dən çox ziyan çəkir.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda Qazanbulaq, Dəliməmmədli, Borsunlu, Düzdağ, Acıdərə, Tərsdəllər və Ceyrançöl neft-qaz yataqları, həmçinin Naftalan neft və Yuxarı Qarabağda Tərtər neft yataqları vaxtaşırı olaraq sel və daşqına məruz qalır.

Ölkədə neft-qaz sənayesinin inkişaf tempinin dayanıqlılığı və TTF-dən mühafizə olunması üçün aşağıda qeyd olunanların nəzərə alınması məqsədəuyğundur:

- Azərbaycan üçün strateji əhəmiyyət daşıyan ixtisaslaşmış neft-qazçıxarma sənayesini hər cür təbii və texnogen qəzalardan mühafizə etmək və onun məhsullarından səmərəli istifadə etmək üçün proqramların hazırlanması;
- respublikanın sosial-iqtisadi inkişaf perspektivlərində neft-qazçıxarmanın və bu sahədə yeni yaradılan müəssisələrin ərazi təşkilində TTF-nin nəzərə alınması və düzgün idarə edilməsi dövlətin daim diqqət mərkəzində olması;
- neft-qazçıxarma müəssisələrinin və onun ətrafında məskunlaşan əhalinin TTF-dən və ekoloji riskdən mühafizə edilməsi üçün kompleks mübarizə tədbirlərinin işlənib hazırlanması.

ƏDƏBİYYAT:

1. Azərbaycanın sənayesi. ARDSK: Bakı, 2014, 340 səh.
2. Mirzəyev A.B., Şıxəliyev F.B. Abşeron yarımadası və Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-mədən ərazilərinin ekoloji problemləri və onların aradan qaldırılması yolları. Bakı: 2012, 368 səh.
3. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı, 2010, 416 səh.

ВЛИЯНИЕ ПРИРОДНЫХ И ТЕХНОГЕННЫХ КАТАСТРОФ НА ТЕРРИТОРИАЛЬНУЮ ОРГАНИЗАЦИЮ НЕФТЕГАЗОВОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

Н.А.Пашаев

В статье обосновывается отрицательное влияние природных и техногенных катастроф на территориальную организацию нефтегазодобывающей промышленности и охрану окружающей среды с экономической и социально-географической точек зрения. Дан обширный анализ влияния отдельных природных и техногенных катастроф в региональном и локальном масштабах, на нефтегазодобычу и выявлены оптимальные пути борьбы с ними.

INFLUENCE OF NATURAL AND MAN-MADE DİSASTERS ON THE TERRİTORİAL ORGANİZATİON OF THE OİL AND GAS İNDUSTRY OF AZERBAİJAN

N.A. Pashayev

In the article is grounded the relevance of the geographic, economic and social study of negative impact of natural and technogenшс disasters on the territorial organization and environmental protection of the Azerbaijan's oil and gas industry. İt has been analyzed the impact of various natural and technogenic disasters on the oil and gas production in the local and regional scale, spread and developing on the territory of the republic and shown the ways of effective fight against them.

AZƏRBAYCAN REGİONLARININ SU EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

T.G.Həsənov, M.R.Babayev

Bakı Dövlət Universiteti
tapdiqhasan@mail.ru, m.babayev@mail.ru

Məqalədə Cənubi Qafqazda su ehtiyatları ilə zəif təmin olunmuş Azərbaycan regionlarında su ehtiyatlarından qlobal iqlim dəyişmələri şəraitində istifadənin əsas istiqamətləri şərh olunmuş və milli gəlirin su tutumluluğunun aşağı salınması əsaslandırılmışdır.

Azərbaycan transsərhəd çaylarının aşağı axınında yerləşən, yerüstü axınlarının 69-70%-nin ərazi sərhədlərindən kənarda formalaşan və Cənubi Qafqazda su ehtiyatları ilə ən zəif təmin olunmuş, çox hissəsi arid iqlim zonasında yerləşən regionlardan biridir. Məhz bu baxımdan su ehtiyatlarından səmərəli istifadə və onların inteqral idarə olunan probleminin təhlili regionda başlıca əhəmiyyət kəsb edən aktual məsələlərdən biri kimi qiymətləndirilir [1].

Əsas yerüstü axını formalaşdıran transsərhəd çayları Kür, Araz, Samur, Qanıx olmaqla onların sayı 21-ə çatır ki, bu da regionun su ehtiyatlarında tranzit axının ümumi həcmini qiymətləndirməyə imkan verir (cədvəl 1).

Cədvəl 1

Azərbaycanın yerüstü su ehtiyyatları (çay axını)

Çayların su ehtiyyatı	Ortasulu il (50% təminat)		Nisbətən azsulu il (75% təminat)		Tam quraq il (95% təminat)	
	mln. m^3	cəmə görə %-lə	mln. m^3	cəmə görə %-lə	mln. m^3	cəmə görə %-lə
Tranzit	21359	69	18963	71.1	17010	72.3
Ərazidə formalaşan	9605	31	7720	28.9	6510	27.7
Cəmi	30964	100	26683	100	23520	100

Materialların təhlili göstərir ki, Azərbaycan regionunda çay axınlarının 50%-i ortasulu təminat ilində yalnız 31% ölkə sərhədləri hüdudlarında formalaşır və bu göstərici müvafiq olaraq 75%-li mülayimsulu təminat ilində 28,9%-ə, 95%-li təminat ilində, yəni quraq keçən illərdə isə azalaraq 27,7% həddinə bərabər olur. Çay axınının ortasulu ilə nisbətən quraq illərdə 3,4% azalması suvarma əkinçiliyinin əsasən arid iqlim zonasında yerləşən regionun təsərrüfat kompleksinin təmamilə tranzit axınından asılı olduğunu göstərir. Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz regionunun su ehtiyatlarının yalnız 10%-i Azərbaycanın payına düşür və Azərbaycan hər km^2 əraziyə, eyni zamanda, adambaşına düşən su ehtiyatlarına görə Cənubi Qafqazın digər region dövlətlərindən hiss olunacaq dərəcədə geri qalır [6].

Bütün bu göstəricilər qlobal iqlim dəyişilmələri şəraitində, resurslara təsir baxımından qiymətləndirilərsə, perspektivdə regionun təsərrüfat kompleksinin məruz qala biləcəyi çətinlikləri indidən proqnozlaşdırmaq mümkündür. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1961-1990, 1991-2000, 2001-2014-cü illər ərzində apardığı təhlillər sübut edir ki, regionda havanın orta temperaturunda, əvvəlki illərlə müqaisədə $0{,}52^0$ C qədər istiləşmə, eyni zamanda, müvafiq olaraq orta illik yağıntıların miqdarında isə 9,8% azalma müşahidə olunmuşdur. Dağ buzlaqlarının sahəsində də əhəmiyyətli dərəcədə azalma intensivliyi özünü göstərir. Nəticədə iqlim dəyişmələri fonunda regionun çay axınının 2021-2050-ci illər ərzində orta hesabla 23%, 2070-2100-cü illər ərzində isə 29%-ə qədər azalacağı mümkün real proqnoz variantı kimi qəbul olunur. Belə bir şəraitdə Azərbaycanın yerüstü su ehtiyatlarının ortasulu ildə (50%-li təminat) ümumi həcminin 23842 mln m^3 ilə - 21984 mln m^3 arasında dəyişəcəyi və bunun hazırkı şəraitdə tam quraq il göstəricilərindən aşağı olduğu aydın olur. Ona görə BMT apardığı qruplaşmalarda real olaraq Azərbaycanın su qıtlığı ilə üzləşəcəyi regionlar sırasına daxil edilməsi də həyati reallıqdan irəli gələn təhlil nəticəsi kimi qəbul olunmalıdır.

Azərbaycanın kənd təsərrüfatı tarixən suvarma əkinçiliyinə əsaslanır. Kənd təsərrüfatına yararlı 4,5 mln. ha torpaq sahəsinin hazırda 1,5 mln ha-sı və ya 33,0%-ni suvarılan torpaqlar təşkil edir.

Kənd təsərrüfatı məhsullarının 90%-dən çoxu da bu torpaqlardan əldə olunur. Həmçinin bu torpaqlar əsasən arid-düzənlik zonasında yerləşməklə, özünün isti quru iqlimi, zəif atmosfer yağıntıları (200-300 mm/il) və mürəkkəb torpaq-bitki örtüyü ilə digər ərazilərdən seçilir. Bu torpaqların, demək olar ki, 610 min ha-sı və ya 40,7%-i kollektor-drenaj şəbəkəsi ilə əhatə olunmuş torpaqlardır [2].

Statistik materialların təhlilləri göstərir ki, Azərbaycanda il ərzində orta hesabla su mənbələrindən 10-14 km^3 su götürülür və bunun da 2,9-3,7 km^3 və ya 20,7- 26,4%-i istehlak rayonuna çatdırılma kəmərlərində nəql zamanı itkilərə məruz qalır. İstifadə olunan suyun 60-70%-i kənd təsərrüfatında, 20-25%-i sənayedə, qalan hissəsi isə təsərrüfat-məişət məqsədləri üçün istifadə olunur. Nəticə etibarilə kollektor-drenaj axınları nəzərə alınmaqla il ərzində tədqiq olunan region ərazisində 4,0-4,6 km^3 axıntı suyu formalaşır [5].

Aparılan hidroloji tədqiqatlardan məlum olur ki, son on il ərzində region ərazisində müşahidə olunan quraqlıq nəticəsində Kür və Araz çaylarında axın həcminin azalmasına, su anbarlarında zəruri ehtiyat həcminin yığılmamasına və suvarılan torpaqların suvarma suyu ilə təmin olunmasında əhəmiyyətli azalma tendensiyasının formalaşmasına öz təsirini göstərmişdir. Belə ki, suvarılan torpaq sahələrinin artırılaraq 3,0-3,2 mln ha-ya çatdırılması üçün regionda mümkün real imkanlar olmasına baxmayaraq, bu potensialdan istifadə olunmur və mövcud suvarılan torpaqların sahə göstəricilərində müəyyən dərəcədə su çatışmazlığı ilə əlaqədar azalma meyilləri müşahidə olunmaqdadır [3].

Su çatışmazlığının müşahidə olunduğu bir şəraitdə Azərbaycan regionu üçün ümdə məsələ mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, nəql zamanı baş verən itkilərin azaldılması, ən əsası isə digər Cənubi Qafqaz dövlətləri və Rusiya Federasiyası ilə transsərhəd axınlarının istifadə olunması baxımından nizamlanmasının həyata keçirilməsi problemlərinin həllinə qisa zaman müddətində nail olunmasıdır. Cənubi Qafqaz dövlətləri içərisində yalnız Azərbaycan transsərhəd axınlarının və göllərinin istifadəsi və mühafizəsi sahəsində 1992-ci il Helsinki Konvensiyasını imzalayaraq ratifikasiya etmişdir. Ümumilikdə inteqral idarəetmə sahəsində problemin həlli məqsədilə Azərbaycan digər Cənubi Qafqaz dövlətləri ilə qarşılıqlı anlaşma şəraitində transsərhəd axınlarından istifadəni nizamlamağa çalışır. Artıq Gürcüstan, İran İslam Respublikası və Rusiya Fedarasiyası ilə Kür, Xram, Araz, Samur çaylarından istifadə ilə əlaqədar müəyyən irəliləyişə nail olunsa da, hazırda bu sahədə həllini gözləyən problemlər tam başa çatdırılmamışdır. Hətta müharibə şəraitində olan Ermənistanla bu məsələdə 100 min ha suvarılan torpaq sahəsinin, 400 mindən çox əhalinin yaşadığı Tərtərin aşağı axını ilə əlaqədar Sərsəng su anbarından istifadə problem olaraq gərginləşməkdə davam edir [7]. Eyni zamanda, bütün bu həll olunmamış və ümumi regional konsensiusun əldə olunmadığı problemlər nəyinki gərginləşməkdə davam edir, hətta transsərhəd çaylarında ekoloji vəziyyətin “kollapsına” səbəb olan amilə çevrilir. Hazırda transsərhəd çaylarında ekoloji “kollaps” açıq-aydın özünü biruzə verir. İl ərzində Gürcüstan və Ermənistan ərazilərindən transsərhəd çaylarına axıdılan 470 mln m^3 təmizlənməmiş tullantı suyu Azərbaycan regionunda bir sıra yaşayış məntəqələrinin içməli su təchizatında köklü problemlərin yaranması ilə nəticələnmiş və həmin çay sularından istifadə olunmaması yekun qərar kimi müəyyənləşdirilmişdir.

İnteqral idarəetmə bütün Cənubi Qafqaz dövlətlərində su ehtiyatlarından istifadə sahəsində nisbətən yeni yanaşma istiqaməti hesab oluna bilər. İlk növbədə Azərbaycanda suvarma sistemlərinin yenidən qurulması, təsərrüfatlararası kollektor-drenaj sistemlərinin bərpa olunması, eyni zamanda, bu istiqamətdə azad sahibkarlıq cavabdehliyi ilə əlaqədar məsələlərin həlli və su ehtiyatlarından səmərəli istifadə birinci dərəcəli problem kimi qarşıya qoyulmalı və onların həlli istiqamətində mərhələli tədbirlər həyata keçirilməlidir. Bunun üçün “Su İstifadəçiləri Assosiasiyası”nın təsis olunması və təşkili böyük səmərə verə bilər. İkinci mühüm məsələ 1997-ci ildə qəbul olunmuş “Su Məcəlləsi”nin yenidən işlənməsi də böyük rola malikdir. Çünki hazırkı məcəllədə su ehtiyatlarının inteqral idarəolunması ilə əlaqədar heç bir müddəa yoxdur. Lakin məcəllədə su ehtiyatlarından istifadənin hövzə, ərazi-inzibati prinsipləri əsasında və kompleks yanaşma metodu əsas istiqamət kimi müəyyənləşdirilərək öz əksini tapmışdır. Problemin həllində sudan istifadə ilə əlaqədar yeni kompleks proqramın işlənməsinə də zəruriyyət duyulur və bu sahədəki boşluq özünü göstərir. Problemlərin həllində üçüncü əsas başlıca istiqamət Cənubi Qafqazda tranzit axınlarla əlaqədar vahid regional konsensusun əldə olunması və vahid hüquqi statuslu regional təşkilatın təsis olunmasına nail olunmasıdır [4].

Əsas məsələlərdən biri də hazırda Azərbaycan Respublikasında ümumidaxili məhsulun, milli gəlirin su tutumluluğunun yüksək olması, məhsul vahidi istehsalına daha çox təmiz su resurslarının sərf olunması, eyni zamanda, sənaye kompleksində dövri və ardıcıl su istifadəsinin xüsusi çəkisinin həddindən artıq aşağı göstərici ilə xarakterizə olunmasıdır. Belə ki, hazırkı şəraitdə iqtisadiyatın su qıtlığı ilə üzləşdiyi, adambaşına və hər km^2 əraziyə düşən su ehtiyatlarının ən aşağı göstəricisi ilə seçilən respublikada (1,5 m^3 və 107 m^3-dən az) ÜDM 1000 ABŞ dolları üçün su mənbələrindən 286 m^3 su götürüldüyü halda, Rusiyada bu göstərici müvafiq olaraq 44 m^3, Qazaxstanda 182 m^3, Böyük Britaniyada 5 m^3, Fransada 18 m^3, Almaniyada 14 m^3, Yaponiyada 23 m^3, ABŞ-da 39 m^3, Kanada da isə 41 m^3 olmuşdur. Təhlil materialları göstərir ki, Azərbaycanda ÜDM məhsulun 1000 ABŞ dolları üçün Rusiyaya nisbətdə su mənbələrindən 6,5, Qazaxstana 1,6, Böyük Britaniyaya 57,2, Fransaya 15,9, Almaniyaya 20,4, Yaponiyaya 12,4, ABŞ 7,4, Kanadaya nisbətdə isə 7,0 dəfə çox su götürülür, nəticə ehtibarilə su mənbələrinə atılan çirkli suyun miqdarı da qanunauyğun olaraq artır və respublika bərpa olunan su ehtiyatının 35%-dən çoxunu istehsala cəlb etmək məcburiyyəti ilə üzləşir. Müqayisə üçün qeyd olunmalıdır ki, su ehtiyatları ilə yaxşı təmin olunmuş Rusiya Fedarasiyasında bərpa olunan su ehtiyatının ancaq 4%-dən bir qədər çox hissəsi istehsala cəlb olunur [5].

Biznes mühitində resursa münasibətdə ekosəmərəliliyin təmin olunmaması, ardıcıl, təkrar dövri su təchizat sisteminin zəif olması, texnologiyanın texnogen xarakteri və daxili şəbəkədə su itkilərinin çox olması açıq-aydın özünü biruzə verir. Sənaye və kənd təssərüfatı sahələrində də məhsul vahidinə resurs sərfində eyni mənzərə müşahidə olunur.

Özəl sektorda məhsul istehsalının dayanıqlı inkişaf indeksini təmin edən göstəricilərə, xüsusən məhsulun təbii resurs tutumluluğuna münasibətin birtərəfli olması və biznesdə ekoloji idarəolunma mexanizminin qurulmaması, ətraf mühitin mühafizəsi sahəsində hərtərəfli dövlət dəstəyinə baxmayaraq, respublikada inkişaf piramidasının resurs tutumluluğunu artırmaqla, əks-ekoloji tendensiyanın formalaşmasına və yeni texnologiyaların tətbiqinə meyilliliyin zəifləməsinə, ən yaxşı halda isə, belə demək olarsa, onun "0" həddində olmasına gətirib çıxarmışdır. Apardığımız təhlillər göstərir ki, ancaq daxili imkanlar və təbiətə münasibətdə biznes baxışlarının dəyişdirilməsi faktorları hesabına Azərbaycan Respublikasında ÜDM resurs tutumluluğunu 2,5-3,0 dəfəyə qədər azaltmaq və dayanıqlı inkişaf indeksinin birinci mərhələdə stabilləşməsinin, sonrakı mərhələdə isə norma hədlərini təmin etmək mümkündür. Resurs sərfinə münasibət dəyişilməzsə, inkişaf piramidasının oturacağının iqtisadiyyatın yüksəliş meyillərinə proporsional şəkildə qalın resurs qatları ılə örtüləcəyi və ətraf mühitə deqradasya təsirinin artacağı heç kimdə şübhə doğurmamalıdır. Bu, yaxın dövr üçün ekoloji proqnozun reallığıdır. Maraqlı bir fakta diqqət yetirmək istərdik. Ekoinkişaf piramidasının qurulmasına Yaponiya bir neçə onilliklər sərf edərək, demək olar ki, artıq istəyinə nail olmuşdur. Bizdə isə bu kontekstdə dövlətin fəal dəstəyi ilə birinci mərhələ üçün zəruri sayılan baza formalaşdırılmış və buna Yaponiyaya nisbətən daha az müddət sərf olunmuşdur.

Qeyd olunanları nəzərə alaraq Azərbaycan regionunda su ehtiyatlarından səmərəli istifadə və inteqral idarəetmənin həlli məqsədilə aşağıdakıların qısa zaman müddətində həyata keçirilməsi əsas inkişaf istiqaməti və qarşıda duran başlıca vəzifə kimi müəyyənləşdirilməlidir:

-əhalinin yüksəkkeyfiyyətli içməli su təchizatının təmin edilməsi və yeraltı su ehtiyatlarından səmərəli istifadə olunmaqla əhalinin tranzit su təchizat mənbələrindən təcrid olunması;

-kollektor-drenaj sistemlərinin təkmilləşdirilməsi və suvarılan torpaq potensialından istifadənin yaxşılaşdırılması;

-müşahidə olunan su qıtlığının aradan qaldırılması, torpaqörtülü suvarma kanallarının beton örtüyə keçirilməsi, yeni mütərəqqi suvarma metodlarından istifadə olunması;

-kollektor-drenaj sularından təkrar istifadə olunma imkanlarının öyrənilməsi, tətbiqi və yeni əsaslandırılmış suvarma normalarının işlənib hazırlanması;

-suvarma zonasını əhatə edən Kür-Araz hövzəsində torpaqların təkrar şoranlaşmasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, suvarma zamanı su itkilərinin minimum səviyyəsinin təmin olunması;

-bütün sahələrdə su itkilərinin minimuma endirilməsi ilə əlaqədar kompleks tədbirlərin həyata keçirilməsi, kollektor-drenaj sularından və təmizləyici sistemlərdə təmizlənmiş tullantı sularından təkrar istifadə olunmasının genişləndirilməsi;

-sənaye kompleksində təmiz içməli su sərfinin xüsusi çəkisinin azaldılması və ayrı-ayrı sahələrdə təkrar-dövri və ardıcıl su təchizatının imkanlarından istifadə olunması;

-tranzit axınlarla əlaqədar Cənubi Qafqazda vahid regional konsensusun əldə olunması və vahid hüquqi statuslu regional təşkilatın təsis olunmasına nail olunması;

- suvarma sularına diferensial regional qiymətlərin müəyyən edilməsi.

Qeyd olunan tədbirlərin həyata keçirilməsi daima su gıtlığına məruz qalan Azərbayca regionunda su ehtiyatlarından səmərəli istifadə olunmasına, inteqral idarəetmə probleminin həllinə və dayanıqlı su təchizatına nail olunması sahəsində həledici irəliləyişin əldə olunmasına imkan verəcəkdir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası (B.Ə.Budaqovun redaktəsi ilə). Bakı, Elm, 1999. 246 s.
2. Qurbanzadə A.A. Ekologiya: sosial və iqtisadi əsasları. Bakı, Elm, 2010, 368 s.
3. Рустамов С.Г., Кашкай Р.М. Водный баланс Азербайджана. Баку, Елм, 1978, 250 с.
4. Həsənov T.G., İqtisadi–coğrafi rayonlaşdırma. Bakı, Bakı Dövlət Universiteti, 2012, 245 s.
5. Babayev M.R. Azərbaycanın su ehtiyatları: səmərəli istifadə və inteqral idarəolunma problemi. Elmi-praktiki konfransın materialları. Bakı, 2015, s. 42-44.
6. Бабаев М.Р. Экономические проблемы использования и охраны водных ресурсов в Азербайджанской ССР, Аз НИИНТИ- Баку-1989, 28 с.
7. Həsənov T.G., İsmayılova Ü.T. Böyük Qafqazın cənub yamacının su ehtiyatları və təchizat xidmətlərinin coğrafi xüsusiyyətləri. 2-ci Xəzər Beynəlxalq Su Texnologiyalı konfransının materialları. Bakı, 2014. s. 93-99.

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЦИОНАЛЬНОГО ИСПОЛЬЗОВАНИЯ ВОДНЫХ РЕСУРСОВ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНА

Т.Г.Гасанов, М.Р.Бабаев

В статье анализируются состояние водных ресурсов в слабообеспеченных регионах Азербайджана, основные направления использования водных ресурсов в условиях глобальных климатических изменений и обоснования снижения водоемкости национального дохода.

THE MAİN DİRECTİONS OF RATİONAL USE OF WATER RESOURCES İN THE REGİONS OF AZERBAİJAN

T.G.Hassanov, M.R. Babayev

The article analyzes the state of water resources in poorly secured regions of Azerbaijan, the main uses of water resources in the conditions of global climatic changes and justification of the reduction of water intensity of national income.

TƏBİİ-DAĞIDICI HADİSƏLƏR VƏ ONLARIN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASINDA SOSİAL SIĞORTA İŞİNİN ROLU

S.Q.Əliyeva

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115

Təbii-dağıdıcı hadisələr və proseslər təsərrüfat obyektləri və əhalinin şəxsi təsərrüfatına ciddi ziyan vuran amillərdir. Onlardan qorunmaq üçün davamlı olaraq tədbirlər görülsə də, bəzi hallarda bu prosesləri qabaqcadan xəbər vermək və mühafizə işləri aparmaq çətin olur. Ona görə sığortalanmanın tətbiq edilməsinə böyük ehtiyac vardır. Məqalədə təbii-dağıdıcı hadisələr və proseslərin nəticələrinin aradan qaldırılması üçün sığortanın tətbiqinin genişləndirilməsi zərurəti ön plana çəkilir, bu sahədə həyata keçirilməsi vacib olan tədbirlər təklif edilir.

Təbii-dağıdıcı hadisələrin baş verməsi zamanı dəyən ziyanın azaldılması və sonradan onların nəticələrinin aradan qaldırılması prosesində sosial sığortanın xüsusi əhəmiyyəti vardır. Təsərrüfat obyektləri, infrastruktur sahələrinə aid müəssisələrin və əhalinin şəxsi mülkiyyətinin sığortalanması və təbii-dağıdıcı hadisələr (TDH) zamanı dəyən ziyanın ödənilməsi vacib vəzifələr sırasındadır. Təsərrüfat obyektlərinin davamlı fəaliyyətinin bərpa edilməsi, bu təsərrüfatlarda işləyən işçilərin, istehsal edilən məhsulların qorunmasında sığorta işlərinin aparılması və bu fəaliyyətin bərpa edilməsi olduqca vacibdir. Ölkədə bu istiqamətdə aparılan işlər hələlik bütün sahələri əhatə etmir.

Ölkənin kənd təsərrüfatına və şəxsi təsərrüfatlara daxil olan obyektlərin sığorta işlərinə cəlb edilməsində xeyli problemlər vardır. Qanunvericilikdə bu sahələrdə sığorta işlərinin təşkili, onların ödənilməsi normativlərinin hazırlanmasında olan problemlərin həll edilməsi vacibdir. Ona görə kənd təsərrüfatı məhsulları becərilən ərazilərdə TDH baş verərkən dəyən ziyanın miqdarı kifayət qədər çox olur, bu isə onların nəticələrinin aradan qaldırılmasında çətinliklər yaradır. Əksər hallarda kənd təsərrüfatı torpaqlarına və becərilən məhsullara dəyən ziyanın nəticələrini tam olaraq aradan qaldırmaq mümkün olmur.

Kənd təsərrüfatı məhsullarının becərilməsi çoxsahəli quruluşa malikdir. Torpaqlar məhsuldarlığına, istifadə edilməsi istiqamətinə görə fərqlənir. Ona görə bu sahənin qiymətləndirilməsi çətinləşir. Problemin həll edilməsi üçün qanunvericilikdə dəyişikliklər edilməsi, kənd təsərrüfatı məhsullarının becərilməsinin qiymətləndirilməsi sisteminin işlənib hazırlanması, bu işləri aparacaq təşkilatların müəyyən edilməsi zəruridir. Kənd təsərrüfatında sığortalanmanın riskli olmasını nəzərə alaraq bu sahəyə aid dövlət təşkilatlarının yaradılmasına, onların fəaliyyət göstərməsi üçün dövlət təminatının verilməsinə, maliyyə dəstəyi göstərilməsinə ehtiyac vardır.

Ərazilərin, yerlərdə məskunlaşan əhalinin sağlamlığı, həyat fəaliyyətinin təbii və texnogen xarakterli fövqəladə hadisələrdən (FH) mühafizəsi məqsədilə sığortalanması onların davamlı fəaliyyət göstərməsində xüsusi əhəmiyyət kəsb edir [1].

Xarici ölkələrdə təsərrüfatın heç bir sahəsi sığorta olunmadan fəaliyyət göstərmir və bu bütün sahələrdə tətbiq olunur. Bu ölkələrdə sığorta şirkətləri dövlətin dəstəyi ilə çox böyük maliyyə imkanlarına malikdir, ölkənin sosial-iqtisadi və demoqrafik inkişafında mühüm rol oynayırlar. Şirkətlər ölkə daxilində yerinə yetirilən bütün işlərdə, dövlət və regional əhəmiyyətli layihələrin reallaşmasında yaxından iştirak edirlər. Təsərrüfat cəhətdən yüksək inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən sığorta şirkətləri gözlənilən istənilən formada təbii fəlakətlər, dağıntılar, zəlzələlər və digər hadisələrin nəticələrinin aradan qaldırılmasına ciddi təsir göstərə bilən həcmdə maliyyə vəsaitləri ayırmaq imkanına malikdirlər.

Qərbi Avropa ölkələrində, ABŞ və Kanadada sığorta şirkətləri mövcud təsərrüfat obyektləri və kənd təsərrüfatı sahələrinin, əhaliyə aid olan şəxsi tikililərin təhlükəsizliyini, təbii fəlakətlərə qarşı dayanıqlığını vaxtaşırı olaraq yoxlayır, bu sahədə zəruri tədbirlərin görülməsini təmin edirlər. Bununla da TDH-dən onlara çox zərər dəyməsinin, insanların sağlamlığına dəyən ziyanın, hətta ölüm hallarının qarşısı alınır. Görülən qabaqlayıcı tədbirlər daşqınlar, sellər, güclü küləklər, zəlzələlər, qulaqlıqlar və s. kimi TDH-nin yayıldığı ərazilərin müəyyən edilməsində, əhali arasında izahat və təbliğat işlərinin aparılmasında xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, qabaqlayıcı tədbirlər bu tipli hadisələrin baş verməsi zamanı sığorta şirkətlərinin üzərinə düşən maliyyə yükünü qabaqcadan azaltmış olur.

Bu işlərin həyata keçirilməsi üçün sığorta şirkətləri təbii fəlakətlər, iqlim dəyişmələri, onun göstəricilərində baş verən dəyişikliklər, maliyyə vəsaitlərinin idarə edilməsi, tikintilərin təhlükəsizliyi sahələrində işləyə bilən yüksəkixtisaslı kadrlara malik olur və onların hazırlanması üçün xüsusi mərkəzlər yaradılır.

Bunları nəzərə alaraq Azərbaycanda da sığorta şirkətlərinin fəaliyyətinin bu istiqamətlərdə qurulması zəruridir. Lakin hələlik ölkədə bu işlərlə məşğul olan sığorta şirkətləri üçün müxtəlif istiqamətlərdə kadrlar hazırlayan mərkəzlər yoxdur. Maliyyə sahəsində sığorta şirkətlərinin kifayət qədər mütəxəssisləri olsa da, digər istiqamətlərdə kadrlar hələlik azdır. Ölkədə TDH-nin öyrənilməsi, yayılması və intensivliyinin müəyyən edilməsi sahələrində ixtisaslaşmış kadrlar sığorta şirkətləri ilə əlaqədə fəaliyyət göstərmir. Bu səbəbdən də ayrı-ayrı rayonlarda yerləşən yaşayış məntəqələrində baş verən daşqınlar, sellər, güclü küləklər və zəlzələlərin vurduğu ziyanın qiymətləndirilməsi çox vaxt FHN əməkdaşları tərəfindən həyata keçirilir. Onların bu sahədə ixtisaslaşmış mütəxəssislər olduğunu demək çətindir. Ona görə qabaqlayıcı tədbirlər görülməsində də xeyli problemlər vardır. Bu səbəblərdən də sığorta şirkətləri və FHN əsasən TDH-nin nəticələrinin aradan qaldırılması sahəsində fəaliyyət göstərirlər.

Azərbaycanda 1999-cu ildə sığorta fəaliyyəti haqqında qanun qəbul edilmişdir. Sonrakı dövrlərdə mövcud olan qanunvericilik əsasında sığorta şirkətləri yaradılmışdır [2]. Hazırda Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin ümumi sayı 30-dan çoxdur. Sığorta şirkətlərinin sayının artması onların fəaliyyətinin də genişlənməsinə, sığortaya cəlb edilən təsərrüfat sahələri və obyektlərinin sayının artmasına, əhalinin ŞHT-nin bir çox sahələrinin sığortalanmasına, ödənilmiş məbləğlərin həcminin artmasına imkan vermişdir. 1995-ci ildən sonra göstərilən sığorta xidmətlərinin sayı 15 dəfəyə yaxın artmışdır. Eyni zamanda, ölkənin ayrı-ayrı rayonlarında baş vermiş FH nəticəsində dəymiş ziyanın müqabilində ödənilən sığorta haqlarının həcmi 1995-ci ildə 1,8 mlrd. manat olmuşdur, hazırda bu məbləğ 30 dəfədən çox artmışdır [6, s. 119].

Lakin hələlik Azərbaycanda TDH hesab edilən daşqınlar, sellər, sürüşmələr, quraqlıqlar, zəlzələlər və dağıdıcı hodrometeoroloji hadisələrdən qorunmaq sahəsində sığortalanma lazımi səviyyədə aparılmır. Bu zaman dəyə biləcək ziyanların miqdarını qabaqcadan müəyyən etmək çətindir, sığorta şirkətlərinin maliyyə ehtiyatları kifayət qədər deyildir, dövlət tərəfindən bu şirkətlərə maliyyə dəstəyi lazımi qədər göstərilmir. Bunun mənfi nəticəsi kimi FH baş verərkən dəyən ziyanların çox hissəsini dövlət orqanları öz vəsaitləri hesabına ödəyir. Ayrılmış vəsaitlər hesabına ziyan dəymiş təsərrüfat, sosial-mədəni xidmət obyektləri, əhaliyə məxsus olan tikililər dövlət vəsaitləri hesabına təmir edilir və ya lazım gəldikdə yenidən tikilir.

Yaranan boşluğun aradan qaldırılması, sığorta şirkətlərinin fəaliyyətinin genişləndirilməsi, TDH-dən ziyan çəkə biləcək regionlarda sığortalanma işinin həyata keçirilməsi, burada yerləşən obyektlərin, xüsusilə dövlət əhəmiyyətli tikililərin, nəqliyyat-kommunikasiya şəbəkəsi obyektlərinin sığortalanması zəruridir. Əhalinin şəxsi mülkiyyətinin, kənd təsərrüfatı bitkiləri əkilən torpaqların, bu sahədə istifadə edilən maşın və avadanlıqların sığorta işinə cəlb edilməsi xüsusilə ciddi problem kimi həll edilməlidir. Bu sahəyə aid qanunvericilikdə olan boşluqların aradan qaldırılması, mövcud qanunvericilik aktlarına düzəlişlər, əlavələr və dəyişikliklər edilməsi az vaxtda öz həllini tapmalıdır.

Əhalinin və təsərrüfat obyektlərinin təhlükə mənbələrindən mühafizəsi, gözlənilməz fəlakətlərdən dəyən ziyanın azaldılması, baş vermiş TDH-dən sonrakı dağıntıların aradan qaldırılması işlərini asanlaşdırmaq üçün ixtisaslaşmış sığorta şirkətlərinin yaradılması istiqamətində də işləmək olar. Bu halda TDH-dən qorunmanın təşkili daha səmərəli nəticələr verə bilər. Ona görə ki, bu istiqamətdə yaradılmış sığorta şirkətləri daha konkret məqsədlərə xidmət göstərir, maliyyə mənbələri, yığılan sığorta haqları qabaqcadan müəyyən edilmiş məqsədlər üçün nəzərdə tutulur.

Dünyanın əksər ölkələrdə bir və ya bir neçə dağıdıcı hadisələrin nəticələrinin aradan qaldırılması üçün genişmiqyaslı tədbirlər görülür. Selin daha çox baş verdiyi İtaliya, Yaponiya, ABŞ, Rusiya və Qazaxıstanda, tez-tez quraqlıqların yer aldığı Avstraliya, bəzi Afrika və Latın Amerikası ölkələrində, sürüşmələrdən ziyan çəkən Moldovada, demək olar ki, hər gün zəlzələlərlə rastlaşılan və onların nəticəsində vaxtaşırı sunamilər yaranan Yaponiyada, çoxsaylı dağıntılara və əksər hallarda insan tələfatına səbəb olan tornadoların tügyan etdiyi ABŞ-da, əhali, təsərrüfat üçün böyük dağıntı mənbəyi sayılan və geniş ərazilərdə tez-tez baş verən daşqınların yayıldığı Böyük Britaniya və İtaliyada, Mərkəzi Avropa, Şərqi və Cənub-Şərqi Asiya ölkələrində əsas təhlükə mənbələrindən mühafizə olunmaq üçün xüsusi qanunlar qəbul edilmişdir. Bu ölkələrdə müxtəlif təyinatlı istehsal və xidmət müəssisələri, əhaliyə məxsus olan mülkiyyət obyektləri mütləq formada sığortalanır. Bu səbəblərdən baş verən hadisələrdən sonra sığorta ödənişləri həyata keçirilir, əhaliyə dəyən ziyanın çox hissəsi ödənilir.

Uzun illər ərzində Azərbaycanda təsərrüfat obyektlərinin sığortalanması və sığorta ödənişlərinin həyata keçirilməsi dövlətin nəzarətində olmuşdur. Baş verən TDH-nin nəticələrinin aradan qaldırılması da mərkəzləşmiş qaydada həyata keçirilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində regionda baş verən daşqınlar, sellər, leysan yağışları, zəlzələlər, dolu vurması hadisələrinin dəqiq hesabatı aparılmış, əksər hallarda onların vurduğu ziyanlar ödənilmişdir. Bu işlər 1917-ci ilə qədər müntəzəm olaraq aparılmışdır. Göstərmək lazımdır ki, bu dövrdə TDH-dən müdafiə sistemləri əksər ərazilərdə aparılmamışdır. Ona görə əhalinin, yaşayış məntəqələrinin, əkin sahələrinin, təsərrüfat obyektlərinin daşqın, sel, dolu vurması, quraqlıq, leysan yağışlarından ziyan çəkməməsi və onların azaldılması sahəsində heç bir təminat olmamışdır.

XX əsrin 20-ci illərindən sonrakı dövrlərdə təsərrüfat obyektlərinin sığortalanması Azərbaycan Dövlət Sığorta Şirkəti tərəfindən həyata keçirilmişdir və dəyən ziyanlar da əsasən ödənilmişdir. Bu zaman dövlətin mülkiyyətində olan bütün təsərrüfat obyektləri, zavodlar, fabriklər, müəssisələr, yollar, kənd təsərrüfatı müəssisələri, heyvandarlıq sahələri sığortalanmaya cəlb edilmiş, FH-dən dəyən ziyanın əsas hissəsi onlara ödənilmişdir. Əhalinin şəxsi mülkiyyətində olan obyektlər də dövlət vəsaitləri hesabına xüsusi fondlardan ödənilmişdir.

Bu dövrdə kənd təsərrüfatı müəssisələri, əkin sahələri, toplanan məhsullar, nəqliyyat-kommunikasiya sistemləri də icbari sığortalanma işlərinə cəlb edilmişdir. Yerlərdə fəaliyyət göstərən nümayəndəliklər bu işlərin həyata keçirilməsində iştirak etmiş, dəyən ziyanlar vaxtında ödənilmişdir. Bunun üçün bu təşkilat, ona məxsus olan müəssisələr Dövlət Sığorta Şirkətinin xətti ilə vaxtaşırı ödəmələr həyata keçirmişdir. Bunun müqabilində baş verən hadisələr nəticəsində dəyən ziyanın əsasən xeyli hissəsini almaq mümkün olurdu. 1979-1983-cü illərdə respublikanın kənd təsərrüfatına təbii fəlakətlər nəticəsində dəymiş ziyanın miqdarı 261,4 mln. rubl hesablanmışdır. Onun əsas hissəsi əkinçiliyin payına düşürdü (258 mln. rubl), az bir hissə ziyan isə heyvandarlığa (3,4 mln. rubl) dəymişdir. Bunun müqabilində dəymiş ziyanın müəyyən hissəsi ödənilmişdir. Ümumilikdə, bu dövrdə kənd təsərrüfatına dəymiş ziyana görə sığorta ödəmələri 50,3% (131,4 mln. rubl), o cümlədən əkinçilikdə 50,0% (129 mln. rubl), heyvandarlıqda 70,6% (2,4 mln. rubl) təşkil etmişdir [6, s.117].

Hazırda ölkədə fəaliyyət göstərən sığorta şirkətləri daha çox gəlir gətirən, lakin az riskli olan sahələri sığortalanmaya cəlb etməyə çalışırlar. Onların arasında nəqliyyat vasitələrinin sığortalanması üstünlük təşkil edir. Uzun illərdir ki, insanların sağlamlığının sığortalanması müzakirə olunur, lakin hələlik nəticələri ürəkaçan deyildir. Mənzillərin sığortalanması, əsasən, şəhərlərdə bir qrup sığorta şirkətləri tərəfindən aparılır.

Sığorta haqlarının ödənilməsində sığorta şirkətlərinin məsuliyyətinin artırılması, icbari sığorta olunun obyektlərin konkret sayının müəyyən edilməsi, onların sığorta haqlarının hesablanmasında konkret üsulların tətbiq olunması bu sahədə ciddi dönüş yarada bilər. Problemin həlli üçün dövlət mülkiyyətində olan sığorta şirkətlərinin sayının çoxaldılması, sığorta bazarında sağlam rəqabətin artırılması və onların məsuliyyətinin yüksəldilməsi vacib tədbirlər kimi müəyyən edilməlidir. Lakin hələlik ölkənin ən böyük su arteriyaları olan Kür və Araz çaylarında daşqınların qarşısının alınması, fəlakətlərdən qorunmaq və mühafizə olunmaq problemi tam olaraq öz həllini tapmamışdır.

2010-cu ildə Kür çayında baş vermiş daşqınların mənfi nəticələrinin aradan qaldırılması üçün dövlət büdcəsindən 300 mln. manat vəsait ayrılmışdır. Daşqınlar Kür və Araz çayları boyu 100 minlərlə əhalini əhatə etmiş, onların ŞHT-na, torpaq mülkiyyətinə, evlərinə ziyan dəymişdir [3]. Lakin ziyan çəkən insanların az bir hissəsinə sığorta ödənişləri verilmişdir. Əsas olaraq göstərilir ki, əhalinin ŞHT, burada yerləşən tikililər sığortalanmanı həyata keçirmir, bu sahədə sığorta şirkətləri fəaliyyət göstərmir.

Şək. 1. 2010-cu ildə Kür və Araz çaylarında baş vermiş daşqın və qrunt sularının səviyyəsinin qalxması nəticəsində dəyən ziyan

Qüvvədə olan qanunvericiliyə görə, kənd təsərrüfatında becərilən buğda, arpa, qarğıdalı, günəbaxan, kartof, şəkər çuğunduru, tərəvəz, meyvə, sitrus, üzüm bağlarının sığortalanması üçün sığorta haqqının 50%-i dövlət büdcəsinin vəsaitləri hesabına ödənilir [4]. Taxıl sahələrində bu ödəniş 100% həcmində aparılır. Bu işlər dövlət müəssisəsi olan Dövlət Sığorta Kompensasiya Şirkəti tərəfindən aparılır. Lakin ölkənin kənd təsərrüfatında mühüm yer tutan heyvandarlığın sığortalanması aparılmır. Dolu, sel, daşqınların nəticəsində yaranan FH zamanı dəymiş ziyan təsərrüfatlara və əhaliyə ödənilmir.



Mənbə: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin illik hesabatı.

Şəkil 2. 2010-cu ildə Kür və Araz çaylarında baş vermiş daşqınlar və qrunt sularının səviyyəsinin qalxması nəticəsində sökülüb, yenidən tikilmiş fərdi yaşayış evləri

Kür çayının sahillərində yerləşən yaşayış məntəqələri daimi olaraq daşqınlar və subasmaların təsirinə məruz qalır [5]. Ona görə bu məntəqələrin daimi olaraq müdafiə edilməsi üçün tədbirlər görülməsi, qəbul edilmiş Dövlət proqramlarında onların mühafizəsi məqsədilə konkret tədbirlərin müəyyən edilməsi lazım gəlir. Mövcud vəziyyət bu məntəqələri daimi təhlükə altında saxlayır, burada məskunlaşan əhalinin yaşayışı və həyatı da bu təhlükəyə daxildir. Bu ərazilərin ölkənin əsas kənd təsərrüfatı rayonları olduğunu nəzərə alaraq, sığorta işinin daha səmərəli təşkili, icbari sığorta olan ərazilərə aid olmasının qanunvericiliklə təsbit edilməsi zəruridir. Əhali arasında təbliğat işləri aparmaqla sığorta ödənişlərinə cəlb edilən obyektlərin sayını artırmaq, sığorta şirkətlərinin fəaliyyət dairəsinə əhalinin şəxsi təsərrüfatlarının da daxil edilməsi vacib vəzifələrdəndir. Onların yerinə yetirilməsini həyata keçirilən regional siyasətin tərkib hissəsinə çevrilməsinə nail olmaq vaxtı artıq çatmışdır.

Nəticə. Ölkələrin təsərrufat obyektləri və əhalinin şəxsi mülkiyyətinin təbii-dağıdıcı hadisələrinin zərərli təsirindən qorunması üçün hələlik sığorta işləri aşağı səviyyədə aparılır, qanunvericilik sahəsində xeyli çatışmazlıqlar vardır. Ona görə baş verən hadisələr zamanı dəyən ziyanın əsas hissəsi əhalinin şəxsi vəsaitləri hesabına aradan qaldırılır. Problemin həll edilməsi üçün xarici ölkələrin bu sahədə mövcud təcrübəsindən istifadə edilməsi, qanunvericilik bazası yaradılması və lazım gəldikcə xüsusi olaraq bu sahədə fəaliyyət göstərən sığorta şirkətlərinin təşkil edilməsi zəruridir. TDH-nin başvermə intensivliyinin və yayılma areallarının genişləndiyi indiki şəraitdə bu xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Babaxanov N.A. Təbii fəlakətləri ram etmək olarmı? Bakı, 2006.
2. Məhərrəmova X.C. Azərbaycan ərazisində baş verən dağıdıcı hidrometeoroloji hadisələr. Bakı, 2008.
3. Azərbaycanın statistik göstəriciləri – 2013. Bakı, DSK, 2014.
4. Azərbaycanın regionları – 2013. Bakı, DSK. 2014.
5. Mahmudov R. Azərbaycanda təhlükəli hidrometeoroloji hadisələr. Bakı, 2014.
6. Musayeva M.R. Daşqınların təsərrüfatın inkişafı və ərazi təşkilinə təsiri. Bakı, 2014.

ПРИРОДНО-РАЗРУШИТЕЛЬНЫЕ ПРОЦЕССЫ И РОЛЬ СОЦИАЛЬНОГО СТРАХОВАНИЯ В УСТРАНЕНИИ ИХ ПОСЛЕДСТВИЙ

С.Г.Алиева

Социальное страхование играет очень важную роль в предотвращении последствий природно-разрушительных процессов и возмещении связанных с ним ущербов, которую могут пережить хозяйственные объекты, предприятия инфраструктуры и объекты частной собственности. В развитых странах накоплен большой опыт предотвращения последствий природно-разрушительных процессов с использованием механизмов социального страхования. В Азербайджане, где разные виды стихийных бедствий время от времени наносят ущерб хозяйству и имуществу, есть необходимость в поощрении страховочной деятельности. Это особенно касается районов Кура-Аразской низменности, подвергающихся разрушительной силы наводнений. В статье исследуется роль социального страхования в возмещении убытков, наносимых населению и сельскохозяйственным посевам в районах побережья реки Куры.

NATURAL-DESTRUCTİVE PROCESSES AND THE ROLE OF SOCİAL İNSURANCE İN THE ELİMİNATİON OF THEİR CONSEQUENCES

S.G.Aliyeva

Conducting of social insurance plays very important role in preventing the consequences of natural and destructive processes, as well as in reimbursing of relevant loss faced by economic enterprises, infrastructure facilities and private houses. Developed countries have wide experience in prevention of the effects of natural and destructive processes due to use of the mechanisms of social insurance. In Azerbaijan, different types of natural disasters regularly occur, as a result of which economic activities and the population may be exposed to damage and economic loss. Hereby, there is a need to manage natural disaster-related social insurance in the country. The problem is urgent particularly for the areas of the Kura-Araz lowland which seasonally sees destructive power of floods. The article deals with the role of conducting of social insurance in the compensation of damages, experienced by population and agricultural fields in the regions, situated along the Kur River.

AZƏRBAYCAN REGİONLARININ DAYANIQLI İNKİŞAFINDA ELEKTROENERGETİKANIN ROLU

Z.M.Məmmədova

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115

Məqalədə Azərbaycanın elektroenergetika sənayesinin müasir vəziyyəti və onun regionların sosial-iqtisadi inkişafındakı rolundan bəhs edilir. Bununla yanaşı, məqalədə alternativ və bərpa olunan enerji ehtiyatlarından səmərəli istifadə edilməsi yollarına da toxunulur.

Hər bir dövlətin milli təhlükəsizliyinin vacib amillərindən biri də sabit enerji siyasəti yürütməklə, elektroenergetika sənayesinin yüksək və dayanıqlı inkişafına nail olmaqdır. Dünya ölkələri arasında Azərbaycan öz karbohidrogen xammal ehtiyatlarının zənginliyi ilə seçilən ölkələrdəndir. Ölkə ərazisində karbohidrogen ehtiyatlarının həcmi 4,2-5 mlrd. ton, proqnoz ehtiyatları isə 10 mlrd. ton şərti yanacağa bərabər hesablanır. Ərazimizin həm quru, həm də su sahələrində iri neft-qaz yataqlarının mövcud olması və onlardan geniş istifadə, iqtisadiyyatın digər sahələri ilə yanaşı, elektroenergetika sənayesinin də inkişafına təkan vermişdir. 1994-cü ildə Xəzər dənizinin Azərbaycan sektoruna aid “Azəri”, “Çıraq” və dərinsulu “Günəşli” yataqlarının birgə işlənməsi və pay bölgüsü haqqında imzalanmış “Əsrin müqaviləsi” adlı sazişə əsasən, həyata keçirilən yeni neft strategiyası müasir dövrdə yanacaq-energetika sənayesinin inkişafını daha da sürətləndirmiş, Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasında və ölkəyə xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır.

Azərbaycanda mövcud olan yanacaq-enerji ehtiyatlarının 81%-i neftin, 18,2%-i təbii qazın, 0,8%-i oduncağın payına düşür. Ölkənin ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişafında bu yanacaq enerji ehtiyatlarından kompleks və səmərəli istifadə edilməsinin əhəmiyyəti olduqca böyükdür. Son illər iqtisadi səmərəlilik və enerji potensialının gücləndirilməsi baxımından yeni modernləşdirilmiş elektrik stansiyalarının işə salınması elektroenergetika kimi strateji sənaye sahəsində ciddi struktur dəyişikliklərinə səbəb olmuş, bu sahənin regionların sosial-iqtisadi inkişafındakı rolunu artırmışdır.

Hazırda respublika energetika sisteminə ümumi istehsal gücü 6000 MVT-yə çatan onlarla elektrik stansiyası daxildir. Təkcə son on il ərzində Azərbaycanda təqribən 3000 MVT gücündə 14 elektrik stansiyası tikilərək, sayının 23-ə çatdırılması elektrik enerjisi istehsalının illik artımına da səbəb olmuşdur. Belə ki, 2003-cü ildə elektrik stansiyalarında 21286 mln. kvt./saat elektrik enerjisi istehsal olunmuşdursa, 2013-cü ildə bu göstərici 23354,4 mln. kvt./saata çatmışdır ki, bu da müvafiq illərin elektrik enerjisi istehsalında 9,7% artım deməkdir.

Respublikada fəaliyyət göstərən elektrik stansiyalarının ümumi istehsal gücünün 90%-i istilik elektrik stansiyalarının (İES), 10%-i isə su elektrik stansiyalarının (SES) payına düşür. Son illər “Cənub”, Şahdağ, Sumqayıt, Səngəçal, Astara, Şəki, Xaçmaz, Naxçıvan, Bakı İES-lərinin; Fizuli, Biləv, Taxtakörpü, “Arpaçay-1”, “İsmayıllı-1” və s. SES-lərinin tikilib istifadəyə verilməsi ölkə energetikasının maddi-texniki bazasını möhkəmləndirmiş, enerji sistemində kəmiyyət dəyişmələri ilə yanaşı, keyfiyyət dəyişiklərinə də səbəb olmuşdur. Belə ki, hər kvt./saat elektrik enerjisi istehsalına sərf olunan yanacağın miqdarının 415 qramdan 315 qrama qədər (modul tipli elektrik stansiyalarında 265,5 qram. kvt./saat), yəni 25%-ə qədər azaldılması hər il təqribən 2 mln. ton şərti yanacağa qənaət etməyə imkan vermişdir [2]. Bu isə öz növbəsində, elektrik stansiyalarında faydalı iş əmsalının artmasına, ekoloji tarazlığın qorunması baxımından müsbət nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Yaxın gələcəkdə energetika sektorunda yeni istehsal güclərin yaradılması və köhnə enerji bloklarının yeniləri ilə əvəz olunması hesabına elektrik stansiyalarında 1 kvt./saat elektrik enerjisinin istehsalına sərf olunacaq yanacağın daha 260 qramadək endirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası ərazisində ənənəvi enerji mənbələri ilə yanaşı, alternativ və bərpa olunan enerji mənbələri də kifayət qədərdir. Bu mənbələrdən, yəni günəş, külək, geotermal suların və kiçik dağ çaylarının enerji ehtiyatlarından istifadə olunması ölkənin siyasi müstəqilliyini və iqtisadi təhlükəsizliyini təmin edən əsas amillərdən sayıla bilər.

“Alternativ enerji mənbələrindən istifadə olunması üzrə Milli Proqram” (2004-cü il) ölkə ərazisində geniş imkanlara malik olan təbii ehtiyat potensialından səmərəli istifadəni genişləndirməklə, alternativ və bərpa olunan enerji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb edilməsini, eləcə də elektroenergetikanın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməyi prioritet olaraq götürür.



Şək. 1. Elektrik stansiyalarının ümumi gücündə İES və SES-lərin payı, %-lə

Ötən əsrin ortalarında Azərbaycan ərazisində onlarla kiçik SES (Quba, Şəki, Zurnabad və s.) fəaliyyət göstərsə də, sonralar bu stansiyaların bəziləri iqtisadi baxımdan əlverişli hesab edilməyərək fəaliyyətləri dayandırılmış, bəziləri isə mərkəzi enerji sisteminə birləşdirilmişdir.

Azərbaycan çaylarının ümumi hidroenerji potensialının 40 mlrd. kvt./saat, kiçik SES-lərin nəzəri enerji potensialının isə 28 mlrd. kvt./saat olduğu müəyyən edilmişdir. İlkin hesablamalara görə, çayların üzərində tikilməsi mümkün olan 280-ə yaxın kiçik SES-in ümumi istehsal gücü 700 MVT, illik enerji istehsalı isə 3,2-3,5 mlrd. kvt./saat təşkil edir. Son illər kiçik SES-lərdən istifadə məsələlərinin yenidən aktuallaşması da elə bununla bağlıdır. Bu, bir tərəfdən, elektrikötürücü xətlərində baş verən itkilərin azaldılmasına səbəb olacaq, digər tərəfdən isə, cox kiçik ərazilərin belə fasiləsiz elektrik enerjisi ilə təminatına şərait yaradacaqdır. Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağlarından axan kiçik dağ çayları üzərində, eləcə də su təsərrüfatı obyektlərində (su anbarları, irriqasiya kanalları və s.) yaxın gələcəkdə iqtisadi səmərəliliyinə görə 36 SES-in tikilməsi daha məqsədəuyğun sayılır. Son 5 il ərzində Biləv (2010-cu il), "Qusar-1" (2012-ci il), Fizuli (2012-ci il), "İsmayıllı-1" (2013-cü il), Taxtakörpü (2013-cü il), "Arpaçay-1" (2014-cü il) və s. bu kimi kiçik SES-lərin tikilib verilməsi bu sahədə atılan uğurlu addımlara misaldır.

Azərbaycan ərazisinin mövcud təbii iqlim şəraiti alternativ və bərpa olunan enerji mənbələrindən, o cümlədən külək, günəş, termal suların enerjisi, biokütlə və s-dən istifadə üçün də çox yararlıdır.

Azərbaycan ərazisində günəşli saatların illik miqdarının 2400-2900 saat/il m^2, yer səthinə düşən günəş enerjisinin miqdarının isə 1500-2000 kvt./saat təşkil etməsi regionun Abşeron, Naxçıvan və Kür-Araz kimi bölgələrində günəş enerjisindən istifadəyə geniş imkanlar yaradır. Bu məqsədlə Bakı və şəhərətrafı qəsəbələrdə inzibati və sosial təyinatlı binaların, küçələrin, parkların işıqlandırma sistemlərində, eləcə də Qobustan, Salyan, Biləsuvar, Beyləqan və s. rayonlarda günəş PV modullarının istifadəsi ilə içməli suyu təmizləməklə, yerli əhalini təmiz su ilə təchiz etmək məqsədilə 5 MVT gücündə günəş panellərinin quraşdırılması layihələrinin icrasına başlanılmışdır. Digər tərəfdən, aparılmış tədqiqatlar göstərir ki, fotoelektrik modullarla elektrik enerji istehsalını təşkil etmək məqsədilə respublikada modul sistemlərinin yaradılması üçün kifayət qədər yerli xammal ehtiyatları mövcuddur. Naxçıvan ərazisində fotoelektrik qurğusunun illik xüsusi elektroenerji hasilatı 246 kvt./saat m^2, Kür-Araz və Abşeron ərazisi üzrə isə 230 kvt./saat m^2 təşkil etməsi bu ərazilərdə gücü 100-500 kvt. olan və aşağı maya dəyərli avtonom günəş elektrik stansiyalarının qurulmasını mümkün edir [4].

Azərbaycanın Abşeron-Qobustan, Samur-Dəvəçi, Gəncə-Qazax, Ceyrançöl-Acınohur bölgələrində və Xəzər dənizinin sahil zonalarında küləyin orta illik sürətinin 4-8 m/san olması gələcəkdə bu ərazilərdə illik potensial istehsal gücü 800 MVT-yə çatan külək elektrik stansiyaları inşa etməklə 2,4 mlrd. kvt./saat elektrik enerjisi almaq mümkün olacaqdır [3]. Yaxın perspektivdə Qobustan ərazisində ümumi istehsal gücü 30 MVT olan (hər birinin gücü 2,5 MVT olan 12 külək enerji qurğusu) külək elektrik stansiyalarının quraşdırılmasına dair əsaslandırılma hazırlanmışdır [1]. Enerji daşıyıcılarının alınmasında, eləcə də istehsalatın və məişətin enerji ilə təminatında alternativ enerji ehtiyatlarından istifadə edilməsi sahəsində bir sıra işlər görülsə də (2011-ci ildə Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzində 2,7 MVT gücündə külək elektrik stansiyası; 1,8 MVT gücündə günəş elektrik stansiyası; 0,6 MVT gücündə bioqaz stansiyası quraşdırılmışdır), bu hələ də kifayət qədər yetərli deyildir.

Azərbaycan Respublikasında Abşeron yarımadası, Kür çökəkliyinin geniş əraziləri, Böyük və Kiçik Qafqaz, Talış dağları, Xəzərsahili-Quba zonaları proqnozlaşdırılmış ehtiyatı 245,6 min m^2/sutka təşkil edən geotermal sularla çox zəngindir. Geotermal su ehtiyatları Kiçik Qafqazın Tərtər və Arpaçay hövzələrində (temperatur 62-80^{0}C, sutkalıq debit 800-900 min m^3/sutka); Naxçıvan MR-in Darıdağ rayonunda (temperatur 41-52^{0}C, sutkalıq debit 1080-2850 m^3/sutka); Cənub bölgəsinin Lənkəran, Masallı, Astara rayonlarında (temperatur 35-50^{0}C, sutkalıq debit 2260-23625 m^3/sutka); Böyük Qafqazın Abşeron, Qax, Qəbələ, Quba, Xaçmaz rayonlarında (temperatur 50-95^{0}C, 100-135^{0}C sutkalıq debit 400-500 min m^3/sutka, hətta 2470 m^3/sutka) və Kür çökəkliyi vilayətində (temperatur 45-100^{0}C, sutkalıq debit 1000-2000 min m3/sutka) daha zəngindir [5].



Şəkil 2. Ümumi elektrik enerjisi istehsalında İES, SES və digər enerji mənbələrinin payı, mln.kvt./saat

Aparılmış tədqiqatlar göstərir ki, sənaye sahələrində istehsal nəticəsində əmələ gələn terrikon tullantılarının tərkibindəki biokütlələrdən bioqaz, biomaye və bərk biokütlələrin alınması mümkündür. Respublikada mövcud olan biomaddə mənbələrinə sənaye, kənd təsərrüfatı (üzvi birləşmə tullantıları), məişət və kommunal sahələrindən və eləcə də neft və neft məhsulları ilə çirklənmiş ərazilərdən alınan tullantıları misal göstərmək olar. Müəyyən olunmuşdur ki, təkcə neftlə çirklənmiş torpaq və su sahələrində əmələ gələn tullantılardan ekoloji baxımdan təmiz sayılan və yüksək istilik tutumuna malik biobriketlər hazırlamaqla, onlardan məişətdə, kommunal xidmət sahələrində, istixanalarda, zəif istehsal gücünə malik elektrik stansiyalarında istifadə etmək mümkündür.



Şək. 3. Ümumi elektrik enerjisi istehsalında İES, SES və digər enerji mənbələrinin payı, %-lə

Son illər aqrar-sənaye kompleksləri ətrafında bioenerjinin istehsalı və istixanaların alternativ istilik sistemləri ilə təchiz edilməsi layihələri üzrə araşdırmalar davam etdirilmiş, Hövsan Aerasiya Stansiyasında bərk tullantıların utilizasiyası nəticəsində bu enerjinin istehsalı üzrə potensial tərəfdaşlar arasında müzakirələr aparılmışdır.

2004-2008-ci illərdə "Regionların sosial-iqtisadi inkişafına dair" və 2005-2025-ci illərdə "Yanacaq Enerji Kompleksinin inkişafına dair" Dövlət proqramları respublikada elektrik enerjisinə artmaqda olan tələbatın ödənilməsi və təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında verilən sərəncamların icrası öz müsbət nəticəsini vermişdir. Belə ki, elektroenergetika sahəsində beynəlxalq standartlara uyğun qanunvericilik bazası formalaşdırılmış, mövcud elektrik stansiyalarının modernləşdirilməsi prosesi gücləndirilmiş, yenilərinin inşası ilə istehsal güclərinin artırılması mümkün olmuşdur.

Azərbaycan Respublikasının yanacaq-energetika sənayesinin mövcud maddi texniki bazası və elmi-texniki potensialının kifayət qədər olması iqtisadiyyatın bütün sahələrinin elektrik enerjisinə artmaqda olan tələbatını fasiləsiz ödəməklə yanaşı, ölkənin enerji təhlükəsizliyinin təmin edilməsinə əlverişli şərait yaradacaq və onun gələcəkdə də regionun ən mühüm energetika rayonlarından biri kimi qalacağına imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Abdullayev K.M., Lətifov Y.İ., Abdullayeva G.K. Enerji ehtiyatları, elektrik enerjisi istehsalı və ətraf mühit, Cild I. Bakı, 2005.
2. "Azərenerji" ASC-nin illik hesabatı. Bakı, 2012.
3. Nəbiyev N.Ə., Vəliyev N.A. Təbii sərvətlər və ekoloji mühit. Bakı, 1987.
4. Regionların sosial-iqtisadi inkişafı, 2009-2013-cü illər. ARDSK. Bakı, 2013.
5. Геология Азербайджана, Том VI. Полезные ископаемые. Баку, 2005.

РОЛЬ ЭЛЕКТРОЭНЕРГЕТИКИ В УСТОЙЧИВОМ РАЗВИТИИ РЕГИОНОВ АЗЕРБАЙДЖАНА

З.М.Мамедова

Статья посвящена нынешнему состоянию электроэнергетической промышленности, а также роли данной отрасли в социально-экономическом развитии регионов. Наряду с этим затронут вопрос определения путей рационального использования альтернативных и возобновляемых энергетических ресурсов.

THE ROLE OF POWER INDUSTRY IN SUSTAINABLE DEVELOPMENT OF REGIONS OF AZERBAIJAN

Z.M.Mammadova

The article is devoted to the current state of electric power industry, as well as the role of this industry in the socio-economic development of regions of Azerbaijan. The work also deals with the issue of finding ways on rational use of alternative and renewable energy resources in the country.

ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNDA KƏND TƏSƏRRÜFATININ SAHƏ STRUKTURUNUN DƏYİŞMƏSİ

Q.M.Ağabalayev

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115

Ölkədə aparılan aqrar islahatlar kənd təsərrüfatının sahə strukturunun dəyişməsinə böyük təsir göstərmiş, torpaqlardan istifadə edilməsi, becərilən kənd təsərrüfatı məhsullarının çeşidi dəyişmişdir. Torpaqlar şəxsi mülkiyyətə keçdikdən sonra çox gəlir gətirən sahələrin inkişafına üstünlük verilmişdir. Lakin bu sahələr emal sənayesinin yaradılmasına imkan vermir. Yüngül və yeyinti sənayesinin inkişafı təbii-coğrafi şəraitin daha çox gəlir götürməyə imkan verdiyi məhsulların yetişdirilməsindən asılıdır.

Şəki-Zaqatala iqtisadi rayonu ölkənin ən mühüm kənd təsərrüfatı regionlarından biridir. Bu sahənin inkişafı regionun iqtisadi potensialının güclənməsinə şərait yaradar.

Ölkədə aparılan iqtisadi islahatlar onun davamlı inkişafının təmin edilməsinə, təsərrüfatın sahə və ərazi strukturunun təkmilləşməsinə, ölkənin xarici bazardan asılılığının azaldılmasına, hazır məhsulların istehsalının artırılmasına, qeyri-neft sektorunun rolunun yüksəldilməsinə xidmət edir. Bu tədbirlər sırasında aqrar-sənaye kompleksində, onun inkişafı və strukturunun yenidən qurulması, təsərrüfatda rolunun yüksəldilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, məhsuldarlığın artırılması istiqamətində görülən işlər xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, ölkənin kənd təsərrüfatının inkişafı, onun səmərəli ərazi təşkili istiqamətində müəyyən problemlər qalır. Onların həll edilməsi üçün ciddi iqtisadi islahatlar aparılması ilə yanaşı, elmi-tədqiqat işlərinin də yerinə yetirilməsi zəruridir.

Şəki-Zaqatala iqtisadi rayonu ölkənin şimal-qərbində yerləşir. İqtisadi rayonun tərkibinə Balakən, Qax, Qəbələ, Oğuz və Şəki inzibati rayonları daxildir [1]. Onun sahəsi 8,4 min km^2, əhalisinin sayı 593,2 min nəfərdir (01.01.2014). 2013-cü ildə iqtisadi rayonda 1390,8 mln. manatlıq məhsul istehsal edilmişdir. Onun 74835 min manatını sənaye, 475492,1 min manatını kənd təsərrüfatı məhsulları təşkil edir. Ölkədə istehsal edilən ümumi məhsul istehsalının 2,1%-i, o cümlədən sənaye məhsullarının 0,2%-i, kənd təsərrüfatı məhsullarının 9,1%-i Şəki-Zaqatala iqtisadi rayonunun payına düşür [1, s. 40-41].

Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatı sahələrinin inkişafı üçün Baş Qafqaz silsiləsinin dağətəyi zonaları, Qanıx-Əyriçay vadisi və Acınohur öndağlığında əlverişli yerlərdən istifadə olunur. Burada kənd təsərrüfatının əsasını meyvəçilik, taxılçılıq, üzümçülük, ətlik-südlük və ətlik-yunluq istiqamətli qoyunçuluq təşkil edir. Vaxtilə bura respublikanın mühüm tütünçülük, baramaçılıq və taxılçılıq regionlarından biri olmuşdur [6].

Son illər rayonda aparılan torpaq islahatları ilə əlaqədar olaraq torpaq fondunun quruluşunda böyük dəyişikliklər olmuşdur. Hazırda rayonda olan kənd təsərrüfatına yararlı torpaqların 40%-dən çoxu bələdiyyələrin, 28,6%-i dövlətin və 29,1%-i isə şəxsi və fermer təsərrüfatlarının payına düşür. Torpaq fondunun quruluşunda kənd təsərrüfatına yararlı sahələr 44,1%, örüşlər 22,5%, meşələr 26,4% təşkil edir.

İqtisadi rayonda 207,9 min ha sahədə kənd təsərrüfatı bitkiləri əkilir [3, s. 210]. Taxıl və meyvə əkinləri daha geniş sahə tutur. Ölkədə aparılan aqrar islahatlardan sonra tütün və çay əkinləri xeyli azalmış, daxili istehlak xarakterli bitkilərin becərilməsinə maraq artmışdır.

Şəki-Zaqatalada son dövrlərdə əkinçilik kənd təsərrüfatının əsas inkişaf etmiş sahəsidir. Taxılçılıq onun tərkibində mühüm və aparıcı sahə olaraq qalır. 2013-cü ildə iqtisadi rayonda dənli və paxlalı bitkilərin əkin sahəsi 168,1 min ha təşkil etmişdir (cədvəl 1). 2005-ci ildən sonra keçən müddətdə onların sahəsi 41,3 min ha və ya 32,6% artmışdır. İqtisadi rayonda dənli bitki əkinlərinin əsas hissəsini buğda təşkil edir. Onların payına əkinlərin 105,3 min hektarı düşür. Regionda son vaxtlarda buğda əkinlərinin də sahəsi davamlı olaraq genişləndirilir. 2005-ci ildən sonra 19,6 min ha artmışdır.

Dənli və paxlalı bitkilər əkilən sahələrdən 479,4 min t məhsul toplanmışdır. O cümlədən bu sahələrdən 272,0 min t buğda yığılmış, məhsuldarlıq hər hektardan dənli və paxlalı bitkilər üzrə 28,6 sentner, buğda sahələrindən 25,9 sentner olmuşdur. İqtisadi rayonda həmçinin arpa, çəltik, qarğıdalı və digər yem bitkiləri də yetişdirilir. 2000-ci ildən başlayaraq Qəbələ, Oğuz, Şəki və Qaxda çəltik əkinləri genişləndirilmişdir.

İqtisadi rayonun kənd təsərrüfatında çoxillik əkinlər mühüm yer tutur. Çoxillik əkmələrin sahəsi davamlı olaraq artır. Onların arasında əhəmiyyətinə görə bağlar, üzümlüklər, çay plantasiyası və digər çoxillik əkinlər üstünlük təşkil edir. Aqrar islahatları aparılmasından sonra respublikada taxılçılığın, bostan-tərəvəz əkinlərinin genişlənməsi və məhsul yığımının artması ilə əlaqədar çoxillik əkmələrə xeyli ziyan dəymişdir. 1990-cı ildə respublikada üzüm bağlarının sahəsi 181,4 min ha olmuş, bu sahələrdən 1196,4 min t məhsul toplanmışdır. 2000-ci ildə bu göstəricilər 14,2 min ha və 76,9 min tona enmişdir. Son vaxtlarda üzüm əkinləri artsa da, zəif templə gedir [3, s. 104]. Ölkədə çay əkinlərinin sahəsi isə 1990-2010-cu illərdə 13,3 min ha-dan 0,6 ha-ya enmiş, məhsul yığımı 30,7 min ton-dan 0,54 min tona qədər azalmışdır [3, s. 107].

Respublikada olan meyvə bağları və giləmeyvəliklərin 26,3%-i, qərzəkli meyvəçiliyin 32,9%-i, üzüm bağlarının 8,1%-i, çay plantasiyalarının 6,6%-i iqtisadi rayonun payına düşür. İqtisadi rayon respublika üzrə meyvə istehsalının 12,6%-ni verir [3].

Cədvəl 1

Kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin dəyişməsi, ha

Məhsullar	2000	2005	2010	2013
Dənli bitkilər	95916	126776	158342	168104
Buğda	62252	85664	104451	105274
Dən üçün qarğıdalı	9766	12614	14507	18228
Tütün	7722	2764	1351	1215
Şəkər çuğunduru	-	-	-	179
Dən üçün günəbaxan	463	473	458	484
Kartof	2497	4485	4915	4920
Tərəvəz	4742	7403	7771	7738
Bostan bitkiləri	1799	2002	1956	1715
Meyvə və giləmeyvə	21706	25372	33970	35265
Üzüm	1081	753	1247	1301
Çay	-	60	60	60
Cəmi	**126950**	**155496**	**200806**	**207931**

Mənbə: Azərbaycanın regionları -2013. Bakı, DSK, 2014, s. 241-242.

Cədvəl 2

Kənd təsərrüfatı məhsulları istehsalı, ton

Məhsullar	2000	2005	2010	2013
Dənli və paxlalı bitkilər	173012	271162	318287	479393
Buğda	109772	162226	185444	271991
Dən üçün qarğıdalı	20153	54324	62257	94436
Tütün	16895	7100	3243	3452
Şəkər çuğunduru	-	-	-	2446
Dən üçün günəbaxan	528	387	413	609
Kartof	16253	39558	44923	45478
Tərəvəz	43562	71902	75522	78341
Bostan bitkiləri	15452	23381	24401	20358
Meyvə və giləmeyvə	50309	76939	95720	107601
Üzüm	4004	5497	8861	15486
Çay		51	66	54

Mənbə: Azərbaycanın regionları -2013. Bakı, DSK, 2014, s. 241-242.

Şəki-Zaqatalada 2013-cü ildə 35,3 min ha sahədə meyvə və giləmeyvə sahəsi olmuşdur. 2005-ci ildən sonra iqtisadi rayonda onların sahəsi 9,9 min ha artmışdır. Becərilən sahələrdən 2013-cü ildə 107,6 min t məhsul toplanmış, hər hektardan məhsuldarlıq 34,4 sentnerə çatır (cədvəl 2). 2005-2013-cü illərdə iqtisadi rayonda meyvə və giləmeyvə istehsalı 1,4 min ton və ya 4,1% artmışdır. Meyvəçilikdə məhsul istehsalının artırılması fəaliyyətini dayandırmış meyvə konserv zavodlarının bərpa edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, uzun illərdir onlar xammal mənbəyindən məhrum olmuşdur.

İqtisadi rayonda üzümçülük ixtisaslaşma sahəsi olmasa da, müəyyən sahələrdə əkilir və bu ərazilər getdikcə genişlənir. Son illərdə becərilən 1301 ha sahədən 15,5 min ton məhsul toplanmışdır. Üzümlüklərdə məhsulıdarlıq son vaxtlarda sürətlə artır. 2005-ci ildə bu göstərici 65,2 s/ha, 2013-cü ildə 125,8 s/ha olmuşdur.

Rayonun kənd təsərrüfatında tərəvəzçilik və bostançılıq mühüm yer tutur. 2005-2013-cü illərdə tərəvəz əkinləri 335 ha və ya 4,5% artmış, bostan əkinləri isə 287 ha azalmışdır. Müstəqilliyin ilk illərindən başlayaraq iqtisadi rayonda kartofçuluq inkişaf etməyə başlasa da, onun əkinləri və toplanan məhsulların həcmi zəif templə artır. 1995-ci ildə rayonda kartof əkinləri 48 ha olmuşdursa, 2000-ci ildə bu göstərici 2497, 2013-ci ildə artaraq 4,92 min ha təşkil etmişdir. Rayonda hər il 44-46 min ton kartof istehsal edilir.

Əkinçilikdə ikinci mühüm sahə texniki bitkilərin becərilməsidir. Bu sahədə tütünçülük mühüm yer tutur. 2005-ci ildən sonra tütün əkini sahələri 2764 ha-dan 1215 ha-ya qədər (2013) və ya 66%, onun istehsalı 7,1 min t-dan 3,5 min tona qədər və ya 51,4% azalmışdır. Respublikadakı tütün əkinlərinin və istehsalının hamısı iqtisadi rayonun payına düşür. İqtisadi rayonda "Samsun-155", iriyarpaqlılardan "İtiyarpaq 1519", "Zaqatala-67", "Hibrid-66" və "İmunni-580" növləri becərilir. "Trabzon" növü yerli təbii şəraitə uyğun olduğuna görə daha çox əkilir.

Texniki bitkilər arasında dən üçün günəbaxan istehsalı ikinci yeri tutur. Respublikada istehsal olunan günəbaxanın 13,7%-i Şəki-Zaqatalanın payına düşür. 2013-cü ildə dən üçün 609 ton günəbaxan istehsal edilmişdir.

Kənd təsərrüfatının ikinci mühüm sahəsi olan heyvandarlıq iqtisadi rayonda inkişaf etmişdir. Ərazinin subalp və alp çəmənlikləri, qışlaqlar, çoxillik yem bitkiləri və əlverişli təbii-iqlim şəraiti heyvandarlıq sahələrinin inkişaf etməsinə böyük imkanlar yaradır. Heyvandarlığın inkişafında böyük rol oynayan örüş sahələri 233,8 min ha, dincə qoyulmuş torpaqlar 2,3 min ha və biçənək sahələri 1,4 min ha təşkil edir. Regionda heyvandarlığın əsas sahələrinə maldarlıq, qoyunçuluq, quşçuluq və donuzçuluq aiddir. Uzun illər ərzində arıçılıq və baramaçılıq sahələri inkişaf etmiş sahələr sırasında olmuşdur. Lakin son vaxtlarda baramaçılıq tənəzzül etmişdir. Respublikada iribuynuzlu mal-qaranın 10,7%-i, o cümlədən inək və camışların 10,8%-i, qoyun və keçilərin baş sayının 9,9%-i bu iqtisadi rayonun payına düşür.

Heyvandarlıqda inkişaf etmiş sahələrdən biri maldarlıqdır. İribuynuzlu mal-qaranın sayı 288,7 min başdır. Onların da 48,8%-i (140,9 min baş) inək və camışların payına düşür [1, s. 242]. Rayonda camışçılığın inkişafı üçün əlverişli şərait vardır. Dağətəyi yaşayış məntəqələrində bu sahə yaxşı inkişaf etdirilmişdir.

2013-ci ildə iqtisadi rayonda qoyun və keçilərin sayı 853,1 min baş olmuşdur ki, bu da 2005-ci ilin müvafiq göstəricilərindən 141,7 min baş və ya 19,9% çoxdur. İqtisadi rayonda son illərdə donuzçuluq təsərrüfatının inkişafında geriləmə baş vermişdir. 2013-ci ildə regionda donuzların sayı 4000 baş olmuşdur. Bu isə 2005-ci il ilə müqayisədə 2,0 dəfə azdır. İqtisadi rayonda 1292,2 min baş quş saxlanılır.

Təsərrüfat quruluşunun dəyişməsi kənd təsərrüfatında məhsul istehsalının həcminin dəyişməsinə imkan yaratmışdır. Yem bitkilərinin və digər əkinlərin genişlənməsi heyvandarlığın yem bazasının inkişafına səbəb olmuşdur. 2013-cü ildə heyvandarlıq məhsulları kimi 19,9 min ton ət, 184,2 min ton süd istehsal edilmişdir. Bunlar da 2005-ci ilə nisbətən müvafiq olaraq 32,7% və 35,7% çoxdur.

Kənd təsərrüfatının olduqca gəlirli və ənənəvi sahəsi olan arıçılığın inkişafı bilavasitə regionun təbii şəraiti, torpaq-bitki örtüyü və landşaft xüsusiyyətlərindən asılıdır. Burada 12 mindən çox arı ailəsi vardır ki, bu da respublika üzrə 16% deməkdir. Rayonun kənd təsərrüfatından əldə olunan gəlirin 4%-ə qədəri arıçılığın payına düşür. Arıçılıqdan götürülən gəlir əsasən satış balı, yem ehtiyatı balı, arı ailəsi, beçə satışı və ya mum satışı üzrə toplanır.

Ədəbiyyat:

1. Azərbaycanın regionları -2013. Bakı: DSK, 2014, 778 s.
2. Azərbaycanın statistik göstəriciləri -2009. Bakı: DSK, 2010, 840 s.
3. Azərbaycanın kənd təsərrüfatı - 2013. Ваkı: ДSК, 2014, 662 c.
4. Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı (2008-2015). Bakı, 2008, 51 s.
5. Azərbaycanın sənayesi 2012. Bakı: DSK, 2013, 332 s.
6. N.Ə.Paşayev, N.H.Əyyubov, Z.N.Eminov. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı: Çıraq, 2010, 416 s.
7. Azərbaycanın əhalisi - 2013, Bakı: DSK, 2014, 109 s.
8. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). "Azərbaycan" qəz, Bakı, 2004, 13 fevral.
9. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. "Respublika" qəz, Bakı, 2009, 16 aprel.
10. Yeni iş yerləri. Statistik məcmuə. Bakı: ДSК, Yanvar 2014.

ИЗМЕНЕНИЕ ОТРАСЛЕВОЙ СТРУКТУРЫ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ШЕКИ-ЗАГАТАЛЬСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

Г.М.Агабалаев

Проведенные в стране экономические реформы оказали большое влияние на изменение отраслевой структуры сельского хозяйства, в результате которого изменились характер использования земель в посевных целях, а также ассортимент производимых сельхозпродуктов. После приватизации земель крестьяне предпочитают выращивание тех культур, которые приносят больше доходов. Производство более выгодных и производительных сельхозпродуктов, приспособленных к природно-географическим условиям, в последующем способствует развитию перерабатывающих отраслей, созданию новых рабочих мест, укреплению экономической базы населенных пунктов.

Шеки-Загатальский экономический район является одним из основных сельскохозяйственных регионов страны. Развитие этой отрасли способствует усилению экономического потенциала региона.

CHANGES İN THE BRANCH STRUCTURE OF AGRİCULTURE İN THE SHAKİ-ZAGATALA ECONOMİC REGİON

G.M.Aghabalayev

Economic reforms conducted in the country had a great influence on the branch structure of agriculture, as a result of which land use changed in character. Kinds of agricultural yields were increased as well. Following the privatization, farmers prefer growing more profitable crops. Production of products adapted to the natural and geographical condition, contributes to the development of processing industries, the creation of new jobs, and the strengthening of the economic base of settlements.

The economic region of Shaki-Zagatala is one of the main agricultural regions of the country. Development of the mentioned field of economy enhances the economic potential of this region.

İNFRASTRUKTUR SAHƏLƏRİNİN İQTİSADİ FUNKSİYALARI

M.M.Cəmşidi

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115

İstehsal sahələrinə və əhaliyə xidmət göstərən infrastruktur obyektləri ölkənin və onun ayrı-ayrı regionlarının inkişafına böyük təsir göstərir. Onun tərkibinə daxil olan sahələr təbii ehtiyatlar və təbii-coğrafi şəraitdən istifadə edilməsinə imkan verir, yaşayış yerlərində əhaliyə göstərilən xidmətlərin səviyyəsini müəyyən edir.

Nəqliyyat, enerji, istilik və su təminatı sistemləri istehsal sahələrinin səmərəliliyini, işçi qüvvəsindən istifadə edilməsini və ixtisaslaşmış müəssisələr yaradılmasını müəyyən edir. Ona görə infrastruktur obyektləri şəbəkəsinin müasir tələblər səviyyəsində qurulması zəruridir.

İnfrastruktur ölkənin təsərrüfat sisteminin dayaq karkasını yaradan və bir-birinə bağlı olan struktur elementlər sistemidir. İnfrastruktur şəbəkəsindən istifadə edilməsi istehsal və xidmət obyektlərinin fəaliyyətində əhəmiyyətli yer tutur. Əhaliyə sosial-mədəni xidmət göstərilməsində infrastruktur sahələrinin rolu böyükdür. Onların həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması, kəndlər və kiçik şəhərlərdən miqrasiyanın qarşısının alınması məhz bu sahənin inkişafından asılıdır.

İnfrastruktur şəbəkəsi və xidmət sahələri əhaliyə xidmət göstərmək, istehsal təyinatlı müəssisələrin fəaliyyəti və mövcud olması üçün çox vacibdir. Bu infrastruktur sahələrinin fəaliyyəti, göstərdiyi xidmətlərin keyfiyyəti və səmərəliliyi cəmiyyətdə iqtisadi və ticarət fəaliyyətinin davamlı olmasına, təsərrüfatın inkişafına, sağlam rəqabət mühitinin yaradılmasına və əhalinin həyat səviyyəsinin yüksəlməsinə, onun keyfiyyətinə təsir edir. Ölkənin təsərrüfat sistemində mühüm yer tutan istehsal və sosial infrastrukturu onun fəaliyyətini təmin edir, əhaliyə müxtəlif istiqamətli xidmətlər göstərilməsi həyata keçirilir. Bu sahəyə yönəldilən investisiyaların ümumi miqdarı onun fəaliyyətini təmin etməli, əhaliyə müxtəlif istiqamətli zəruri xidmətlərin göstərilməsinə və həyat şəraitinin standartlarının yüksəldilməsini təmin etməyə yetərli qədər olmalıdır. Bu ümumi vəsaitlərin məcmusu bir-biri ilə əlaqədə olan istehsal və xidmət sahələrinin, nəqliyyatın inkişafı, ölkənin təhlükəsizliyinin təmin edilməsi imkanlarını genişləndirir, əhaliyə xidmət göstərilməsi və rifahının yüksəldilməsi iqtisadi inkişafa şərait yaradır. İstehsal infrastrukturu şəbəkəsinə magistral yollar, körpülər, dəmir yolları, istehsal edilən məhsulların və sərnişinlərin daşınması üçün quru yolları, tranzit yolları, eyni zamanda, kommunikasiya şəbəkəsi, su xətləri şəbəkəsi və su anbarları təminatı, su bəndləri, dənizlərdə istifadə edilən tranzit yolları və limanlar daxildir. Bu sahə həmçinin elektrik, təbii qaz və enerji istehsalı mərkəzlərini və təminat xətlərini əhatə edir.

İnfrastruktur şəbəkəsi iqtisadi artıma və istehsal edilən məhsulların miqdarının artmasına aşağıdakı istiqamətlərdə müsbət təsir göstərir. İnfrastruktur şəbəkəsi müxtəlif təyinatlar üzrə məhsullar istehsal edilməsinə və xidmətlər göstərilməsinə şərait yaradır, bu sahələrin müəssisələrinin fəaliyyətini təmin edir. Həmçinin istehsal olunmuş məhsulların maya dəyərinin formalaşmasını müəyyənləşdirir, xeyli miqdarda insanın iş yerləri ilə təminatına yardım edir. Təbii qaz, su, elektrik enerjisi ilə təminat infrastruktur şəbəkəsinin məhsulları sırasına daxildir, onlarla istehsala şərait yaradır. İnfrastruktur şəbəkəsi, həmçinin birbaşa bir vasitə kimi, ərazidə istehsalın yerləşməsini müəyyən edir, işçi qüvvəsinin və yatırılan sərmayələrin səmərəliliyini yüksəldir.

Nəqliyyat infrastrukturu. Yüksək inkişaf səviyyəsinə malik olan regionlarda və ölkələrdə nəqliyyat davamlı və tarazlı inkişafın əsas dayaqlarından biri hesab edilir. Nəqliyyat şəbəkələri iqtisadi inkişaf, təhlükəsizlik və sosial ədalət kimi mühüm parametrlər ilə sıx əlaqədədir. Müasir dövrün məşhur iqtisadçılarından biri Lester Tasron nəqliyyat-kommunikasiya, elmi-tədqiqat və təhsilin keyfiyyətinin inkişafı, işçi qüvvəsinin ixtisas-peşə və təhsil səviyyəsini hər bir ölkənin inkişaf etməsi üçün əsas olan üç zəmin hesab etmişdir.

Nəqliyyatın, o cümlədən quru, dəniz və hava nəqliyyatı şəbəkəsinin fəaliyyəti və göstərdiyi xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istehsal xərclərinin azaldılması və malların mübadiləsinin sürətləndirilməsi üçün lazımi iqtisadi şəraiti yaradır. Bu sahələr təsərrüfat strukturunda zəif mövqeyə və aşağı səviyyəli paya malik olan iqtisadi fəaliyyət növlərini iqtisadi cəhətdən fəallaşdıraraq mənfəətvermə səviyyəsinə çatdırır [1]. Nəqliyyat şəbəkəsinin əhəmiyyəti və iqtisadi artıma olan təsir mexanizmini aşağıdakı formalarda izah etmək olar:

- Nəqliyyat sisteminin müasir dövrün tələbləri səviyyəsində qurulması, bu sahələrdə yeni texniki vasitələrin və texnologiyaların tətbiq edilməsi və güclü iqtisadi potensialın olması müxtəlif sektorların tarazlı inkişafında strateji rola malikdir. Nəqliyyat şəbəkəsinin güclü texniki-iqtisadi potensialı və sürətli olması regional inkişafın həyata keçirilməsi və bura investisiya yatırımlarının artırılması üçün daha böyük imkanlar yaradır.

- Nəqliyyat xərclərinin aşağı olması onun maddi-texniki təminatından, sektorun göstərdiyi xidmətlərin səviyyəsi və inkişafından asılıdır. Nəqliyyatın yüksək inkişafı iqtisadi fəaliyyət sahələrinin təmərküzləşməsinə səbəb olur. Halbuki nəqliyyat xərclərinin yüksək olması iqtisadi fəaliyyət sahələrinin pərakəndəliyinə gətirib çıxarır.

- Nəqliyyat sahəsi zaman baxımından daşınma vaxtının və xərclərinin azalmasına, bu sahədə daha çox təhlükəsizliyin yaranmasına, sərnişin və malların daha ucuz və sürətli daşınmasına imkan verir. Onun fəaliyyəti xammal və yarımfabrikatların, istehsal olunan əmtəələrin daşınma xərclərini də azaldır.

Yüksək buraxıcılıq qabiliyyətina malik olan nəqliyyat şəbəkəsi istehsal edilən məhsulların xarici ölkələrə tranzitinə zəmin yaradır. Bunun nəticəsində əlaqələrin genişlənməsi ilə eyni vaxtda milli gəliri artırır, regional inkişafa səbəb olur. Bunlar dolayı olaraq nəqliyyat sahələrində də gəlirlərin artmasına imkan verir, bu sahənin inkişafına, daha sıx şəbəkənin yaradılmasına, göstərilən xidmətlərin artmasına gətirib çıxarır.

- Nəqliyyatın inkişafı ticarət və müxtəlif məqsədlər üçün həyata keçirilən səfərlərin birbaşa xərclərini, həmçinin müştərilərə göstərilən xidmətlərin xərclərini azaldır. Belə vəziyyət müəssisələrin daha səmərəli fəaliyyətinə və daha çox mənfəət götürülməsinə səbəb olur.

- Beynəlxalq ticarət sistemində, bir tərəfdən, nəqliyyat xərclərindəki müxtəliflik beynəlxalq bazarlarda ölkələrin rəqabət gücünün fərqli olmasına gətirib çıxarır, digər tərəfdən, investisiyaların qoyulması nəqliyyat xərclərini azaldaraq ticarət sahəsində imkanları artırır [2].

Nəqliyyatın göstərdiyi xidmətlərin, daşınan yüklərin həcmi və sərnişinlərin sayı ilə iqtisadi fəaliyyət və iqtisadi inkişaf səviyyəsi arasında sıx əlaqə və asılılıq mövcuddur. Belə ki, müxtəlif ölkələrdə də iqtisadi inkişafın müxtəlif mərhələlərinin nəqliyyat xidmətlərinin imkanları ilə müqayisəsi bu əlaqəni təsdiqləyir [6].

Energetika infrastrukturu. Beynəlxalq miqyasda sənayeləşmiş ölkələr dünyada elektrik enerjisi istehsalında aparıcı mövqe tutur. Eyni zamanda, bu qrup ölkələr əsas enerji istehlakçıları hesab edilir. Onlar iqtisadi sistemin yüksək səviyyəsini saxlamaq və davamlı inkişafa keçid üçün elektrik enerjisi istehsalını daim artırır.

Problemin aradan qaldırılması üçün ölkələrdə az enerjitutumlu istehsal texnologiyası tətbiq edilir, məhsul vahidinə sərf edilən elektrik enerjisinin miqdarı davamlı olaraq aşağı salınır. Digər tərəfdən, inkişaf etməkdə olan bir çox ölkələrin, o cümlədən İran İslam Respublikasının iqtisadi inkişafını təmin etmək və sənaye məhsulları istehsalının artım prosesini sürətləndirmək, elektrik enerjisi istehsalına qoyulan sərmayələrin həcmini davamlı olaraq yüksəltmək üçün valyuta qoyuluşuna möhtacdırlar. Bu sahədə çalışan mühəndis-texniki işçilər hazırlamaq, yeri gəldikcə bu sahəyə xarici investorlar cəlb etmək lazım gəlir. Bu tələbat enerji sektorunda dövlət və şəxsi investisiyaların qoyulması yolu ilə təmin edilir. Çünki energetika sahəsinə qoyulan investisiyaların artması ilə elektrik enerjisi tələblərinin təmin edilməsindən başqa, onun ixracının artması mümkün olur.

Berdet, Vud və Denison kimi neoklassik iqtisadçıların fikrinə görə, elektrik enerjisi istehsalının və bu sahəyə qoyulan sərmayələrin artırılması, işçi qüvvəsindən istifadə edilməsi və sərmayə qoyuluşunun həcminə təsiri vasitəsilə iqtisadi artıma birbaşa deyil, dolayı yolla təsir edilir [8].

Digər tərəfdən, Pindekin fikrinə görə, sənaye sahələrində elektrik enerjisi bir xidmət göstərən vasitə kimi istifadə edilir. Bu zaman sərf edilən elektrik enerjisinin qiymətlərinin artması nəticəsində istehsal prosesində enerji məsrəfinin azalması istehsalın imkanlarına və məhsulların miqdarına təsir edəcəkdir. Onun fikrinə görə, əgər istehsala qoyulan əlavə sərmayə və işçi qüvvəsi azaldılan elektrik enerjisini əvəz etsə, enerji məsrəfinin azalması sərmayə və əmək amillərinin istifadəsinin yüksəlməsinə səbəb olar. Bu zaman istehsal amillərinə aid funksiyalar və nisbətlər dəyişər, istehsal prosesində əməkçilərin və yatırılan sərmayələrin nisbi payı artar [7].

Energetika və elektrik enerjisindən istifadə edilməsi üzrə mütəxəssislər iqtisadi artım ilə elektrik enerjisi arasında əlaqəyə aid iki fərqli baxışa malikdirlər. Onlardan bir qrupunun fikrinə əsasən, energetika təsərrüfatı istehsal prosesində mühüm və ilkin mənbə hesab edilir. Bu nəzəriyyəyə əsasən, iqtisadi artıma nail olmaq üçün elektrik enerjisi çatışmazlığı məhdudlaşdırıcı amil rolunda çıxış edir. Digər qrup mütəxəssislərin fikrinə əsasən, elektrik enerjisi iqtisadi artım prosesində aparıcı təsirə malik olmur.

Beləliklə, iqtisadi inkişafın yüksək mərhələsində təsərrüfatın strukturuna daxil olan sahələrin inkişaf istiqaməti daha çox xidmət sahələrində müşahidə olunur. Bu sektor daha az enerji işlədir [5].

Kommunikasiya infrastrukturu. XX əsrin ikinci yarısında ETT-in yüksək pilləyə çatması ilə sənayenin təsərrüfat sistemində aparıcı rolu azalmışdır. Sürətli elmi-texniki dəyişikliklər bu prosesin hərəkətverici qüvvəsi hesab edilir. Birincisi, kompüter texnologiyasının yaradılması, onların təsərrüfat obyektlərində istifadə edilməsi, geniş tətbiqi və bazara daxil olması, sonra isə informasiya və kommunikasiya sahəsindəki dəyişən proseslərdə kommunikasiya texnologiyasının tətbiqi dünya informasiya-kommunikasiya şəbəkəsi və internetin əmələ gəlməsinə səbəb olmuşdur. Məlumatların ötürülməsinin asanlaşması, çoxsaylı məlumatların sürətli təhlili bu sahədə göstərilən xidmətlərin vacibliyi ölkələr arasında əlaqələrin genişlənməsinə imkan vermişdir. Bu sahədə nisbi qiymətlərin sürətlə azalması, qloballaşma, səmərəliliyin artması ilə birgə bu texnologiyalar məlumatların asan nəql edilməsinə imkan verən informasiya və kommunikasiya sistemlərinin tətbiqi əsasında mümkün olur [10].

Ümumiyyətlə, rabitə-kommunikasiya infrastrukturuna investisiyaların qoyulması iqtisadi artıma bir neçə cəhətdən təsir edir. Bir tərəfdən, rabitə-kommunikasiyanın strukturlarına birbaşa investisiyaların qoyulması iqtisadi artıma səbəb olur. Bu halda kommunikasiya şəbəkəsinə daxil olan sahələrə investisiyaların qoyulması infrastruktur şəbəkəsinin genişləndirilməsi və inkişaf etdirilməsi üçün lazım olan mallar və xidmətlərə tələb yaradır. Bunun nəticəsində bu məhsulların istehsalı və xidmətlərin göstərilməsi sənayenin artmasına səbəb olur. Digər tərəfdən, başqa sahələrdəki investisiyalarla müqayisədə rabitə-kommunikasiya sahələrinə daxil olan infrastruktur şəbəkəsinə investisiyaların qoyulması iqtisadi səmərəliliyi yüksəldir və kapitalın qayıtması müddəti xeyli azalır. Məsələn, rabitə-kommunikasiya xidmətinin yaxşılaşması mübadilə xərclərini, o cümlədən sifarişvermə, informasiyanın axtarışı və toplanması müddətini azaldır və ticarət xərclərinin azalmasına səbəb olur. Bunun nəticəsində iqtisadiyyatın müxtəlif sektorlarında istehsal artır, həmçinin rabitə-kommunikasiya vasitələrinin uzaq məsafələrdən idarəetmə qabiliyyətini artırır.

Əlbəttə, rabitə şəbəkəsinin əhəmiyyəti istehsal və xidmət göstərilməsi prosesində informasiyanın əhəmiyyəti çoxaldığı zaman daha çox nəzərə çarpır və rabitə şəbəkəsinin yayılması, əhatə dairəsinin genişlənməsi xərclərdə və sərf olunan elektrik enerjisində əlavə sərfiyyata səbəb olur [6].

Beləliklə, rabitə-kommunikasiya şəbəkəsinin genişlənməsi daha çox informasiya əldə edilməsinə və təhlilinə xidmət edərək bazarın səmərəliliyini artırır. Tez əldə edilən informasiya rəqabət şəraitinin göstəricilərindən biridir. Belə vəziyyət iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltmək istiqamətində tədbirlərə, sahənin inkişaf etməsinə səbəb olur.

Nəticə. İnfrastruktur sahələrinin müasir tələblər səviyyəsində inkişafı və sıx şəbəkəsi ölkənin davamlı inkişafının təmin edilməsi üçün vacib amillərlərdən biridir. İstehsal infrastrukturu sahələrinə aid olan nəqliyyat, energetika, anbarlar, kommunikasiya sahələrinin fəaliyyəti digər təsərrüfat sahələrinin inkişafını təmin edir, eyni zamanda, əhalinin iş yerləri ilə təminatına xidmət edir.

Ədəbiyyat:

1. Bourrieres Paul. “Transportation Economic in Growth Programs”, Translated by Behnia, Abulhassan. Shiraz: Pahlavi University. 1958, p. 187.
2. Bougheas C. S, O. D, Edgar and L. W, Morgenroth. “Infrastructure, Transport Costs and Trade”, Journal of International Economics. 47, 1999, pp. 169–189.
3. Development, September, Journal of Economic Literature, 2008, 46, pp. 607-668.
4. Douglas, R. B. “On the Macroeconomic Effects of Energy”, Resource and Energy, 1991, Vol. 13, pp. 148-163.
5. Ghali Khalifa. H. “Energy Use and Output Growth in Canada: a MultivariateCointegration Analysis”, Energy Economics. 2004, 26, pp. 225–238.
6. Owen Wilfred. “Transportation and Economic Development”, The American Economic Review, 1985, Vol. 49, No. 2, pp. 179-187.
7. Pindyck R. S. “The Structure of World Energy Demand”, MIT Press. 1979, pp 208.
8. Stren D. I. “Energy and Economic Growth in the U.S.A.: A Multivariate Approach ”. Energy Economics. 1993, No. 15, pp. 37-150.
9. Takahashi Takaaki. “Economic Geography and Endogenous Determination of Transport Technology”, Journal of Urban Economics, 60. 2006, pp. 498–518.
10. Jorgenson Dale W. “Information Technology and Growth”, American Economic Review. 2001, 892, pp. 109-131.

ЭКОНОМИЧЕСКИЕ ФУНКЦИИ ИНФРАСТРУКТУРНЫХ ОТРАСЛЕЙ

М.М.Джамшиди

Инфраструктурные объекты, обслуживая отрасли производства и населения, служат стимулом развития страны и ее отдельных регионов. Эти отрасли позволяют использовать природные ресурсы и при-

родно-географического условия и определяют уровень обслуживания населения на местах проживания.

Развитие транспортной, энергетической, тепло- и водопроводной инфраструктуры оказывает влияние на эффективность производимой продукции, использование рабочей силы и создание более специализированных предприятий. Поэтому видится необходимым создание сети инфраструктурных объектов, отвечающих современным требованиям.

ECONOMİC FUNCTİONS OF FİELDS OF İNFRASTRUCTURE

M.M.Jamshidi

Infrastructural facilities are serving industries and population, and therefore, are stimulating the development of the country and its regions. These industries allow to use the natural resources, as well as the natural and geographical conditions. They also contribute the level of services, rendered to population.

Development of transport-, energy-, heat- and water supply infrastructure has an impact on the efficiency of production, the use of manpower, and also the creation of more specialized companies. Therefore, it seems necessary to create a network of infrastructure, meeting modern requirements.

ƏHALİ COĞRAFİYASI

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA MİQRASİYA PROSESLƏRİ

Z.N.Eminov, V.Z.Abbasova

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115

Əhalinin miqrasiyası siyasi, iqtisadi, sosial, demorqafik və s. proseslər nəticəsində baş verir, az vaxtda ölkənin və onun regionlarının demoqrafik vəziyyətinə ciddi təsir göstərir. Ona görə miqrasiya proseslərinin nizamlanması, onun ölkənin inkişafına, demoqrafik təhlükəsizliyinə uyğun idarə edilməsi vacib vəzifə kimi qarşıda durur.

Müstəqilliyin ilk illərindən müşahidə edilən iqtisadi çətinliklər, milli münaqişələrin gərgin xarakter alması respublikada miqrasiya intensivliyinin artmasına səbəb olmuşdur. Bu dövrdə şəhər əhalisinin miqrasiya axını güclü olmuşdur. Bu axın əsasən ölkədən kənara yönəlmişdir.

Son vaxtlarda həyata keçirilən iqtisadi və sosial islahatlar xarici miqrasiyaları azaltsa da, əhalinin Abşeron regionunda toplanması davam edir. Bu isə digər regionların inkişafını ləngidir. Məqalədə ölkədə baş verən miqrasiya prosesləri təhlil olunur, onların nizamlanması istiqamətində təklif və tövsiyələr verilir.

Əhalinin məskunlaşması təbii-coğrafi və sosial-iqtisadi amillərin təsiri ilə formalaşır və inkişaf edir. Təbii-coğrafi amillər yaşayış məntəqələrinin planlaşma strukturuna, məskunlaşma ərazisinin genişlənməsinə, ətraf ərazilərdə kənd təsərrüfatı məhsullarının becərilməsi və ixtisaslaşma istiqamətlərinə, istirahət-turizm mərkəzlərinin yaradılmasına, məntəqələrin və təsərrüfat sahələrinin şirin su ehtiyatları ilə təminatına, sututumlu sahələrin inkişafına təsir göstərir.

Bununla yanaşı, məskunlaşma sisteminin formalaşması və sosial-demoqrafik inkişafında iqtisadi amillər həlledici təsirə malikdir. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi şəraitində demoqrafik göstəricilər, ilk növbədə, miqrasiya prosesləri nizamlanır. Əhalinin miqrasiyası məskunlaşma sahələrində iqtisadi və sosial-demoqrafik inkişafın əsas göstəricisidir. Ona görə ki, digər demoqrafik göstəricilərə nisbətən miqrasiya daha az vaxtda əhalinin sayının, cins-yaş və milli tərkibinin dəyişməsinə təsir göstərir.

İqtisadi və sosial-mədəni baza miqrasiya axınlarının istiqamətlərini müəyyən edən əsas amildir. İş yerləri ilə təminat, yaşayış məntəqələrinin inkişaf perspektivləri, mənzillərlə təminatın müasir vəziyyəti, sosial-mədəni xidmətlərin göstərilməsi miqrasiya proseslərinə ciddi təsir göstərir.

Şəhər və kəndlərdə məskunlaşmanın inkişaf səviyyəsində, demoqrafik göstəricilərin dinamikasında, əhaliyə sosial-mədəni xidmətlərin göstərilməsində, təsərrüfat və məşğulluq strukturunda olan fərqlər miqrasiyanı doğuran əsas amillər sırasındadır. Uzun illər kənd əhalisi arasında müşahidə edilən yüksək təbii artım, mənzil, iş yerləri, sosial-mədəni xidmətlərin göstərilməsində mövcud olan fərqlər nəticəsində əhalinin kəndlərdən miqrasiya axınları olmuşdur. Onların xeyli hissəsi şəhərlərdə, əsasən də, Abşeron regionunda və iri sənaye mərkəzlərində cəmlənmişdir.

Lakin şəhərlərin sosial-iqtisadi bazasının zəif olması, iş yerlərinin azlığı, sosial-mədəni xidmət obyektləri şəbəkəsinin dövrün tələblərindən geri qalması yerli demoqrafik potensialın qəbul edilməsində problemlərə səbəb olmuşdur. Buna görə inzibati rayon mərkəzi funksiyasını yerinə yetirən şəhər və qəsəbələrdə əhalinin sayı zəif templə artmışdır. Hətta onların bir çoxunda təbii artım hesabına çoxalan əhalinin də xeyli hissəsi kənarlara köçüb getmişdir.

Respublikanın regionlarında şəhər və qəsəbələrin əksəriyyətinin iqtisadi bazasını kənd təsərrüfatı məhsullarının ilkin və sonrakı emalını həyata keçirən müəssisələr təşkil etmişdir. Lakin onlar heç də bütün məntəqələrdə fəaliyyət göstərməmiş, gücü az olmuşdur. Mövcud emal müəssisələrinin az bir hissəsi xammal və yarımfabrikatları son məhsula qədər emal etmək imkanına malik olmuşdur. Ona görə formalaşan iqtisadi baza yerlərdə əmək ehtiyatlarını iş yerləri ilə tam olaraq təmin edə bilmir, yenilərinin açılması zəif templə gedir, sayı azdır.

Regionlarda yaradılmış sosial infrastruktur obyektlərinin fəaliyyətində üzləşilən problemlər uzun illər ərzində bu sahəyə ayrılan vəsaitlərin aşağı səviyyəsi və onların zəif mənimsənilməsinin nəticəsidir. Ona görə, ilk növbədə, əhalinin mənzil şəraitində, mənzil ilə təminatda problemlər hələ də ciddi şəkildə qalır, əhaliyə gündəlik xidmət göstərən müəssisələr şəbəkəsi seyrək olduğuna görə onların fəaliyyəti zəifdir.

Yaranmış vəziyyət regionlarda məskunlaşma sisteminin formalaşması və inkişafında əsas maneə olaraq qalmışdır. Məskunlaşmanın iqtisadi və sosial bazasının zəif olması onun demoqrafik potensialının da artmasına imkan verməmişdir. Kəndlərdən olan miqrasiya axınının intensiv getməsi ilə əlaqədar burada demoqrafik potensial zəifləyir.

Əhalinin təbii artımının miqrasiya göstəriciləri ilə müqayisəli təhlili əsasında müəyyən edilmişdir ki, 1970-1980-ci illərdə kəndlərdə təbii artım azalmış, miqrasiyanın illik saldosu -20-35 min nəfər olmuşdur. Şəhərlərdə təbii artımın yüksək olması ilə yanaşı (ildə 45-55 min nəfər), kəndlərdən miqrasiya edənlərin xeyli hissəsi (ildə 20-30 min nəfər) şəhərlərdə toplanmışdır. Nəticədə şəhərlərdə əhalinin sayının illik artımı 60-75 min nəfər, kəndlərdə 35-40 min nəfər olmuşdur [7, s. 29].

1980-1990-cı illərdə təbii artım yüksəlmiş, kəndlərdə miqrasiya saldosunun illik qiyməti -25-35 min nəfər qeydə alınmışdır. Lakin onların az bir hissəsi şəhərlərdə qalmış və respublikanı tərk etmişdir. 80-ci illərin sonunda regionda milli münasibətlərin gərginləşməsi, rusdilli əhalinin əsasən şəhərlərdə yaşaması buradan əhalinin kütləvi şəkildə köçüb getməsinə və şəhər əhalisinin sayının zəif artmasına səbəb olmuşdur. 1990-cı ildə miqrasiya hesabına əhalinin sayı 53,6 min nəfər azalmışdır. Həmin ildə respublikanı 137,9 min nəfər tərk etmiş, ölkəyə 84,3 min nəfər gəlmişdir [6, s. 43].

Cədvəl 1

Azərbaycanda əhalinin miqrasiya göstəriciləri, min nəfər

İllər	Ölkəyə gələn	Ölkədən gedən	Miqrasiya artımı	O cümlədən		İllər	Ölkəyə gələn	Ölkədən gedən	Miqrasiya artımı	O cümlədən	
				Şəhərlərdə	Kəndlərdə					Şəhərlərdə	Kəndlərdə
1991	66,3	106,4	-40,1	-39,4	-0,7	1996	5,8	13,2	-7,4	-7,2	-0,2
1992	35,7	49,9	-14,2	-13,8	-0,4	1997	7,5	15,7	-8,2	-8,1	-0,1
1993	16,3	28,5	-12,2	-11,9	-0,3	1998	5,4	10,5	-5,1	-5,1	-0,1
1994	8,6	19,6	-11,0	-10,8	-0,2	1999	4,8	9,1	-4,3	-3,5	-0,8
1995	6,2	16,0	-9,8	-9,5	-0,3	2000	4,4	9,9	-5,5	-5,0	-0,5
Cəmi	133,1	220,4	-87,3	-85,4	-1,9	Cəmi	27,9	58,4	-30,5	-28,8	-1,7

Cədvəl "Azərbaycanın demoqrafik göstəriciləri – 2007. Bakı: DSK, 2008" statistik məcmuəsi əsasında (səh. 393) tərtib edilmişdir.

XX əsrin 80-90-cı illərindən başlayaraq Cənubi Qafqazda cərəyan edən ictimai-siyasi gərginlik, iqtisadi böhran, əhalinin həyat şəraitinin pisləşməsi, onun sosial müdafiəsi və məşğulluğu sahəsində yaranan problemlər, milli münaqişələrin yer alması və respublikanın müharibə şəraitinə düşməsi əhalinin miqrasiya intensivliyini artırmışdır. Nəticədə respublikada uzun illərdir ki, mənfi miqrasiya saldosu müşahidə olunur. Belə ki, 1991-1995-ci illərdə respublika üzrə miqrasiya saldosu -250,5 min nəfər təşkil etmişdir (şəkil 1). Onun əsas hissəsi şəhər əhalisinin payına düşür. Məhz bu dövrdə şəhərlərdə yaşayan ermənilər, ruslar, yəhudilər ölkəni tərk etmişdir. Sonrakı dövrlərdə əhalinin miqrasiya intensivliyi azalmış, o, əsasən yerli əhalinin xarici miqrasiyası ilə təmsil olunmuşdur. Ona görə 1996-2000-ci illərdə ölkə üzrə miqrasiya saldosu -83,1 min nəfərə, 2001-2005-ci illərdə -10,4 min nəfərə enmişdir [7]. Bu dövrdə təbii artımın da xeyli aşağı düşməsi əhalinin sayının azalmasına gətirib çıxarmışdır. 1991-1995-ci illərə nisbətən 1996-2000-ci illərdə təbii artım 214,8 min nəfər və ya 35,9% az olmuşdur.



Şəkil 1. Azərbaycanda əhalinin təbii və miqrasiya artımı, 1990-2010-cu illər

1990-2000-ci illərdə təbii artımın azalması ilə yanaşı, şəhər əhalisinin miqrasiyası da artmışdır. Rusdilli əhalinin ölkəni tərk etməsi nəticəsində miqrasiya intensivliyi ən yüksək səviyyədə olmuşdur. 1991-1995-ci illərdə miqrasiya saldosu -87,3 min nəfər təşkil etmişdir. Bu dövrdə şəhərlərdə təbii artımın 27,4 min nəfər və ya 41,5% aşağı enməsi ilə əlaqədar şəhər əhalisi 1986-1990-cı illərə nisbətən 1,5 dəfə az artmışdır. 90-cı illərdə kəndlərdə miqrasiya aşağı səviyyədə olmuşdur (cədvəl 1).

2000-ci ildən sonrakı dövrdə ölkədə demoqrafik vəziyyətdə sabitlik yaranmışdır. 2001-2005-ci illərdə kənd əhalisi miqrasiya hesabına 110,8 min nəfər azalmış, şəhər əhalisi 100 min nəfərdən çox artmışdır. Kəndlərdə yüksək miqrasiya nəticəsində təbii artımın yarısı səviyyəsində artım olur.

Son illərdə ölkədə aparılan iqtisadi islahatlar, iri layihələrin həyata keçirilməsi, regionların sosial-iqtisadi inkişafı sahəsində görülən tədbirlər və nəticədə yeni iş yerlərinin açılması əhalinin miqrasiya intensivliyini azaltmaqla yanaşı, ölkəyə gələnlərin də sayını artırmışdır. Məhz bunun nəticəsində 2006-2010-cu illərdə miqrasiya saldosu 1900 nəfər təşkil etmişdir və ölkəyə gələnlərin sayı getdikcə artır (cədvəl 2). Son illərdə ölkəyə gələnlərin sayı artmaqda davam edir, lakin təbii artım getdikcə azalır.

Cədvəl 2

Azərbaycanda əhalinin təbii və miqrasiya artımı

İllər	Təbii artım	Miqrasiya saldosu	Ümumi artım
1991-1995	597,9	-250,5	347,4
1996-2000	383,1	-83,1	300,0
2001-2005	365,8	-10,4	355,4
2006-2010	506,1	1,9	508,0
2011-2014	474,8	7,1	481,9

Cədvəl "Azərbaycanın demoqrafik göstəriciləri – 2014. Bakı: DSK, 2015" statistik məcmuəsi əsasında (səh. 393) tərtib edilmişdir.

Cədvəl 3

Abşeron iqtisadi rayonunda əhalinin təbii və miqrasiya artımları, min nəfər

İnzibati ərazilər	2001-2005			2006-2010		
	Təbii artım	Miqrasiya saldosu	Ümumi artım	Təbii artım	Miqrasiya saldosu	Ümumi artım
Bakı şəhəri ə/d	61,0	5,3	66,3	104,4	114,4	218,8
Sumqayıt şəhər ə/d	10,3	-2,8	7,5	15,6	4,8	20,4
Abşeron rayonu	3,8	5,1	8,9	6,2	93,5	99,7
Xızı rayonu	0,5	0,2	0,7	0,7	0,3	1,0
İqtisadi rayon	75,6	7,8	83,4	126,9	213,0	339,9

Cədvəl "Azərbaycan Respublikası əhalisinin 2001-2010-cu illərdə sayı və təbii hərəkəti. Bakı: DSK, 2002-2011" statistik məcmuələri əsasında tərtib edilmişdir.



Şəkil 2. Abşeron iqtisadi rayonunda əhalinin təbii və miqrasiya artımları, 2001-2005



Şəkil 3. Abşeron iqtisadi rayonunda əhalinin təbii və miqrasiya artımları, 2006-2010

Miqrasiyanın regional xüsusiyyətlərinin tədqiqi göstərir ki, əvvəlki dövrlərdə olduğu kimi, hazırda da ölkə əhalisinin Abşeronda cəmlənməsi davam edir. Lakin əvvəlki dövrlərdən fərqli olaraq Bakı şəhərindən kənarda və Abşeron inzibati rayonunda məskunlaşan əhalinin sayı sürətlə artır. Bakı şəhərinin ətrafında bütöv bir məskunlaşma arealı yaranmışdır. Bu gün iqtisadi rayonda və ayrı-ayrı qəsəbələrdə məskunlaşan əhalinin sayı tam məlum deyil (cəd. 3 və 4, şək. 2 və 3).

Son illərdə Abşeron iqtisadi rayonuna gələn əhalinin sayı kəskin şəkildə azalmışdır. Regionlarda iqtisadi islahatların genişlənməsi ilə yanaşı, onların demoqrafik potensialının miqrasiya imkanları da məhdudlaşmışdır. Ona görə Abşerona gələn insanların sayı kəskin şəkildə aşağı düşür. Miqrasiya saldosunun və əhalinin ümumi artımının dəfələrlə azalması əhalinin sayının artımına da öz mənfi təsirini göstərir (cədvəl 4).

Cədvəl 4

Abşeron iqtisadi rayonunda əhalinin təbii və miqrasiya artımları, min nəfər

İnzibati ərazilər	2011-2014		
	Təbii artım	Miqrasiya saldosu	Ümumi artım
Bakı şəhəri ə/d	100,2	11,6	111,8
Sumqayıt şəhər ə/d	16,7	1,4	18,1
Abşeron rayonu	6,7	3,2	9,9
Xızı rayonu	1,1	-0,1	1,0
İqtisadi rayon	124,7	16,1	140,8

Regionun sosial, demoqrafik, ekoloji, mənzil təminatı problemləri öz həllini hələlik tam olaraq tapmamışdır. Nəticədə Abşeron demoqrafik böhran arealına çevrilməkdədir. Qısa vaxtda bunun qarşısının alınması istiqamətində tədbirlər görülməsinə ehtiyac vardır. Bu məqsədlə regionların inkişafı sahəsində daha ciddi tədbirlərin görülməsi, əhaliyə göstərilən sosial-mədəni xidmətin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması zəruridir.

Ədəbiyyat:

1. Azərbaycanın demoqrafik göstəriciləri 2014. Bakı: DSK, 2015, 470 s.
2. Azərbaycanın əhalisi - 2013, Bakı: DSK, 2014, 128 s.
3. Azərbaycanın regionları - 2013. Bakı: DSK, 2014, 777 s.
4. Azərbaycan Respublikası əhalisinin 1991-2011-ci illərdə sayı və təbii hərəkəti. Bakı: ДSK.
5. Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. Bakı: ДSK, 2010, 629 c.
6. Eminov Z.N. Azərbaycanın əhalisi. Bakı: Çıraq, 2005, 560 s.
7. Eminov Z.N. Azərbaycanda əmək ehtiyatlarının formalaşmasının demoqrafik problemləri. C.e.d. elmi dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı. Bakı, 2012, 51.
8. N.Ə.Paşayev, N.H.Əyyubov, Z.N.Eminov. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı: Çıraq. 2010, 416 s.

МИГРАЦИОННЫЕ ПРОЦЕССЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ

З.Н.Эминов, В.З.Аббасова

Миграция населения происходит в результате политических, экономических и социально-демографических процессов и за короткий период времени серьезно влияет на демографическую ситуацию. Поэтому важной задачей является регулирование миграционных процессов и ее управление в соответствии с требованиями экономического развития и демографической безопасности страны.

Сложившиеся в первые годы экономические трудности, обострение межнациональных отношений привели к миграционной активности населения в республике. В этот период миграция городского населения была более интенсивной, и она была направлена, в основном, в зарубежные страны.

В ходе проведенных экономических и социальных реформ в последние годы снизилась зарубежная миграция. В тоже время продолжается внутренняя миграция, и население концентрируется в Абшеронском регионе. Этот процесс сдерживает развитие других регионов страны. В статье анализируются миграционные процессы в стране, даются рекомендации по ее регулированию.

MİGRATİON PROCESSES İN AZERBAİJAN İN THE YEARS OF İNDEPENDENCE

Z.N.Eminov, V.Z.Abbasova

Human migration takes place as a result of political, economic and socio-demographic processes, and it significantly impacts on the demographic situation within a short period of time. In this connection, the regulation of migration as well as the management of this process in accordance with the requirements of economic development and demographic security of the country is considered to be a topical issue.

The economic challenges, typical for the early years of independence, as well as the aggravation of international relations lead to higher intensity of human migration in the country. During this period, intensity of migration was higher among the urban population while foreign countries were the main destinations.

However, the foreign migration has decreased in recent years in connection with the conducted economic and social reforms. Meanwhile, migration of population within the country continues. The population is concentrating mostly in the Absheron region, and this process hinders the development of other regions of the country. The article is devoted to the analysis of the migration processes in the country. Relevant recommendations on regulation of these processes are given as well.

ŞƏKİ-ZAQATALA İQTİSADİ-COĞRAFİ RAYONUNDA KƏND MƏSKUNLAŞMASININ TƏDQİQİ

R.N.Kərimov

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115

Məqalədə Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunun ərazisində kənd yaşayış məntəqələrinin yerləşməsi və kənd areallarının coğrafi yayılması tədqiq olunur. Region kəndlərinin morfoloji və funksional xüsusiyyətləri əsasında müqayisəsi verilir. Kəndlərin yerləşməsində, kənd əhalisinin məskunlaşmasında təbii şəraitin və sosial-iqtisadi amillərin rolu, inzibati rayonlar üzrə kəndlərin paylanma xüsusiyyətləri öyrənilərək təhlil edilir. Məqalədə ilk dəfə olaraq Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunun yaşayış məntəqələri kənd arealları və yarımarealları üzrə qruplaşdırılmaqla öyrənilir. Sonda regionun kənd məskunlaşmasının davamlı inkişafına dair tövsiyələr verilir.

Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunun yaşayış məntəqələri Azərbaycanın kənd məskənləri sistemində mühüm yer tutur. İqtisadi-coğrafi rayonun kənd əhalisinin sayı 408,1 min nəfər, yaxud Azərbaycanın kənd əhalisinin 9,8%-i qədərdir [1]. Tədqiqat regionunda 350 kənd yaşayış məntəqəsi vardır. İqtisadi-coğrafi rayon ərazisində məskunlaşma üçün əlverişli təbii şəraitin hakim olması, münbit torpaqların geniş yayılması, suvarma əhəmiyyətli çoxsaylı çayların, geniş meşəliklərin mövcudluğu kənd həyat tərzinin inkişafı üçün möhkəm zəmin yaradır. Bununla bərabər, region ərazisi daxilində relyefin xeyli müxtəlif olması və şaquli olaraq kəskin parçalanması ilə əlaqədar iqlim şəraiti də müxtəlifdir ki, həmin fərqliliklər məskunlaşma prosesinin də qeyri-bərabər təzahür etməsinə gətirib çıxarmışdır. Region daxilində kəndlər arasında tip, forma, ixtisaslaşma, genetik, morfoloji quruluş və planlaşma baxımından kifayət qədər fərqlər özünü göstərir.

Regionda məskulaşmanın xarakterini əhəmiyyətli dərəcədə ərazinin şaquli qurşaqlar üzrə yerləşməsi müəyyən edir. Düzənlik və dağətəyindən daha yuxarıya doğru qalxdıqca, kəndlərin böyüklüyü bir qayda olaraq kiçilir. Qanıx-Əyriçay vadisinin cənub-şərq hissəsində isə əhalinin sıxlığı nisbətən aşağıdır.

Ötən əsrin 80-ci illərində tədqiqatçılar Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda əhali məskunlaşmasının 5 yüksəklik qurşağını ayırmışlar [6]. Sonuncu qruplaşmada 6 qurşaq verilir [4]. Birinci qurşaq 0-200 m mütləq hündürlüyü əhatə edir və region ərazisinin 11,4%-ni tutur. Burada kəndlərin 7%-i yerləşir, kənd əhalisinin 7,5%-i məskunlaşmışdır. İkinci qurşağa 200-500 m hündürlüklər aid edilir. Bu qurşaq ümumi ərazinin 47,3%-ni əhatə edir. Kəndlərin 67%-i burada yerləşir, kənd əhalisinin 64%-i bu qurşağa aiddir. Üçüncü dağlıq qurşaq 500-1000 m mütləq hündürlükləri, rayon ərazisinin 15,6%-ni tutur. İqtisadi-coğrafi rayondakı kəndlərin 22%-i, kənd əhalisinin 23,8%-i bu qurşağın payına düşür. Dördüncü dağlıq qurşaq 1000-1500 m mütləq hündürlükləri əhatə edir, ümumi ərazinin 6,4%-ni tutur. Kəndlərin 4%-i bu qurşaqda yerləşir, kənd əhalisinin 4,7%-i burada məskunlaşmışdır. Beşinci qurşaq 1500-2000 m mütləq hündürlükləri əhatə edir. Ümumi ərazinin 6,9%-ni tutur. Altıncı qurşaq isə 2000 m-dən yuxarı hündürlüyü əhatə edir və ümumi ərazinin 12,4%-ni tutur.

Kəndlərin və kənd areallarının inzibati rayonlar üzrə yayılması.

Balakən rayonunda 18 kənd dairəsi və 57 yaşayış məntəqəsi mövcuddur. Kənd əhalisinin sayı 79,5 min nəfərdir [2]. Kəndlərin böyük əksəriyyəti rayonun qərb və cənub-qərb hissəsində yerləşir, onlar Bakı-Balakən avtomobil yolunun sol tərəfindədirlər. Yalnız Mazımçay, Mahamalar, Solban, Qullar, Qasbinə və Katex kəndləri həmin magistral xətdən sağ tərəfdə yerləşir. Ümumiyyətlə, rayon ərazisinin yarısı (Böyük Qafqaz dağlarının orta və yüksək dağlığı) məskunlaşmamış sahələrdir. Balakən şəhərindən qərbdə və cənubda kəndlər nisbətən sıxdır. Qanıx çayına və ona tökülən qolların mənsəblərinə yaxınlaşdıqca, bu sıxlıq nisbətən azalır. Bəzi kiçik kəndlər əsas avtomobil yollarından kənarda qalmaqla, onlarla əlaqə asfalt örtüyü çəkilməmiş kəndlərarası yollar vasitəsilə mümkündür (Solban, Çorçorbinə, Mazımüstü, Tülü, Qazma, Darvazbinə, Sarıbulaq, Şambulbinə, Əyritala, Pirqax, Qamıştala, Mollaçıbinə, Beiçeqarbinə, Abjit).

Zaqatala rayonunda 27 kənd dairəsi və 60 kənd yaşayış məntəqəsi mövcuddur. Kənd əhalisinin sayı 91,5 min nəfərdir [2]. Kəndlər əsasən mühüm nəqliyyat xətlərinin və çayların kənarında yerləşir. Kənd əhalisinin sıxlığı Böyük Qafqazın cənub alçaq və orta dağlığında, Qanıx-Əyriçay çökəkliyində azdır.

Zaqatala rayonu ərazisində kənd məskunlaşmasının 2 böyük arealını fərqləndirmək olar. Birinci areala Zaqatala-Əli Bayramlı avtomobil yolu (Muğanlı çayından qərb və şimal-qərb istiqamətində) ilə Katexçay arasında qalan kəndlər daxildir. İkinci böyük kənd arealına Qaralaçay, Qaraçay, Muxaxçay və s. çayların orta axarında və xüsusilə gətirmə konusları sahəsində yerləşən müxtəlifölçülü kəndlər aiddir. Areal daxilində iki yarımareal aydın nəzərə çarpır. Birinci yarımareala Bakı-Balakən xəttindən şimalda yerləşən alçaq və orta dağlığın kəndləri, o cümlədən Muxax (7320 nəfər), eləcə də Yeni Suvagil, Yuxarı Çaxdaxlar, Gözbarax kimi əhalisi 1800-2000 nəfərdən çox olan kənd dairələri və çoxsaylı kiçik kəndlər aiddir. İkinci yarımarealın kəndləri Qanıx-Əyriçay çökəkliyini – çayların gətirmə konusu ərazisini əhatə edir (Bəhmətli, Mosul, Muğanlı, Lahıc, Faldarlı, Qandax və digər).

Şəkil 1. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda kənd məskunlaşması

Qax rayonunda 16 kənd dairəsi, o cümlədən 58 kənd yaşayış məntəqəsi mövcuddur. Kənd əhalisinin sayı 40,9 min nəfərdir [2]. Rayon ərazisində mütləq hündürlüyü 200 m-dən az olan kəndlərdən (Üzümlükənd, Ağyazı, Qındırğa, Ləəli) başlamış 2000 m-dək yüksəklikdə yerləşən kəndlərədək (İlisu, Sarıbaş, Ağçay, Armudlu və s.) müxtəlif ölçüdə yaşayış məntəqələri vardır. Kəndlərin əksəriyyəti Kürmükçay, Qumçay, Qaraçay, Qaşqaçay və digər çayların kənarında yerləşir.

Qax rayonu ərazisində kənd yaşayış məntəqələrinin *üç kiçik kənd arealını* ayırmaq olar. Bunlardan *birincisi* (Əlibəyli–Almalı–Qıpçaq) Kürmükçayın sol sahilindən başlamış Qaraçay və Cunutçay arasındakı sahələri əhatə etməklə, 20-dən artıq (əsasən kiçik) kənddən ibarətdir, 8000 nəfərdən çox əhalini özündə cəmləşdirir. *İkinci kənd arealı* (Tasmalı–Turaclı–Qorağan–Zəyəm) Kürmükçayın aşağı axarında və buradan şimalda yerləşən kəndləri özündə birləşdirir. Bu aqlomerasiyadakı kəndlərin orta böyüklüyü nisbətən yuxarı olsa da, ən iri kəndlərin əhalisi 1500-2000 nəfər arasındadır. *Üçüncü kənd arealına* (Zəznə–Ləkit–Qum) Qax-Zaqatala avtomobil yolunun şimal hissəsində, əsasən orta dağlıqda, gözəl meşə landşaftı olan ərazilərdə yerləşən kəndlər daxildir.

Şəki rayonunda 31 kənd ərazi dairəsi mövcuddur, onların tərkibində 68 kənd vardır. Kənd əhalisinin sayı 112,5 min nəfərdir [2]. Şəki rayonunun kənd məntəqələrini 5 qrupa ayırmaq olar:

1. Şəki şəhərindən qərb və şimal-qərb istiqamətində yerləşən kəndlər (Qoxmuq, Kiş, İncə və s.). 2. Şin, Baş Göynük, Baş Layısqı, Birinci Biləcik, Cunut, Şabalıd və digər yaxınlıqda olan kəndlər qrupu (Şinçay və Cunutçay çaylarının vadilərində yerləşirlər). 3. Şəki şəhərindən şərqdə, Oğuz rayonu istiqamətində yerləşən orta dağlığın kəndləri (Baş Zeyzid, Orta Zeyzid, Baş Kəldək, Vərəzət). 4.Şəki şəhərindən cənub-şərqdə, Əyriçayın orta axarı ilə Əlicançay arasında qalan alçaq dağlığın kəndləri (Aşağı Küngüt, Aydınbulaq, İbrahimkənd, Dərəcənnət və s.). 5. Rayonun cənub və cənub-qərb hissəsindəki Daşüz silsiləsi boyunca, Acınohur düzündə, Şəki yaylasında yerləşən kəndlər.

Oğuz rayonunda 4 kənd ərazi dairəsi, 33 kənd yaşayış məntəqəsi mövcuddur. Kənd əhalisinin sayı 35 min nəfərdir [2]. İnzibati rayon ərazisi üzrə kəndlər nisbətən səpələnmiş halda yayılmışdır. Şimal (yüksək dağlıq) və qərb hissələrdə kənd əhalisinin sıxlığı daha azdır. Bəzi kəndlər (Bucaq, Muxas, Baş Daşağıl, Filfilli və s.) geniş məskunlaşma areallarından uzaqda inkişaf edirlər. Kiçik kənd qrupları qismində Bayan–Qumlaq–Şirvanlı–Tayırlı və Sincan–Mollalı–Tərkeş kənd areallarını göstərmək olar. Vladimirovka və Astraxanovka Oğuz rayonu ərazisinin əsas məskunlaşmış hissəsindən kənarda qalan kəndlər kimi ayrıca qeyd oluna bilər.

Qəbələ rayonunda 56 kənd dairəsi və onların tərkibində olan 60 kənd yaşayış məntəqəsi vardır. Kənd əhalisinin sayı 66 min nəfərdir [2]. Rayonun ərazisinin yalnız yarıya qədəri məskunlaşıb. Bu, şimal hissədə yüksək dağlıq relyeflə bağlıdırsa, cənub hissədə (Axarbaxar silsiləsi) məskunlaşma üçün əlverişsiz iqlim və relyef şəraitinin olması, çay şəbəkəsinin aşağı sıxlığı ilə əlaqədardır. Türyançay, Dəmiraparançay, Vəndamçay, Həmzəliçay, Bumçay, Qaraçay, Seyfələs, Qobuçay və digər çayların ərazidən keçməsinin su ilə təminat baxımından mühüm rolu vardır və bu, uzun müddət kənd məskunlaşmasının inkişafına müsbət təsir göstərmişdir. Bununla belə, bir çox yerlərdə isti mövsümdə sudan istifadənin artması, çay dərələrində suyun azalması kəndlər üçün su çatışmazlığı yaradır və bu amil onların inkişafına mane olur. Ən yüksək mütləq hündürlüyə malik olan kəndlər Laza (1500 m-dən yuxarı), Qəmərvan (1200 m-dən çox) və Küsnətdir (1100 m). Kəndlərin əksəriyyəti Qəbələ şəhərindən cənubdadır. Uzun müddət rayonun ən iri kəndləri olmuş Vəndam və Nic son illərdə qəsəbə statusu almışdır.

İnzibati rayonun mərkəzi hissələri uzun müddət az mənimsənilmiş sahələr olmuşdur. Son illərdə isə rayonun kənd bələdiyyələrinə aid olmayan boş ərazilərində müxtəlif sosial infrastruktur obyektləri, sənaye müəssisələri, aeroport və s. tikilmişdir. Yüksək dağlığa doğru kəndlərin (Laza) rekreasiya əhəmiyyəti artır [3]. Hazırda Qəbələ rayonu ərazisinin mənimsənilməsi sürətlə davam edir.

Nəticə və təkliflər

1. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda kəndlərin ərazi üzrə paylanması əsasən əlverişli coğrafi mövqe (çay vadilərinə, nəqliyyat yollarına, rayon mərkəzinə və s. görə yerləşmə), relyef xüsusiyyətləri, iqlim şəraitinin müxtəlifliyi ilə müəyyən olunur. Ümumi əhalinin və kənd əhalisinin qeyri-bərabər məskunlaşması, ərazinin mənimsənilməsi baxımından regiondaxili fərqlər müşahidə edilir.

2. Regionda bəzi kəndlərin (Qoxmuq, Yuxarı Tala, Kiş, Xaçmaz, Aşağı Tala, həmçinin Yuxarı Tala, Baş Göynük, Baş Zəyzid) yüksək demoqrafik potensialı və davamlı məskunlaşma imkanları vardır. Demoqrafik potensialı ən yüksək olan kəndlər Şəki, Zaqatala və Balakəndədir. Qax və Oğuz rayonlarındakı kəndlər nisbətən zəif demoqrafik potensiala malik olmaları ilə səciyyələnirlər.

3. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda kənd məskunlaşması üçün geniş demoqrafik potensial mövcuddur. İnzibati rayonlarda doğum və təbii hərəkət əmsallarının son illərdə nisbətən yüksək olması və azalmaması, regionda əhalisi bir neçə min nəfər olan kəndlərin öz ətrafında kənd aqlomerasiyaları yaratması, əhalinin sayı kəskin azalan kəndlərin ölkənin digər dağlıq regionları ilə müqayisədə Şəki-Zaqatalada azlıq təşkil etməsi bunu söyləməyə əsas verir.

4. Bəzi inzibati rayonlarda (Qax, Oğuz) kəndlərin demoqrafik potensialının gücləndirilməsinə böyük ehtiyac duyulur. Kənd məskunlaşmasının sosial-iqtisadi bazasının möhkəmləndirilməsi baxımından inzibati rayonlarda əhalinin aqrar sahədəki iqtisadi fəallığının artırılması, regionda kənd təsərrüfatı sahələrinin inkişafının sürətləndirilməsi və məhsuldarlığın artırılması zəruridir.

5. Kəndlərdən əhalinin getməsinin qarşısının alınması üçün sosial infrastruktur sahələrinin səmərəli ərazi təşkili və inkişafı da vacibdir. Kəndlərdə əl əməyinə əsaslanan sənətkarlıq sahələrinin, kəndlərin rekreasiya əhəmiyyətinin qorunub saxlanması da kənd məskunlaşmasının davamlı inkişafı üçün zəruridir.

6. Əhalinin sayının və sıxlığının artdığı, mənimsənilən ərazilərin genişləndiyi şəraitdə iqtisadi-coğrafi rayonun kəndlərinin baş verə biləcək təbii fəlakətlərdən – sellərdən, zəlzələlərdən və s. qorunması istiqamətində tədbirlərin görülməsi davam etdirilməlidir. Çayların gətirmə konuslarında yeni-yeni evlərin tikilməsi və kənd yaşayış məntəqələrinin ərazisinin genişlənməsi ilə əlaqədar, əhalinin ekoloji təhlükəsizliyi gücləndirilməlidir. Müvafiq tədbirlərlə yanaşı, icra hakimiyyəti nümayəndələrinin iştirakı təmin olunmaqla, kənd bələdiyyə nümayəndələri və icmaları ilə maarifləndirici söhbətlər aparılmalı, bundan sonra təhlükəli ərazilərdə evlərin tikilməsi dayandırılmalı, yeni tikilən evlərin tikilmə xüsusiyyətləri, istifadə olunan inşaat materialları və s. öyrənilməli, gərəkli hallarda yerli sakinlərə yaşayış yeri ilə təmin olunmada müvafiq yardım göstərilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası əhalisinin 1989, 1999 və 2009-cu illər üzrə siyahıyaalınması məlumatları.
2. Azərbaycanın əhalisi - 2013 (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məcmuəsi). Bakı, 2014.
3. Dərgahov V.S., Kərimov R.N. Şəki-Zaqatala bölgəsinin ekoloji və kənd turizm imkanları. *“Müstəqillik illərində coğrafiya elminin inkişafı” mövzusunda* Azərbaycan Coğrafiya Cəmiyyəti BDU filialının konfransının materialları, Bakı, 2013, s. 259-265.
4. Əyyubov N.H., Abdullayeva G.İ. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda əhalinin yüksəklik qurşaqları üzrə yerləşməsi: meyillər və təkmilləşdirilmə. *“Coğrafiya və Təbii Resurslar” jurnalı,* №1, 2015, s. 79-82.
5. İmrani Z.T. Şəki-Zaqatala iqtisadi rayonunda təsərrüfat sahələrinin inkişaf istiqamətləri. AMEA-nın “*Şəki-Zaqatala bölgəsinin təbii-dağıdıcı hadisələri və regionun inkişafının ekocoğrafi problemləri”* elmi-praktiki konfransı. Şəki, 2005, s. 82-85.
6. Mehrəliyev E.Q., Əyyubov N.H., Sadıqov M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. “Elm”, Bakı, 196 s.

ИССЛЕДОВАНИЕ СЕЛЬСКОГО РАССЕЛЕНИЯ В ШЕКИ-ЗАГАТАЛЬСКОМ ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОМ РАЙОНЕ

Р.Н.Керимов

В статье исследуется географическое расположение сельских населенных пунктов и сельских ареалов в Шеки-Загатальском экономико-географическом районе. Проводится сравнение сел по их морфологическим и функциональным особенностям. Анализируются роль природных условий и социально-экономических факторов в расположении сел и расселении сельского населения, а также распределение этих населенных пунктов на территории отдельных административных районов. Впервые сельские населенные пункты Шеки-Загатальского экономико-географического района исследуются с выделением на изучаемой территории сельских ареалов и субареалов. В конце даются рекомендации по устойчивому развитию сельского расселения в регионе.

STUDY OF DISTRIBUTION OF RURAL SETTLEMENT IN SHAKI-ZAGATALA ECONOMIC-GEOGRAPHIC REGION

R.N.Kerimov

The article deals with the study of geographical location of rural settlements and rural areals in the Shaki-Zagatala economic-geographic region. The villages are compared for their morphological and functional peculiarities. Role of natural condition, as well as social and economic factors in distribution of villages in the territory is analyzed. Moreover, location of the rural settlements is studied on each administrative region. For the first time, rural settlements of the Shaki-Zagatala region are investigated by grouping of them in areals and subareals.

TURİZM COĞRAFİYASI

ЛЕЧЕБНО-ОЗДОРОВИТЕЛЬНЫЙ ТУРИЗМ В ГРУЗИИ

Н.И.Павлиашвили[1], М.А.Тутберидзе[2]

[1]*Тбилисский Государственний Университет им. Ив. Джавахишвили*
npavliashvili11@gmail.com
[2]*Институт Географии им. Вахушти Багратиони ТГУ*
mziatutberidze@gmail.com

Грузия традиционная курортная страна, где благоприятный климат и минеральные воды издревле использовались для лечения и оздоровления. Масштаб лечебно-оздоровительного туризма достиг своего пика в конце 80-х годов прошлого века. Кризис 90-х сильно отразился на состоянии туризма в целом, но особенно на лечебно-оздоровительный туризм. С 2000-х началось возрождение туризма, но уже в других условиях, вызвавших серьезные изменения: часть курортов не соответствует своему прежнему статусу, на курортах основными туристическими объектами являются гостиницы, изменился медицинский профиль части курортов, основным потребителем этого вида туризма является местное население, курорты стали многофункциональными. Проблемой развития туризма Грузии в целом, и в частности лечебно-оздоровительного туризма является отсутствие единой стратегии развития отрасли, неразвитость инфраструктуры (средства размещения, транспорт, бытовое обслуживание), нехватка профессиональных кадров, уменьшение научно-исследовательских работ по выявлению новых ресурсов для развития туризма. И главное, принятие нового закона о туризме, который должен упорядочить вопросы лицензирования и сертификации.

Лечебно-оздоровительный туризм объединяет фактически два вида туризма. Основой их развития являются одни и те же природные ресурсы, а инфраструктура, обслуживающая оба вида, особенно в последние годы, выполняет комплексные функции, позволяя совмещать лечение и профилактику заболеваний с отдыхом и организацией свободного времени.

Лечебно-оздоровительный туризм имеет ряд отличительных черт: 1. Пребывание на курорте, вне зависимости от типа курорта и заболевания, должно быть длительным (не менее трёх недель), так как только в этом случае достигается желаемый эффект; 2. Лечение на курортах стоит дорого и поэтому такие туры в основном рассчитаны на состоятельных людей, которые предпочитают индивидуальные пакеты обслуживания; 3. На курорты едут в основном люди в возрасте, когда обостряются хронические болезни и трудно переносятся стрессовые ситуации, соответственно, они делают выбор между специализированными курортами для лечения конкретных заболевании и курортами смешанного типа, где возможно общее оздоровление [1, с. 206].

Грузия - традиционная курортная страна, где на базе благоприятного для лечения климата, многочисленных минеральных вод (более 2 тысяч источников) и лечебных грязей, с давних времен развивался лечебно-оздоровительный туризм. Подтверждение тому - такие курорты, как Абастумани, который по легенде уже существовал во времена Александра Макендонского, Боржоми, где обнаружены строения для приёма ванн, датированные первым веком нашей эры, Тбилисские серные воды, упомянутые в трудах арабского географа Аль-Истарха и француза Шардена, Цхалтубо, о котором первые сведения встречаются уже VII-IX вв, а также Коджори, Манглиси, Ахтала и др.

После присоединения Грузии к России, выявление и освоение курортных местностей происходило в целях лечения и оздоровления военного персонала. Значительную роль играли и интересы царской семьи. Началось строительство помещений для жилья и проведения лечебных процедур.

В XIX веке началось возрождение курортов Боржоми и Абастумани и строительство курорта Гагра (1870г). В XX веке продожилось освоение черноморского побережья. Появились курорты: Сухуми, Гульрипши, Кобулети, Цихисдзири, Махинджаури, Батуми [4, с. 179].

В начале XX века в Грузии функционировали 6 санаториев на 367 мест, а официальным курортом являлся только Гагра. С 1920-х годов первые санатории были основаны на базе резиденций частных лиц, параллельно шло строительство новых курортных учреждений и в 1939 г составило 131, вместимостью 14,2 тыс. мест.

После войны их число незначительно уменьшилось и в 1950 году составило 129 на 13,2 тыс. мест. В следующие десятилетия число курортных учреждений увеличилось и на 1988 год составило 233 (61,8% от общего числа туристических учреждении), а число мест в них составляло 63,6 тыс. (62,4% от общей вместимости коечного фонда туристических учреждений) [2, с. 31; 3, с. 133] (см. табл. №1).

Таблица 1

Число курортных учреждений и койко-мест в них, 1939-1988гг

курортное учреждение	1939	1950	1960	1970	1980	1988
санатории и их вместимость (койки, тыс.)	71 8,4	94 10,2	82 13,3	92 18,5	110 32,2	129 37,6
дома отдыха и пансионаты, их вместимость (койки, тыс.)	60 5,8	35 3,1	52 7,9	82 16,4	82 16,4	104 26,0
всего вместимость (койки, тыс.)	131 14,2	129 13,3	134 21,2	174 34,9	174 34,9	233 63,6

В 1970 году в санаториях и учреждениях отдыха побывало 459,8 тыс. человек, к 1980 году этот показатель возрос на 36,3% и достиг 626,6 тыс. чел. (49,1% от общего числа туристов), а к 1988 году он составил 645,3 тыс. чел (31,7% от общего числа туристов).

В этот период в Грузию за год приезжало около 1,8 млн. организованных и 2,5-3,0 млн. неорганизованных отдыхающих. Из данных табл. №1 видно, что курортные учреждения не могли полностью удовлетворить потребности желающих лечиться и отдыхать в Грузии, т.е спрос превышал предложение.

Среди приезжающих большинство составляли граждане из союзных республик. Из иностранцев преобладали приезжие из соцстран, которых кроме отдыха интересовали природные и культурные достопримечательности Грузии.

В советские годы санаторно-курортные учреждения были в ведении государства и их лечебно-профилактическое и анимационное обслуживание имело четко выраженную социальную ориентацию: сформировалась курортная система, которая была представлена единой инфраструктурой. Курортное хозяйство и отдых были доступны всем слоям общества, но плановая система хозяйства, разработанная государством, со временем, как экономическая система не могла развиваться эффективно, что создавало диспропорции в хозяйстве. И курортное хозяйство в основном развивалось экстенсивным путём, т.е. не путём улучшения уровня санаторно-курортного обслуживания, а путём расширения освоения природно-курортных ресурсов и строительства новых санаторно-курортных учреждении. Как следствие, санаторно-курортное обслуживание было низкого уровня, не применялись новые технологии и современные технические оборудования.

После провозглашения независимости Грузии, кризис охватил все сферы экономики. Во время Абхазской войны была уничтожена значительная часть туристической инфраструктуры. А на остальной территории страны в сохранившиеся учреждения отдыха были заселены беженцы из Абхазии, что на фоне общего кризиса, вызвало полную амортизацию зданий и сооружений. Особенно тяжелым для курортно-туристического хозяйства оказалось последнее десятилетие минувшего века. С 2000-х годов, при общем улучшении состояния экономики, оживилось и курортно-туристическое хозяйство. Налаживание международных отношений привлекло не только иностранных туристов, но и инвесторов, которые начали строить гостиницы высокого класса в столице и на Черноморском побережье. Туриндустрия была признана правительством приоритетным направлением экономики страны. Были проведены поощрительные экономические мероприятия для субъектов, работающих в сфере туризма.

Изменения, происшедшие за последние десятилетия в Грузии, отразились и на состоянии лечебно-оздоровительного туризма, в частности: 1. большая часть курортов не соответствует своему статусу; 2. специализированные лечебно-оздоровительные учреждения на курортах уступили место гостиницам разного ранга и типа; 3. во многих случаях расширился профиль курортов; 4. основным потребителем лечебно-оздоровительного турпродукта является население страны; 5. в условиях свободного рынка курорты приобрели новые функции.

В настоящее время из 103 курортов Грузии (из них 45 климатических, 26 бальнеологических, 2 грязевых и 30 смешанного типа), только половина функционирует, и то не в полной мере. К сожалению, в большинстве из них, за исключением Боржомской группы курортов, Черноморских, а также отдельных небольших курортов, существующих за счет частных инвестиции (Нуниси, Саирме, Уджарма и другие), обслуживание происходит в примитивных условиях: разрушенные помещения, обветшалые ванные сооружения, тяжелые санитарные условия, неухоженный ландшафт. Такие популярные курорты страны, как Менджи, Цаиши, Ховле, Набеглави, Нокалакеви, Бииси и др. вообще не принимают отдыхающих, только местное население пользуется минеральными водами, иногда не по назначению. Зачастую драгоценные минеральные воды бесхозяйственно проливаются.

Рис. 1. Курорт Цаиши, бывшее ванное здание, 2012

Несколько лет назад при содействии правительства и финансировании инвесторов началось возрождение курорта международного значения Цхалтубо, который бездействовал более двух десятилетий. Здания бывших здравниц были заняты перемещенными лицами из Абхазии, для которых в настоящее время выделено новое жилье. Уникальные радоновые воды, архитектурная ценность построенных в 40-50-ых годах санаториев, особая планировка курорта, а также наличие в окрестностях курорта значимых объектов познавательного и культурного туризма (карстовые пещеры, древние монастыри) дают надежду на успешное восстановление его функций.

Рис. 2. Нокалакеви, 2012

Рис. 3. Местное население курорта Бииси у источника, 2009

Средства размещения туристов на курортах за последнее время в основном представлены гостиницами разного типа (гостиницы, семейные гостиницы, гостевые дома). Это или недавно построенные сооружения, или созданные на основе существующих санаториев и домов отдыха. По последним данным Национальной Туристической Администрации в стране действуют всего 7 санаториев и 1 пансионат (в Боржоми, Саирме, Цхалтубо, Сулори, Шекветили). На правительственное решение о приорететном развитии туризма, частный сектор отозвался большой инициативой, в частности, сильно возросло число семейных гостиниц, объектов питания и торговли. Из общего числа гостиниц, семейные составляют 41,7% (17,9% общей вместимости).

Произошли изменения и в медицинском

Рис.4. Курорт Набеглави, здание бывшего санатория “Набеглави”, 2008

профиле курортов, в основном в сторону расширения. В период глобального изменения климата, большое распространение получили некоторые заболевания, требующие курортного лечения. Курорт Абастумани, в прошлом специализировавшийся по фтизиатрическим заболеваниям, которые ныне с успехом лечатся медикаментозным путём, принимает больных с бронхиальными заболеваниями и является одним из восстребованных курортов.

С целью лечения и оздоровления на курорты страны в основном едет местное население, издавна привыкшее лечиться и отдыхать на курортах Грузии. По социологическим опросам в 2013 году только 9% населения могло позволить себе поездку на курорт, частично из-за не налаженной инфраструктуры, а частично из-за низких доходов, 76% местных туристов отдыхало на собственной даче или в деревне у родственников. В будущем лечение и отдых на курортах планирует 30% населения [6, с. 17].

Основной мотивацией иностранных туристов, приезжающих в Грузию, является отдых, рекреация и развлечения (37% интуристов), а для лечения приезжает всего 2% [6, с. 21].

В связи с растущей популярностью здорового образа жизни, возросла потребность в лечебно-оздоровительном туризме среди людей среднего возраста, которые предпочитают активный отдых, и в то же время они ограничены во времени. Поэтому традиционные курорты уже не представляют собой только тихое место для лечения и отдыха пожилых пациентов, а являются многофункциональными оздоровительными центрами, которые рассчитаны на широкие массы потребителей с совершенно разными потребностями.

Ёще одной причиной изменения функции курортов является изменения финансовой поддержки - финансирование со стороны муниципалитетов и государства уменьшилось. Курортам, для завоевания новых сегментов рынка и привлечения большого числа клиентов, необходимо разнообразить предлагаемый продукт. С этой целью курорты, сохраняя функцию лечения, в то же время совмещают проведение многообразных культурных и спортивных мероприятий. Строятся театры, концертные залы, галереи, выставочные залы, ночные клубы. Также расширяется строительство инфраструктуры для активных форм отдыха - площадки для игры в гольф и теннис, плавательные бассейны, тропинки для пеших и велопоходов. Благодаря современной инфраструктуре многие курорты могут функционировать круглогодично: приморский курорт зимой может использоваться для проведения симпозиумов и конференций, а горно-лыжный центр летом принимает отдыхающих как горно-климатический курорт.

Похожие изменения произошли и на курортах Грузии, проводятся музыкальные фестивали в Гонио и Телави. В Батуми построен центр культуры и искуств, летом проводятся джазовые фестивали и концерты классической музыки.

В целом, неудовлетворительное состояние курортов вызвано следующими причинами: 1. Не существует единой стратегии развития курортов и туризма; 2. Явления, происшедшие после распада Советского Союза, вызвали утрату традиционного туристского рынка; 3. Инфраструктура курортов (за некоторым исключением) находится в тяжелом состоянии. Существенно сократился коечный фонд рекреационных учреждений. Большинство из них уже амортизировано и совсем не отвечает современным стандартам, предъявляемым туристической инфраструктуре; 4. Очень низка степень обеспечения курортным лечением социально незащищеной категории населения; 5. Существует проблема транспортной доступности. Кроме центральных автострад, основная часть дорог находится в плохом состоянии, что усложняет прибытие на курорты. Особенно это касается горных климатических курортов; 6. Нет подготовки профессиональных кадров для обслуживания курортов; 7. Значительно уменьшились работы по изысканию и использованию новых природно-лечебных ресурсов, внедрению современных технологических устройств, новых методов диагностики, проведения научно-исследовательских и производственных работ; 8. Для устранения проблем главное - принятие нового закона о туризме, в котором одной из важнейших будет статья о разработке нормативов по лицензированию, стандартизации и сертификации.

ЛИТЕРАТУРА:

1. Александрова А.Ю. Международный туризм. М., "Аспект пресс", 2001.
2. Кобахидзе Э.Д. Курортное хозяйство и туризм Грузинской ССР. Тб., "Мецниереба", 1971, (на груз. яз.).
3. Народное хозяйство Грузии в 1988 году. Статисческий ежегодник. Тб.,1990, (на груз.яз.).
4. Нодиа М. Курорты и курортные ресурсы Грузии. Тб., "Сабчота Сакартвело", 1976, (на груз.яз.).
5. Павлиашвили Н.И. Туристско-рекреационное хозяйство. В кн. География Грузии, ч. 2. Тб., 2003, (на груз.яз.).
6. Статистическое обозрение туризма Грузии, 2013. www.gnta.ge, (на груз. яз.).
7. Тутберидзе М.А., Павлиашвили Н.И. Проблемы внутренного туризма в Грузии. ТГУ, сборник трудов №3 (82), Тб., 2011, (на груз.яз.).

GÜRCÜSTANDA MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİ

N.İ.Pavliaşvili, M.A.Tutberidze

Gürcüstan ənənəvi kurort ölkəsi olub, burada hələ qədimdə əlverişli iqlim şəraiti və mineral su mənbələri müalicə və sağlamlıq üçün istifadə olunurdu. Müalicə-sağlamlıq turizmi özünün yüksək səviyyəsinə keçən əsrin 80-ci illərində çatmışdır. 90-cı iilərin böhranı həm ümumilikdə turizmə, həm də müalicə-sağlamlıq turizminin vəziyyətinə güclü təsir etmişdir. 2000-ci ildən etibarən turizmin inkişafı fərqli şəraitdə başladı ki, buraya da kurortların bəzilərinin əvvəlki statusuna uyğun gəlməməsi, kurortlarda əsas turizm obyektlərinə mehmanxanaların aid olması, bir sıra kurortların tibbi profilinin dəyişməsi, bu turizm növünün əsas istehlakçılarının yerli əhali nümayəndələri olması, kurortların çoxfunksiyalılığı və s. aiddir. Gürcüstanda həm ümumilikdə turizmin, həm də müalicə-sağlamlıq turizminin inkişaf problemlərinə vahid inkişaf strategiyasının olmaması, infrastrukturun (yerləşmə vasitələri, nəqliyyat, məişət xidməti) inkişaf etməməsi, təcrübəli kadrların çatışmazlığı, turizmin inkişafı üçün yeni ehtiyatların aşkarlanmasına dair elmi-tədqiqat işlərinin azalması və nəhayət, lisenziyalaşdırma və sertifikatlaşdırma məsələlərini də əhatə edəcək yeni turizm qanununun qəbul edilməsi aiddir.

HEALTH AND MEDICAL TOURISM IN GEORGIA

N.İ.Pavliashvili, M.A.Tutberidze

Georgia has been known for its spa resorts and mineral water facilities since the time immemorial. Combined with the mild climate, they made the country a center of spa life, its heyday in the 1980s. The crises of the 1990s took its toll on tourism and on health and medicinal tourism in particular. The turn of the century saw its revival, though under very different conditions: many resorts lost their former rank; hotels (instead of health care institutions) provide accommodation; the range of medical services provided expanded, resorts became multifunctional, and vast majority of guests are the locals inadequate infrastructure (accommodation, facilities, service, transportation), lack of competent staff, insufficient R&D adversely affect tourism in Georgia, particularly health tourism. Comprehensive developmental strategy could be the answer (to the existing challenges), and, mainly, passing of a new bill on tourism, regulating certification and licensing.

ПРОБЛЕМЫ ГЕОГРАФИЧЕСКОГО ИССЛЕДОВАНИЯ СПОРТА

В.Е.Неидзе

Институт Географии им. Вахушти Багратиони ТГУ
neidze@gmail.com

Физическая культура (включая ее органическую составную часть - спорт) в современных условиях, как сложный социально-экономический феномен общества, является важным элементом образа жизни, значение которого неуклонно возрастает во всех уголках мира. С 1980-ых годов в Грузии появились научные исследования в области географии спорта. В статье выявлены достаточно прочные методологические основы для географического анализа всех сторон спортивной деятельности и показан процесс становления новейшей субдисциплины отечественной общественной географии.

Физкультура и спорт (Ф и С) - часть общей культуры общества, одна из сфер социальной деятельности населения, направленная на укрепление здоровья, развитие физических способностей человека и использование их в условиях современного уровня развития общества. Физическая культура, подобно всем видам материальной культуры, возникла и развивалась вместе с зарождением и развитием человеческого общества. Параллельно с процессом технического развития уровня жизни, усложнялись и совершенствовались средства физического воспитания. Охота, культовые пляски, танцы, игры, упражнения по военно-физической подготовке, бои гладиаторов, средневековые рыцарские турниры, воспитание молодежи в Спарте - все это создало основу Ф и С. Однако, настоящее повсеместное организационное развитие многих видов спорта началось в XIX-XX вв.

Ныне Ф и С настолько глубоко проникли в жизнь людей, что стали существенно воздействовать на трудовую деятельность общества, на сферу потребления, общественные отношения, моду, образование и т.д., не говоря уже об их главной социальной функции - охране и укреплении здоровья человека. Следует отметить и обратный процесс: не только Ф и С воздействуют на общество, но и Ф и С в значительной степени подвержены сильному воздействию различных социальных явлений и природно-географической среды, изменяющихся во времени и от места к месту.

Благодаря своей неуклонно растущей значимости, Ф и С стали превращаться в объект изучения многих научных дисциплин. Стремительный подъем спортивного движения, которое является одним из наиболее широких современных социальных течений, потребовал ускоренного развития многих отраслей научного знания в спортивном аспекте. Создание основ науки о спорте подразумевает интеграцию с теми дисциплинами, которые формируются в результате вовлечения в сферу Ф и С знаний, сложившихся в иных научных дисциплинах. На Всемирных и Олимпийских научных конгрессах собираются ученые разных специальностей: философы, социологи, психологи, педагоги, биологи, медики, архитекторы и др. Однако до сих пор в перечне наук, призванных создать общую теорию - спортологию - отсутствует география - целый комплекс наук, имеющих непосредственное отношение ко многим проблемам Ф и С.

Сама проблема возникновения и распространения различных видов спорта в отдельных странах и регионах, требующая изучения данного процесса во времени и пространстве, содержит в себе как исторический, так и географический подходы. Ведь без применения методов географического анализа невозможно в полной мере познать картину спортивной деятельности страны. Ведь эта картина формируется на базе конкретных природных, историко-этнографических, социально-экономических и политических условий.

Давняя связь спорта с географией усматривается и в том, что географический фактор имеет решающее значение для возникновения и размещения определенных видов спорта. Например, горный и высокогорный ландшафт - основа развития горнолыжного спорта, альпинизма, скалолазания, холмистый – дельтапланеризма, карстовый - спелеоспорта и т.д. Равнинный рельеф при наличии соответствующих площадей требуется для видов авиационного спорта (самолетный, вертолетный, планерный, парашютный, авиамодельный), он нужен для строительства стадионов, ипподромов и т.д. Без акватории (море, река, озеро, водохранилище) немыслимо развитие таких видов водного спорта, как парусный, гребля, речной слалом, водномоторный, водные лыжи, подводный (плавание и ориентирование), судомодельный, спортивное рыболовство и др. Наличие тех или иных природных условий способствует развитию гольфа, кроссов, гонок, конькобежного и лыжного спорта, спортивного ориентирования, спортивного туризма, спортивной охоты и др. Тем не менее термин "география спорта", имеющий ход среди спортивных журналистов, не имеет под собой научно-содержательной основы и означает лишь территориальное распространение.

Рассмотрение спорта в качестве объекта географии имеет прочную методологическую основу. Она хорошо прослеживается в структуре географической парадигмы, охватывающей три "блока" [1]. Все материальные объекты и виды деятельности человека, непосредственно относящиеся к Ф и С, размещены и протекают в ландшафтной оболочке, отвечают важнейшим принципам географии (геоториальность, комплексность, конкретность, глобальность), картируются и влияют на развитие и состояние географической оболочки.

Аспектный охват спорта социально-экономической географией обширен и содержит целый ряд общих и региональных направлений:

- территориальная организация спортивной деятельности населения нуждается в исследовании природно-экологических, историко-этнических, социально-экономических и других факторов;

- демографическое изучение населения (контингент людей, активно занимающихся спортом: персонал, обслуживащий объекты Ф и С; людей, пользующихся зрелищными услугами спорта);

- выявление спортивных ресурсов региона, рассматриваемых как совокупность спортивно-природных, спортивно-демографических, спортивно-технических и информационных ресурсов в территориальном аспекте;

- прямые связи между спортом и отраслями хозяйства. К примеру, "спортивная индустрия" подразумевает оборудование для спортивных сооружений, разный спортинвентарь, спортивное обмундирование и т.д. На почве развития техники возникли стрелковый, радио-, автомобильный и другие виды спорта.

Непосредственную связь спорта с сельским хозяйством можно проследить на примере развития коневодства (конный спорт), скотоводства (коррида), собаководства (собачьи гонки и др.), птицеводства (голубиный спорт, петушиные бои) и др.

Географическое изучение механизма спортивных связей - комплексная научная проблема, затрагивающая политические, экономические, культурные, социальные, исторические и другие аспекты в жизни общества и народов.

География спорта представляется разделом социально-экономической (общественной) географии, изучающим размещение, территориальную организацию и региональные различия всей системы спортивной деятельности общества, ее место и роль в общественной и культурной жизни страны.

География спорта, как самостоятельная субдисциплина, начала вычлениваться в 80-ых годах прошлого столетия [2, 3]. Впервые в советской географической литературе нами была предпринята попытка научно обосновать и методически укрепить основы географии спорта. Серьезная заявка на разработку научных основ новой подветви географии была сделана в 1986г. [4], где были рассмотрены методы географического исследования географии спорта. По заявлению Ю.Липеца [5], становление пространственной парадигмы и значение темы "территориальная организация общества" обусловливает наличие прочной методологической основы для географического анализа всех сторон спортивной деятельности.

Не останавливаясь на разработке общих теоретических основ новой дисциплины, мы углубили свое исследование в различных территориальных разрезах. В урбогеографии было уделено особое внимание понятию спортивной функции города [6], а в коллективной монографии о Тбилиси [7] рассмотрена характеристика географии Ф и С города, проиллюстрированная схематической картой размещения спортивных объектов и сооружений. Позже исследования продолжились в региональном плане [8]. Для медико-географического атласа Грузии в 1990г. был составлен ряд карт, отразивших состояние Ф и С республики и уровень развития основных спортивных видов (возможна их демонстрация во время доклада. - В.Н.).

Процесс глобализации, охвативший все виды деятельности планеты, не обошел стороной и спорт. Международные спортивные организации, национальные федерации и клубы и проводимые ими соревнования охватили все континенты и объединили в едином спортивном порыве все население Земли.

Зимние и летние олимпийские игры, всемирные и континентальные чемпионаты и международные спортивные мероприятия (для людей разных возрастов, инвалидов) практически охватили все слои населения. Учитывая географические особенности территории, с 90-х годов прошлого века широко стали развиваться новые, экстремальные виды спорта, пользующиеся особой популярностью в мире: водные (дайвинг, водные лыжи, серфинг, рафтинг и др.), так называемые экстремальные виды спорта (спелеоспорт, экстремальные гонки), а также горные виды (альпинизм, скалолазание, сноуборд, горные лыжи и др.). Весьма популярны воздушные виды экстремального спорта (парашютный спорт, групповая акробатика, скайсерфинг, полеты на воздушных шарах, дельтапланеризм).

Совершенно очевидна тесная связь с определенными условиями географической среды, что усиливает зависимость спорта от территории, акватории, от воздушного пространства. Анализ отдельных факторов - природно-экологических, социально-экономических и др. – приобретает особое значение при планировании всех видов Физкультуры и Спорта на глобальной основе.

ЛИТЕРАТУРА

1. Алаев Э.Б. (1983). Социально-экономическая география. Понятийно-терминологический словарь. М., с.111.

2. Неидзе В.Е. (1982). Физкультура и спорт – объект географического изучения, Научн.совещ. АН ГССР, Тезисы докладов, Тб., с.53-54.

3. Неидзе В.Е. (1983). Физкультура и спорт - новая сфера географических исследований. Сборник тезисов докладов Всесоюзной теоретической конференции "Основные понятия, модель и методы общегеографических исследований". М., ИГАН СССР. с.38-39.

4. Неидзе В.Е. (1986). География спорта: проблемы и задачи исследования. "Известия АН СССР. Сер.геогр.", № 4, с.73-79.

5. Липец Ю.Г. (1987). Реферативный журнал. География. ВИНИТИ, М., № 1.

6. Неидзе В.Е. (1988). Спортивная функция города. Научн.конф. ИГАН ГССР, Тезисы докладов. Тб., с.41-42.

7. Неидзе В.Е. (1989). Подглава "Физкультура и спорт" из коллект. монографии "Тбилиси. Экономико-географическое исследование". Тб., с.220-225.

8. Неидзе В.Е. (1999). Подглава "Спорт" из коллект. монографии "Самегрело. Природа. Население. Хозяйство" (Географические аспекты). Тб. – Зугдиди, с.297-300.

İDMANIN COĞRAFİ TƏDQİQİ PROBLEMLƏRİ

V.Y.Neidze

Müasir şəraitdə bədən tərbiyəsi (əsas tərkib hissəsi olan idmanı da əhatə etməklə) cəmiyyətin mürəkkəb sosial-iqtisadi fenomeni kimi insan həyatının vacib elementi hesab edilir və onun əhəmiyyəti dünyanın hər bir yerində durmadan artır. 1980-ci ildən etibarən Gürcüstanda idman coğrafiyası sahəsində elmi tədqiqatlar aparılmağa başlanılmışdır. Məqalədə idman fəaliyyətinin bütün tərəflərinin coğrafi təhlili üçün metodoloji əsaslar irəli sürülmüş və ictimai coğrafiyanın müasir qanunauyğunluqlarının formalaşma prosesi göstərilmişdir.

PROBLEMS OF GEOGRAPHIC RESEARCH ON SPORT

V.E.Neidze

Physical culture (including its organic part Sports) in contemporary conditions, as a complicated socio-economical phenomenon of the society, is a significant element of lifestyle, the importance of which is steadily increasing all over the world. Scientific researches in the field of Geography of Sports appeared in Georgia starting from 1980s. This article reveals sufficiently strong methodological bases for the geographical analysis of all sides of sports activities and demonstrates the process of creation of the newest sub-discipline of domestic Social Geography.

TİBBİ COĞRAFİYA

ABŞERON YARIMADASINDA ONKOLOJİ XƏSTƏLİKLƏRİN ÖYRƏNİLMƏSİNİN TİBBİ-COĞRAFİ PROBLEMLƏRİ

S.İ.Rzayeva

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115
solmaz-isaq@mail.ru

Əhalinin sağlamlıq vəziyyəti ölkədə olan sosial-iqtisadi vəziyyətlə əlaqədardır. Böyük iqtisadi və sosial potensial səhiyyənin maddi-texniki bazası əhalinin sağlamlığının qorunmasına imkan verir. Məqalədə Abşeronun əhalisinin ekocoğrafi mühitlə əlaqədar olaraq sağlamlıq vəziyyəti, onkoloji xəstəliklərin yaranması və yayılmasının tibbi-coğrafi şəraiti təhlil olunur.

Hazırda dünya ictimaiyyətinin əsas məqsədi antropoekoloji sistemlərdə insanların sağlamlığının qorunmasıdır. Əhalinin sağlamlığına mənfi təsir göstərən ekoloji vəziyyət bilavasitə doğum və ölümün göstəriciləri ilə bağlıdır. Təsadüfü deyil ki, son zamanlar insanların sosial adaptasiya və ekopatologiyası sahəsində tibbi tədqiqatların sayı artmaqdadır. Tibb elmində ekoloji yanaşma o qədər aktual və mütləqdir ki, bu, insan ekologiyası və ekoloji tibbin qollarının yaranmasına səbəb olmuşdur. Səhiyyənin müasir sistemində bir sıra paradokslar vardır. Bunlar iki tamamilə əks-prinsipə əsaslanır. Məhz insanın ətraf mühitə təsiri nəticədə onun öz sağlamlığının itirilməsinə gətirib çıxarmışdır.

Xərçəngin inkişafına səbəb olan ənənəvi və müasir ictimai amillərin bütün diapazonunu əhatə etmək onun öyrənilməsi zamanı qarşıya çıxan bütün çətinlik və mübahisələrin öhdəsindən gəlmək deməkdir.

İnsan cəmiyyətinin formalaşdığı vaxtdan bu günə qədər bəşər övladı təmasda olduğu təbiətə bu və ya digər formada öz təsirini göstərməkdə davam edir. Zaman keçdikcə insanların təbiətə təsirinin forması və miqyası dəyişmiş, intensivliyi daha da artmışdır. Müasir dövrdə bəşəriyyətin təbii mühitə göstərdiyi təsirlərin ölçü və miqyası o qədər genişlənmişdir ki, bu, bütünlükdə planetimizi əhatə edən və çətin həll olunan qlobal ekoloji problemə çevrilmişdir. İqtisadi inkişaf nəticəsində biosferin çirklənməsi, onun insan amilinə təsiri böhran həddinə çatmışdır və bu, bütünlükdə bəşəriyyət üçün qaçılmaz fəlakətli nəticələrin törənməsi təhlükəsini yaradır. Hazırda cəmiyyətin iqtisadi və sosial inkişafı ilə əlaqədar ətraf mühitin çirklənməsi xəstəliklərin artmasına şərait yaratdığından onların qarşısını almaq üçün müəyyən tədbirlərin görülməsinə böyük ehtiyac vardır.

Abşeron yarımadası ərazisində ekoloji gərginliyin sürətlə artması, təbii ehtiyat potensialını nəzərə almaqla, regionda məskunlaşan əhalinin həyat və təsərrüfat fəaliyyətinin (mənzil, kənd təsərrüfatı istehsalı, təbiətin elementləri ilə balanslaşdırılmış sənaye istehsalı), istirahətinin optimallaşdırılması həllini tələb edən problemlərdəndir.

Ətraf mühitin təmizliyinin qənaətbəxş olmasının ən yüksək meyarı araşdırılan regionda yaşayan əhalinin sağlamlığı sayılır.

Məlumdur ki, bir çox xəstəliklərin mənşəyində insan orqanizmindəki mikroelementlərin tarazlığının pozulması durur. Mikroelement çatışmazlığı onların qida məhsullarındakı azlığı ilə bağlıdır. Bəzi elementlər bitki mənşəli qida məhsullarında çatışmır, eyni zamanda, onlar heyvan orqanizmində də azlıq təşkil edir ki, bu da insanda orqanizmin funksional səviyyəsinə bu və ya digər dərəcədə təsir göstərir.

Abşeron ərazisində neftlə çirklənmiş torpaqlarda ağır metalların miqdarının artması, mikroelementlərin miqdarının aşağı düşməsi müxtəlif xəstəliklərin, ən başlıcası, xərçəng xəstəliyinin artmasına səbəb olur.

Abşeron yarımadasında əhalinin sağlamlığına təsir edən amillərdən biri də Qaradağ Sement zavodundan çıxan zəhərli qazlardır. Zavodun ətrafında yaşayanlar insan sağlamlığı üçün təhlükəli sayılan karbon, xrom, manqan, qurğuşun və s-ni bir neçə dəfə artıq qəbul etməli olurlar. Bu isə əhalidə (xüsusilə zavodda işləyənlərdə) zəhərlənmələrə səbəb olur, uzun müddət təsir etdikdə isə ağciyər xərçənginə çevrilir.

Ətraf mühitə atılan zəhərli kimyəvi maddələrin qıcıqlandırıcı xassələri ilə əlaqədar Sumqayıt şəhərində dəri, əsəb sistemi, tənəffüs orqanları, vaxtından əvvəl doğuş və anemiya xəstəlikləri və ölüm halları yüksək olur. Abşeron yarımadasının əhalisi kükürd anhidridi, azot oksidi, xlor birləşmələri, fenol, civə kimi təhlükəli kimyəvi maddələrlə müxtəlif qatılıqda çirklənmiş mühitlə əhatə olunmuşdur. Belə yüksək qatılıqlı maddələr mərkəzi sinir sistemini, qaraciyər, qida yolu, doğum funksiyasını pozur, nəfəs yollarının xroniki xəstələnməsinə, hipertoniyaya, görmə qabiliyyətinin zəifləməsinə, xərçəngin artmasına səbəb olur və vaxtından qabaq qocalıqla nəticələnir.

Abşeronun ərazisində ən çox çirklənən, ekoloji cəhətdən daha gərgin olan şəhərlər Bakı və Sumqayıtdır. Bakı neftçıxarmanın mərkəzi olmaqla yanaşı, həm də neftayırma sənayesinin və neft maşınqayırmasının mərkəzidir. Bakı mədənlərindən indiyə qədər 1,5 mlrd. tondan artıq neft çıxarılmışdır. Bakı müəssisələrində 40 adda elektrotexnika və cihazqayırma məhsulu istehsal olunur. Respublika sənayesinin 60-65%-i, o cümlədən neft məhsulunun 90%-i, elektrik enerjisinin 20%-i, neft emalının 92%-i, yüngül və yeyinti sənaye məhsullarının 50%-ə qədəri Bakıda istehsal olunur. Müxtəlif sənaye müəssisələrindən atılan maye, qaz və bərk maddələr, şəhər əhalisinin kommunal xidmətlər ilə əlaqədar axıdılan çirkli sular, nəqliyyatın intensiv inkişaf etməsi və s. hesabına Bakı şəhəri həddindən artıq çirklənmişdir. [4].

Bakı sanitariya nəzarəti orqanları tərəfindən şəhər əhalisi üzrə aparılmış statistik təhlil göstərir ki, Abşeron yarımadasında yerləşən göllərin insan orqanizminə mənfi təsiri az deyildir. Belə ki, ilin isti aylarında göllərin suyunun buxarlanması ilə əlaqədar olaraq atmosferə külli miqdarda zərərli maddələr (karbohidrogenlər, turşu, qələvi buxarları, fenol və s.) yayılır. Küləyin istiqamətindən asılı olaraq zərərli maddələrlə zəngin olan hava kütləsi yarımadada yayılaraq əhali arasında müxtəlif xəstəliklərin, o cümlədən xərçəng xəstəliyinin əmələ gəlməsində mühüm rol oynayır. [5].

Milli Onkologiya Mərkəzinin apardığı tədqiqatlara əsasən, xərçəng xəstəliyinə tutulanların çoxu Bakı şəhərində yaşayır. Bunun da əsas səbəbi paytaxtda əhalinin sıxlığı və ekoloji durumun gərgin olması, ərzaq məhsullarının standartlara uyğun olmaması, şəhərdə təmiz hava ilə təminatda problemlərlə bağlıdır. Burada radiasiya faktorunun da rolu böyükdür [6].

Abşeron yarımadasında hava hövzəsinə atılan çirkləndiricilərin 75-80%-i Bakı sənaye müəssisələrinin, 20-25%-i Sumqayıt sənaye kompleksinin payına düşür.

Abşeronda Sumqayıt da çirklənmiş şəhərdir. Dünyada Sumqayıt kimi ən kiçik əraziyə malik olan elə bir şəhər yoxdur ki, orada üç xlor istehsalı sahəsi fəaliyyət göstərsin. Şəhərin neft-kimya kompleksi müəssisələrində istifadə olunan 265 adda xammalın 60-dan çoxunun məhsulu əsasən I–IV dərəcəli təhlükəlilik sinfinə aid olan zərərli maddələrdir [4].

Aparılan təhlillər göstərir ki, Sumqayıt şəhərində 1990-cı ilin əvvəlində xərçəng xəstəliyinin yayılması səviyyəsi respublikanın digər əraziləri ilə müqayisədə kifayət qədər yüksək olmuşdur. Şəhər əhalisinin həyat fəaliyyəti üzərində aparılan müşahidələrin nəticələrinə görə, burada yaşayan insanların siqaretdən istifadə etməsi və qidalanma vərdişləri respublikanın digər regionlarından hansısa xüsusiyyətinə görə fərqlənmir. Ona görə Sumqayıtda xərçəng xəstəliyinin çox olmasının səbəbi həyat tərzinə görə deyil, şəhərdə fəaliyyət göstərən sənaye müəssisələri ilə əlaqədardır. Şəhərdə sidik kisəsinin və ağciyər orqanlarının xərçəngi xəstəlikləri daha geniş yayılıb. Sumqayıtda olan zavodlardan ətraf mühitə atılan maddələrin konserogen mənşəli olması insanların sağlamlığı və ətraf mühitin keyfiyyəti arasında olan birbaşa əlaqəni sübut edir. Sumqayıtda və eləcə də Azərbaycanın digər ərazilərində xərçəng xəstəliyi tendesiyası 1990-cı illərin əvvəllərindən azalmağa başlayıb (tendesiya həmçinin qonşu ölkələrdə - Ermənistan və Gürcüstanda da müşahidə edilir). Bu isə Sovet hakimiyyətinin süqutu, iqtisadiyyat və idarəçilikdə baş verən dəyişikliklərlə əlaqədardır [5].

Abşeronun şəhər və qəsəbələrində xərçəng ilə xəstələnmənin cəmi orta respublika göstəricisindən çoxdur və 100000 nəfər əhaliyə kişi və qadınlar arasında çox böyük fərqlər yaranır. Ölümün strukturunda süd vəzisinin xərçəngi üstünlük təşkil edir. Neft, neft-kimya, metallurgiya və digər sənaye sahələrində, qaynaq sexlərində çalışan fəhlələr arasında daha çox ağciyərin xərçəngi müşahidə edilir.

Müasir dövrdə Abşeronda sənayenin sürətlə inkişafı, infrastrukturun genişlənməsi və insanın fəaliyyət göstərdiyi sahələrə çoxlu miqdarda kimyəvi elementlərin daxil olması ilə əlaqədar olaraq ətraf mühitin ağır metallarla çirklənməsi daha da güclənmişdir. Belə çirklənmələr kəskin ekoloji problemə çevrilmiş, onkoloji xəstəliklərin yaranmasına səbəb olmuşdur.

Qara metallurgiya kombinatları – karbohidrogenlər-benzo-oirerin və xrom oksidi aerozolunun təsiri ağciyər xərçəngi xəstəliyinin artmasına səbəb olur, ölüm hallarının artması baş verir.

Əlvan metallurgiya - flor birləşmələri – xərçəng xəstəliyinin yaranmasına səbəb olur.

Nikel və kobalt istehsalı müəssisələri – polimetal tozları, nikel və onun birləşmələrinin aerozolları, nikel karbonili, alüminium istehsalı müəssisələri, qazşəkilli flor, ümumi flor, hidrogen-florid və flor tərkibli duzlar (silisium-florid, alüminium-florid), xrom oksidi aerozolları, kömür tozu, qatranlı maddələr tərkibində benza(a) piren, karbon oksidi və dioksidi, kükürd qazı olan karbohidrogenlər –

ağciyər xərçəngi xəstəlikləri ölüm hallarının artmasına gətirib çıxarır.

Neft-kimya sənayesi müəssisələri - hidrogensulfid və karbohidrogenlər, kükürd qazı, sulfatturşusu, karbon oksidi, ammonyak, fend, benzol, sintetik yağlı turşular, olefinlər, aseton, parafinlər, spirtlər ─ ağciyər, bronx, plevra xərçənginin çoxalmasına səbəb olur.

Süni kauçuk istehsalı müəssisələri – mürəkkəb kimyəvi tərkib tullantıları-xlor-vinil, vinilxlorid, dixloretan, metilmetakrilat, nutanol, aseton-sianhidrid, metakril turşusu, sulfid anhidridi fosgen, xlorbenzol, karbopaktan və s. əlavə məhsullar: diemerlər, trimerlər, oliqomerlər ─ xərçəng xəstəliklərinin çoxalmasına səbəb olur.

Sement istehsalı müəssisələri - tərkibində silisium oksidi, kalsium, maqnezium, dəmir, arsen, civə, qurğuşun, flor və flor birləşmələri olan tozlar – ağciyər xərçənginin yaranmasına səbəb olur.

Asbest və asbest-sement istehsalı müəssisələri - tərkibində asbest lifi olan asbest tozu – xərçəng xəstəliyinin yaranmasına səbəb olur.

Asfalt istehsalı müəssisələri – tərkibində benzo (a) piren buxarı, sulfid qazları olan toz qurum – xərçəng xəstəliyinin yaranmasına səbəb olur.

Əhəng istehsalı müəssisələri – toz benzo(a) piren- xərçəngə səbəb olur.

Avtomobil nəqliyyatı müəssisələri – karbohidrogenlər, o cümlədən benzo (a) piren – bədxassəli yeni törəmələrin (şişlərin) əmələ gəlməsinə səbəb olur. Statistikaya əsasən, hazırda Azərbaycanda 1 milyona yaxın avtomobil var. Onun 600 mini Bakı şəhərinin payına düşür. Beynəlxalq Tədqiqat Biznes Qrupunun keçirdiyi sorğuya əsasən, bu avtomobillərdən 41,4 faizi Rusiya istehsalıdır. Təşkilatın araşdırmalarına görə, 100 litr yanan benzindən atmosferə 20 kiloqram karbon 4-oksid qazı buraxılır. Eyni zamanda, ildə bir avtomobil atmosferə təqribən 800 kiloqram dəm qazı, 40 kiloqram azot oksidi və 200 kiloqram karbon qazı buraxır. Əsas səs boğucularından çıxan konserogen maddələr benzopren və digər karbohidrogenlərdir ki, bunlar da ağciyər xərcəngi yaradır (şəkil 1).

Şəkil 1. Bakı şəhərində əhalidə qeydə alınan onkoloji xəstəliklərin sayı

Hazırda respublikamızda Milli Onkologiya Mərkəzində dünya standartlarına uyğun səviyyədə müalicə aparılsa da, ondan hamı istifadə edə bilmir. İlk növbədə, əhalinin maddi durumu nəzərə alınmalıdır, sonra rayon yerlərində savadlı həkimlərin işləməsinə böyük ehtiyac vardır: belə ki, ilk diaqnozu rayonda onlar qoyurlar və əks-müalicələrə çox yer verirlər, rayonlarda tibb məntəqələrinin, xəstəxanaların lazımi səviyyədə olmaması, şəhərlərdə havanın çox çirklənməsi, qida məhsullarının standartlara uyğun olmaması, səs-küyün çox olması və s. kimi neqativ halların qarşısı alınarsa, demək olar ki, əhali arasında bu xəstəliyin azalmasına kömək ola bilər. Ölkəyə gətirilən qidalara, dərman preaparatlarına, kosmetik vasitələrə nəzarət daha güclü olmalıdır. Xəstələrin vaxtında peşəkar mütəxəsislərə müraciət etmələrinə şərait yaratmaq lazımdır. Bu proseslər yüzlərlə insanın həyatını xilas edə bilər, ömrünü uzadar. Ölkədə vaxtaşırı onkoloji xəstəliklərə gətirib çıxaran səbəblər barədə əhali məlumatlandırılmalı, maarifləndirmə işləri aparılmalı, kütləvi informasiya vasitələri bu işin təşkilində daha aktiv iştirak etməli, xərçəng xəstəliyi barədə əhaliyə geniş məlumat verilməlidir. İnsanlar öz sağlamlıqlarına laqeyd qalmayıb vaxtında müalicə olunsalar, mütəmadi olaraq, həkim nəzarəti altında olsalar, xəstəliklərin qarşısı alına bilər.

Xərçəng alimlər üçün, hələ ki, müəmmalı bir xəstəlikdir. Bu xəstəliyin müalicəsini tapmaqda mütəxəssislər müəyyən çətinliklərlə rastlaşırlar. Ona görə də bütün dünya alimləri sözü gedən xəstəliyin müalicəsini tapmaq üçün çalışırlar. Tez-tez bir araya gələn alimlər bu dəfə də 14 Mart 2015-ci ildə Bakıda Onkoloji Beynəlxalq Elmi Konfrans keçirdilər. İki gün davam edən konfrans Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi və ABŞ-ın MD Anderson Xərçəng Mərkəzi tərəfindən təşkil olunmuşdu. Konfransda Xərçəng Nəzarəti üzrə Beynəlxalq Birliyin prezidenti, Türkiyənin Hacettepe Universitetinin professoru Tezer Kutluk "Pediatrik xərçənglə qlobal mübarizə: imkanlar və çətinliklər" mövzusunda məruzə ilə çıxış etdi. T.Kutluk hər il dünyada 200 min uşaqda xərçəng xəstəliyinin aşkarlandığını söylədi: "Türkiyədə hər il 3 min civarında uşaqda xərçəng aşkarlanır. Azərbaycan əhalisinin 9 milyondan çox olduğunu nəzərə alsaq, hər il sizin ölkədə təxminən 1000 nəfər uşaqda xərçəng xəstəliyinin aşkarlandığını deyə bilərik. 60-cı illərə nisbətən uşaqlarda xərçəngin sağalma faizi 80-85-ə qalxıb. Xərçənglə mübarizənin ən operativ üsulu bu xəstəlikdən əziyyət çəkənlərin qeydiyyatını aparmaqdır. Biz Türkiyədə bu metodu artıq mənim rəhbərliyim altında tətbiq etmişik. Bunun üçün sayt yaradılıb və mən həmin saytda xərçəng xəstəsi olan uşaqların qeydiyyatını aparıb, daha sonra analizlər aparıram. O cümlədən hazırda Türkiyənin 14 vilayətində xərçəngdən əziyyət çəkənlərin qeydiyyatı aparılır. Bizim Səhiyyə Nazirliyi artıq bütün ölkə boyu bu qeydiyyatı aparmaq barədə düşünür. Çox təəssüflər olsun ki, hər il dünyada 14 milyon insanda xərçəng aşkarlanır. 14 milyon insandan isə 8 milyonu həyatını itirir. 2030-cu ildə xərçəng xəstələrinin sayının 21 milyona çatacağı gözlənilir. Birləşmiş Millətlər Təşkilatı Karib dənizi hövzəsindəki ölkələrin təşəbbüsü ilə 2025-ci ilə qədər xərçəng, diabet və digər yoluxucu olmayan xəstəlikləri 25 faiz azaltmaq haqda qərar qəbul edib".

Beləliklə, respublikada qeydə alınmış ümumi onkoloji xəstəliklərin cox böyük hissəsi Abşeron yarımadasının payına düşür. Bunun da əsas səbəbi paytaxda əhalinin sıxlığı, yeni tikintilər, ərzaq məhsullarının standartlara uyğun olmaması, şəhərdə havanın çirkli olması ilə bağlıdır. Burada radiasiya faktoru da xərçəngin yayılmasında mühüm rol oynayır. Bunu aşağıdakı cədvəldən də aydın görmək olur.

Cədvəl 1

Bakı şəhərinin inzibati rayonlarında onkoloji xəstəlilərin yayılması

Bakı şəhərinin inzibati rayonları							
Onkoloji xəstəliklər (yeni törəmələr)					**Əhalinin hər 10000 nəfərinə görə**		
Sıra №si	**Rayonlar**	**2007**	**2010**	**2013**	**2007**	**2010**	**2013**
1.	Binəqədi	394	342	370	17,7	14,1	14,6
2.	Xəzər	179	172	202	14,4	10,1	12,7
3.	Xətai	329	419	484	14,1	16,8	18,3
4.	Qaradağ	112	135	295	10,8	12,3	25,5
5.	Nərimanov	164	187	265	10,5	11,4	15,5
6.	Nəsimi	191	152	174	9,4	7,2	8
7.	Nizami	455	519	677	26,5	28,7	35,6
8.	Sabunçu	282	324	454	14,1	14,5	19,5
9.	Səbail	201	193	248	25	21	26
10.	Suraxanı	217	289	224	12,1	14,5	10,7
11.	Yasamal	482	363	394	20,9	15,5	16,3
12.	Pirallahı			32			17,5

Ekoloji zərərli faktorlardan (şüalanma və s.) uzaq olmaq, qidalara diqqət vermək, rasiona pomidor, kələm, meyvə və giləmeyvələr, soğan, paxlalılar daxil etmək, bitki yağlarına üstünlük vermək, eləcə də çəkiyə diqqət yetirmək, spirtli içki və nikotindən uzaq olmaq, fiziki işlərlə məşğul olmaq olduqca faydalıdır, cünki bunlar xərçəng xəstəliyinə tutulma riskini azaldır.

Ədəbiyyat:

1. ƏYYUBOV Ə.C, MUSAYEV Z.F, KƏRİMOV A.Ə, HACIYEV G.Y, MUSTAFAYEVA V.T. 1997. Bakı və Abşeron yarımadasının iqlimi və insan səhhəti. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. Səh.66-68.

2. ƏHMƏDOV A.H. 2003. Abşeron yarımadasının landşaftlarında ağır metalların yayılması və onların eko-

loji qiymətləndirilməsi. "Təbii sərvətlərin qiymətləndirilməsi və təbiətdən istifadə" mövzusunda elmi-praktik konfransın tezisləri. Bakı. səh. 114-118.

3. QAZİYEV A.P. 2005. Azərbaycanda bədxassəli şişlərin epidemiologiyası, tibbi, demoqrafik və sosial - iqtisadi aspektləri. Onkoloji mərkəz. Bakı. səh. 54-58.

4. HÜSEYNLİ N.İ. 2009. "Abşeron yarımadasının müasir landşaftları və ekoloji problemləri." Avtoreferat. Bakı.

5. RZAYEVA S.İ. 2012. Bakı və Sumqayıt şəhərlərində atmosfer havasının müasir ekoloji vəziyyəti və onun əhalinin sağlamlığına təsiri. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, XVII cild. Bakı. səh. 512-516.

6. RZAYEVA S.İ. 2013. Respublikamızda onkoloji xəstəliklərin yayılma coğrafiyası Fiziki coğrafiya kafedrasının 70 və Hidrometeorologiya kafedrasının 40 illik yubileyinə həsr olunmuş respublika elmi konfransının materialları . Bakı. səh. 439-444.

7. www.Onkologiya.az (2013).

8. Azərbaycanın əhalisi (DSK). (2000-2012).

9. Azərbaycan Resp. Coğrafiyası II cild. Bakı-2015, 328 s.

МЕДИКО-ГЕОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ОНКОЛОГИЧЕСКИХ ЗАБОЛЕВАНИЙ НА АБШЕРОНСКОМ ПОЛУОСТРОВЕ

С.И.Рзаева

В статье анализируется состояние здоровья населения, связанное с экологическими условиями Абшерона. Особое внимание уделено изучению происхождения, распространения и экогеографической оценке онкологических заболеваний на полуострове. Здоровье людей во многом обусловлено экономическим состоянием в стране. Интенсивное развитие промышленности, с одной стороны, является положительным моментом, а с другой-отрицательным.

MEDICAL - GEOGRAPHICAL PROBLEMS THE STUDY OF ONCOLOGICAL DISEASES İN THE ABSHERON PENINSULA

S.İ.Rzayeva

The state of population′s health in connection with ecological conditions of Absheron is analysed in the article. A particular attention is given to origin, distribution and ecogeographical evaluation of cancer in the peninsula. It is known that people's health is largely conditioned by economic condition of the country. Intensive development of the industry, on the one hand , is a positive thing , and on the other hand negative.

COĞRAFİ TƏHSİL

LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN ƏRAZİ TƏŞKİLİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏRİN ÖYRƏNİLMƏSİ

F.Q.Niftiyev

AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu
AZ 1143, Bakı ş., H. Cavid pr., 115

Məqalə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda ümumtəhsil məktəblərinin ərazi təşkilinə və inkişafına, bu sahənin müəssisələrinin ərazi baxımdan yerləşdirilməsi məsələlərinə həsr olunmuşdur. Məqalədə həmçinin region daxilində onların səmərəli fəaliyyət göstərməsinə təsir göstərən təbii-coğrafi, iqtisadi və sosial amillər araşdırılır.

Təhsil sahəsi iqtisadiyyatın tələbatına uyğun ixtisaslı kadrların hazırlanması məqsədini güdür. Ölkə əhalisinin təhsil və eyni zamanda, mədəni səviyyəsinin yüksəlməsi təhsilin keyfiyyətindən, ümumtəhsil müəssisələrində tədris prosesinin səmərəli təşkilindən asılıdır. Təhsilin keyfiyyətinin artırılması ölkənin gələcək elmi-texniki potensialının, ümumi sosial-iqtisadi inkişaf səviyyəsinin artırılmasına, regionların gələcək inkişafına təsir göstərən çox mühüm amildir. Təhsil sahəsi ümumi iqtisadi sistemin, o cümlədən istehsalın inkişafına, elmi-texniki tərəqqiyə, eyni zamanda ixtisaslı, dünyagörüşlü kadrların yetişdirilməsi və hazırlanması üçün zəruri olan peşə biliklərinin verilməsinə xidmət edir. Bununla əlaqədar bəzi elmi ədəbiyyatlarda ümumi daxili məhsulda təhsilin rolu və ya əksinə, ÜDM-in artımı ilə təhsilə ayrılan vəsaitin çoxalması problemləri qarşılıqlı öyrənilir.

Təhsil mürəkkəb proses olaraq ardıcıl və kompleks təşkil edilir. Bu sistemin daxili elementləri ibtidai, orta, ali təhsil müəssisələri olmaqla, vahid məqsədə yönəldilir. Ümumiyyətlə, təhsil sistemi ümumi iqtisadi sistemin tərkib hissəsi olmaqla, ölkədə əhalinin sayı, onun məşğulluğu, ərazicə yerləşməsi problemlərinin həll olunmasında vacib amil sayılır. Çünki təhsilin müasir standartlara uyğun təşkili və idarə olunması, kadrların dünya ölkələri tərəfindən qəbul olunması və təhsilin insanların həyat səviyyəsindəki rolu ilə müəyyənləşir. Təhsil ictimai əmək bölgüsündə və ya bazarın formalaşmasında xüsusi çəkisinə görə hər bir ölkədə mühüm rol oynayır. Təhsil sahəsində işləyənlərin sayı, onların əmək haqqı, təhsilə ayrılan vəsait, təhsil alanların ümumi sayı, təhsilin mülkiyyət formalarına görə bölgüsü, təhsilin birbaşa və dolayı yolla ÜDM-in, iş qüvvəsinin, istehlakın formalaşmasında rolu bu sferanın iqtisadi rolunu müəyyən edir [5, s.153].

Yaponiyanın müasir yüksək iqtisadi inkişafında lokomotiv rolunu təhsil sistemi oynamışdır. Yaponiyada təhsil sistemi yüksək səviyyədə təşkil olunmaqla, bugünkü yeni və yüksək səviyyəli texnologiyaların və böyük iqtisadi potensialın əldə olunmasına mühüm təsir göstərmişdir. Qeyd olunanlar ölkənin və onun regionlarının iqtisadi gücünün möhkəmlənməsində, həyat tərzinin yaxşılaşdırılmasında təhsilin bilavasitə oynadığı roldan xəbər verir [1, s. 184].

Təhsil prosesi müasir dövrdə çoxpilləli sistem kimi fəaliyyət göstərir. Azərbaycanın təhsil sisteminə məktəbəqədər təhsil müəssisələri, ümumtəhsil müəssisələri, orta məktəblər, peşə məktəbləri, orta ixtisas məktəbləri və ali təhsil müəssisələri daxildir. Birinci pillədə məktəbəqədər müəssisələrin fəaliyyətinin planlaşması, ikinci pillədə ümumtəhsil məktəb, lisey, gimnaziya sisteminin planlaşması və tənzimlənməsi, üçüncü pillədə isə ali və orta təhsil səviyyəsi nəzərdə tutulur [5, s.158].

Təhsil müəssisələrinin əksəriyyətini ümumtəhsil məktəbləri təşkil edir. Ümumtəhsil məktəbləri gələcəyin ixtisaslı kadrlarının formalaşmasında mühüm rol oynayır. Azərbaycandakı orta ümumtəhsil məktəbləri 9 və ya 11 illik təhsili əhatə edir.

90-cı illərin sonlarında və ondan sonrakı illərdə əhalinin yaş strukturunda gedən dəyişikliklərlə – əhalinin doğum əmsalının azalması və orta məktəb yaşında (6-17 yaş) olanların xüsusi çəkisinin aşağı enməsi ilə əlaqədar ümumtəhsil məktəblərində oxuyanların sayında azalma müşahidə olunmuşdur. Bu azalma Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda da baş vermişdir.

Dövlət Statistika Komitəsinin materiallarının təhlili göstərir ki, 1995-2012-ci illərdə gündüz ümumtəhsil məktəblərində oxuyanların sayı Astara rayonunda 19773 şagirddən 16592 şagirdə, yaxud 19,2%, Cəlilabad rayonunda 35089-dan 28316-ə və ya 23,9%, Lerik rayonunda 15225-dən 8294-ə və ya 83,6%, Lənkəran rayonunda 39236-dan

28665-ə və ya 36,9%, Masallı rayonunda 36201-dən 26925-ə və ya 34,5%, Yardımlı rayonunda 11637-dən 895-ə və ya 13,0% enmişdir. Göründüyü kimi, şagirdlərin azalması daha çox Lerik rayonunda, həm də Lənkəran və Masallı rayonlarında baş vermişdir. Təhlil olunan dövrdə Lənkəran-Astara iqtisadi rayonunda müvafiq göstərici 157161 şagirddən 109687 şagirdə, yəni 43,3% enmişdir.

Ümumtəhsil müəssisələrində təhsil alan şagirdlər arasında ikinci və üçüncü növbədə oxuyanların xüsusi çəkisində də müəyyən dəyişikliklər baş verir. İki və üçnövbəli tədrisin məhdudlaşdırılması tədris prosesinin keyfiyyətinə müsbət təsir göstərən amildir. Bu baxımdan iqtisadi-coğrafi rayonda müsbət tendensiya müşahidə olunur. Belə ki, Dövlət Statistika Komitəsinin materiallarına əsasən, 1995-2012-ci illərdə ikinci və üçüncü növbədə oxuyan şagirdlərin payı Astara rayonunda 22,8%-dən 11,3%-ə, Cəlilabad rayonunda 41,9%-dən 28,0%-ə, Lerik rayonunda 34,4%-dən 18,6%-ə, Lənkəran rayonunda 41,6%-dən 20,0%-ə, Masallı rayonunda 27,0%-dən 10,3%-ə, Yardımlı rayonunda isə 39,9%-dən 12,6%-ə enmişdir. Beləliklə, bütün inzibati rayonlarda göstərilən qrupdan olan şagirdlərin payında əhəmiyyətli (2 dəfəyə yaxın və daha çox) azalma baş vermişdir. Bu, iqtisadi rayonda yeni məktəblərin tikintisinin və köhnə məktəblərin rekonstruksiyasının aparılması, bununla da məktəb şəbəkəsinin şagird tutumunun artırılmasının nəticəsidir. Belə ki, regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilmiş dövlət proqramlarına uyğun olaraq, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda çoxlu sayda ümumtəhsil müəssisələri tikilib istifadəyə verilmişdir [3,4].

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda ümumtəhsil müəssisələrində tədris prosesinin keyfiyyətli təşkil olunmasına, məktəblərin böyüklüyünə və tutumuna bir çox amillər, o cümlədən elmi-texniki tərəqqi şəraitində biliklərin yenilənməsi və dinamik olaraq daim genişlənməsi, əməyin xarakterində və təsərrüfat münasibətlərində gedən dəyişikliklər, yerli iqtisadi şəraitin özünəməxsus cəhətləri, bir sıra sosial amillər təsir göstərir. Sosial-iqtisadi və onunla bağlı olan iqtisadi-coğrafi və təşkilat-pedaqoji faktorlar birbaşa olaraq ümumtəhsil müəssisələr şəbəkəsinə və onun regiondaxili konfiqurasiyasına təsir edir. Buna görə də sosial infrastrukturun bu mühüm sahəsinin tədqiqi zamanı fiziki-coğrafi, demoqrafik və məskunlaşma şəraitinin, təsərrüfatın və nəqliyyat şəbəkəsinin ərazi təşkilinin nəzərə alınması tələb olunur.

Ümumtəhsil müəssisələrinin inkişafı və təkmilləşdirilməsi həm şəhərlərin ərazisində, həm də kənd yerlərində yerli şəraitin mümkün qədər çox nəzərə alınmasını şərtləndirir. Məktəblərin yerləşdirilməsi, onların daha rasional ərazi təşkili əhali miqrasiyasının xarakterinə, məşğulluğun təmin olunmasına və sosial inkişafdakı qeyri-proporsionallığın aradan qaldırılmasına təsir göstərir [6]. Bəzi lokal ərazilərdə orta məktəblərin məskunlaşmanın xarakterinə və planlaşdırmanın təşkilinə müvafiq olmayan həddən artıq konsentrasiyası kapital qoyuluşu prosesinin səmərəli nəticə verməsini çətinləşdirir. Məktəblərin səmərəli ərazi təşkili ilə bağlı problemlər iri rayon mərkəzləri olan Lənkəran və Cəlilabad kimi şəhərlər üçün daha aktual əhəmiyyət kəsb edir.

Şəhər ərazilərinin müəyyən hissələrində yeni məktəblərin şəhər ərazisinin morfoloji xüsusiyyətləri nəzər alınmadan tikilməsi yaxınlıqda yeni tikililərin yaranmasına səbəb olur. Eyni zamanda, iqtisadi-coğrafi rayondakı iri kəndlərin bəzilərində iki və daha artıq sayda məktəb fəaliyyət göstərir ki, onlar da kəndin əhalisinin sürətlə artması şəraitində planlaşma strukturuna qeyri-uyğundur. Bu baxımdan məktəblərin inkişafının və ərazi təşkilinin iqtisadi-coğrafi tədqiqi məsələsində bu prosesə təsir göstərən amillərin öyrənilməsi, həmçinin regional inkişaf imkanlarını, məhsuldar qüvvələri və məskunlaşma sistemini nəzərə almaqla, ümumtəhsil məktəblərinin əsas problemlərinin müəyyən olunması mühüm rol oynamalıdır.

Təbii-coğrafi amillər arasında relyef amili məktəblərin inkişafına praktiki olaraq güclü maneə yaratmasa da, regionun sosial-iqtisadi sisteminin tərkib hissəsi olan sənaye, nəqliyyat və tikinti kimi sahələrin inkişafına müəyyən qədər təsir göstərir. Bu da təhsil müəssisələrinin fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun qərb və cənub-qərb hissələrində dağlıq ərazilərin geniş yayılması ilə əlaqədar şagirdlərin xüsusilə qış mövsümündə başqa kəndlərdə yerləşən məktəblərə gedib-gəlməsi çətinləşir, müvafiq nəqliyyat xərcləri artır və hətta internat məktəblərinin təşkilinə ehtiyac yaranır. Buna görə də bəzi tədqiqatçıların qeyd etdiyi kimi, məktəb şəbəkəsinin idarəetmə strukturunun daha çevik, elastik fəaliyyət göstərməsi, ərazi planlaşdırmasının təkmilləşdirilməsi şəraitində rayon məktəb şəbəkələrinin müasir tələblər səviyyəsində qurulması vacibdir. Bu zaman problemə geodemoqrafik aspektdən yanaşma da zəruridir. Belə ki, rayon məktəb şəbəkəsinin səmərəli ərazi təşkili uşaqların sayını və tərkibini, əhalinin miqrasiyasını nəzərə almağı tələb edir. Təhsil sahəsinin və onun müəssisələrinin ərazi təşkili yerli təsərrüfatın strukturu ilə müqayisədə ziddiyyət təşkil etməməlidir.

Qeyd etmək lazımdır ki, regionların inkişafına dair müxtəlif dövlət proqramlarının reallaşması ilə əlaqədar Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda məktəblərin yenidən bərpası, əsaslı təmiri və yaxud yenilərinin tikilməsi istiqamətində xeyli əhəmiyyətli işlər görülmüşdür. Bununla belə, regionda ümumtəhsil müəssisələrinin inkişafı ilə bağlı bir sıra problemlər gələcəkdə öz həllini tapmalıdır. Bununla əlaqədar aşağıdakı bəzi məsələləri qeyd etmək olar.

Kənd məktəblərində oxuyan şagirdlərin sayı şəhərlərdəkinə nisbətən çoxdur. Lakin iqtisadi-coğrafi rayonun şəhərlərində və qəsəbələrin çoxunda təhsil müəssisələrinin müəllim heyətinə olan tələbatı əsasən ödənildiyi halda, kənd yaşayış məntəqələrində, xüsusən Yardımlı, Masallı, Lerik rayonları üzrə müəyyən fənlərdən müəllim çatışmazlığı problemi özünü göstərir. Bəzi hallarda müəllim çatışmazlığı ilə əlaqədar həmin sənətin sahibləri öz ixtisasına uyğun olmayan fənlərdən dərs keçməyə məcbur olurlar. Bəzən hətta iri kənd məktəblərinin daha savadlı müəllim heyəti qonşu, yaxud uzaq kəndlərdən gəlir və bu amil soyuq mövsümdə müəllimlərin işə gecikməsi, bəzən dərs buraxması, bununla da tədris prosesində fasilə və ləngimələrin yaranmasına gətirib çıxarır.

Məktəblərin şagird tutumu və onlarda oxuyan şagirdlərin xüsusi çəkisi əhalinin yaş strukturu ilə həmahəng olmalıdır. Lakin məskunlaşmanın coğrafiyası ilə məktəb şəbəkəsinin yerləşməsi arasında disproporsiyalar mövcuddur. Tədqiqatlar göstərir ki, dağlıq ərazilərdə kəndlərin ərazi üzrə pərakəndə və seyrək paylanması səbəbindən həmin arealda sosial infrastruktur sahələrinin zəif inkişafı müşahidə olunur, bu da öz növbəsində məktəblərin şagirdlərlə zəruri sayda təmin olunmasına, pedaqoji kadrların səmərəli istifadəsinə mane olan amildir.

Müasir dövrdə tədqiq olunan iqtisadi-coğrafi rayonda nəinki kənd məktəblərinin, hətta bəzi qəsəbə və şəhər məktəblərində müvafiq avadanlıqlarla təchiz olunmuş sinif otaqlarına, coğrafiya, biologiya, fizika, kimya və s. kabinetlərinə, müasir və rahat kitabxanalara, habelə keyfiyyətli idman meydançalarına daha geniş ehtiyac vardır.

Bir çox şəhər məktəblərində ikinövbəli tədris prosesinin aparılması əhalinin nisbətən sürətlə artdığı bir şəraitdə şagirdlərin sayının çox, sinif otaqlarının və müəllimlərinin isə az olması ilə əlaqədardır. Şagirdlərin bir hissəsinin hələ də özləri arzu etmədikləri halda ikinci növbədə oxumaları onların evə gec, yorğun qayıtmasına səbəb olur və əlavə problemlər yaradır. Məktəblərin yerləşdiyi ərazilərdə infrastrukturun yaxşı inkişaf etməməsi səbəbindən azyaşlı şagirdlər üçün məktəbə gediş-gəlişlə bağlı çətinliklər yaranır. Bununla yanaşı, dağlıq ərazilərdə məktəblərin xeyli hissəsinin hələ də istilik sistemi ilə təchiz olunmasında problemlər mövcuddur.

Beləliklə, kənd məktəblərinin ərazi təşkilində, onların ölçüsünün planlaşdırılmasında əhalinin məskunlaşma xüsusiyyətlərinin, kənd yaşayış məntəqələrinin böyüklüyünün, əhalinin sıxlığının, onun digər kəmiyyət və keyfiyyət göstəricilərinin və nəhayət, nəqliyyat amilinin nəzərə alınması vacibdir.

Ədəbiyyat

1. Abdullayeva R., Muradov A. Sosial sferanın iqtisadiyyatı. Bakı: “MEGA-H”, 2009, 237 s.
2. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. I cild. (akad. B.Ə.Budaqovun redaktəsi ilə). Bakı: Elm, 2000. 268 s.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) üzrə həyata keçirilməli tədbirlər. // “Azərbaycan” qəzeti, 12 fevral 2004-cü il, s. 3-16.
